Hər kəs ədalətli olacaq

ƏDALƏT

## Prezident: "Təmiz ətraf mühit və yaşıl inkişaf milli prioritetimizdir"




**"Azərbaycan qlobal iqlim aktını ardıcıl olaraq dəstəkləyir və enerji səmərəliliyi üzrə müxtəlif tədbirlər həyata keçirir. Təmiz ətraf mühit və yaşıl inkişaf milli prioritetlərimizdəndir. Azərbaycanda bərpa olunan enerji geniş vüsət alır".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev X hesabında bildirib.

"2024-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasına ev sahibliyi etmək, iqlim dəyişikliyinin öhdəsindən gəlmək üçün qlobal səylərə töhfə vermək bizim qətiyyətimizdən irəli gəlir. Azərbaycanın təklifinə dəyərli dəstəyə görə bütün ölkələrə səmimi təşəkkürümü bildirirəm. Biz COP29-u uğur hekayəsinə çevirmək üçün səylərimizi əsirgəməyəcəyik.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Mohamed bin Zayed Al Nahyana tədbirin gözəl təşkilinə görə təşəkkür edir və iqlimlə bağlı tədbirləri inkişaf etdirmək üçün birlikdə işləməyi səbirsizliklə gözləyirik" - dövlət başçısı bildirib.

## Spiker: "Seçkilər ilk dəfə ölkəmizin bütün ərazisində keçiriləcək"



**"2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında bir günlük antiterror tədbirləri nəticəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olması həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaradıb".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin keçirilən iclasında spiker Sahibə Qafarova deyib. MM sədri bildirib ki, 2024-cü ilin fevralın 7-də təşkil ediləcək növbədənkənar prezident seçkiləri bu reallıqları təsbit edir. "Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilər ölkəmizin bütün ərazisində keçiriləcək. Növbədənkənar prezident seçkilərini Zəfər seçkiləri də adlandırmaq olar".

## Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadıldı

**Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 2 aprel saat 06:00-dək uzadılıb.**

Adalet.az-ın xəbərinə görə, Nazirlər Kabineti bu barədə müvafiq qərar verib. Bundan əvvəl bu müddət 2024-cü il 2 yanvar saat 06:00-dək olan dövrü əhatə edib.

## DİN: Onlayn beh ödənişləri zamanı diqqətli olun



**Daxili İşlər Nazirliyi kibertalamaya və kiberdələduzluğa qarşı növbəti maarifləndirici videoçarx hazırlayıb.**

DİN-dən Adalet.az-a verilən məlumata görə, videoşarxda qeyd olunub ki, kart məlumatları yalnız kartın sahibinə təqdim olunur və tam məxfi saxlanılması zəruridir.

"Heç bir halda bank və şəxsi məlumatlarınızı digərlərinə təqdim etməyin. Kartdan-karta pul vəsaitlərinin köçürülməsi üçün bank kartının önündəki 16 rəqəm kifayət edir. CVV kod və digər məlumatların məxfiliyini qorumaq vətəndaşın öhdəliyidir", DİN-dən bildirilib.

## Xankəndidə peşə təhsili müəssisəsi yaradılacaq

**Qarabağ Universitetinin tərkibində bir peşə təhsili müəssisəsinin yaradılması nəzərdə tutulur.**

Adalet.az xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Güclü iqtisadiyyat üçün Azərbaycanda peşə təhsilinin inkişaf yolu: gələcəyə baxış" adlı konfransda çıxışı zamanı deyib.

O bildirib ki, bununla bağlı ilkin planlar var:

**"Təbii ki, bu planlar təsdiq olunmalı, sonra yola çıxılmalıdır".**

## Cahid Bağçı: Türkiyə-Azərbaycan münasibətləri dünyaya nümunədir



**Ümummilli Liderin ən böyük vəsiyyəti Qarabağın işğaldan azad edilməsi idi. Bu gün Qarabağ azaddır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilib.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağçı deyib.

O bildirib ki, Ümummilli Liderin ortaya qoymaq istədiyi bütün siyasətlər Prezident İlham Əliyev tərəfindən uğurla icra edilib:

"Özünün də dediyi kimi, rəhmətlik atasının etmək istəyib edə bilmədiyi heç bir şey qalmayıb. Hər şey tamamlanıb. Biz də buna tamamilə inanırıq. Ümummilli Liderin Türkiyə ilə qurduğu siyasət, əlaqələr prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən ən yüksək səviyyəyə qaldırılıb. Bu gün Türkiyə-Azərbaycan münasibətləri dünyaya nümunədir, bunun bənzəri yoxdur. Biz bunu Ümummilli Lider Heydər Əliyevdən miras almışıq, yaşatma əzmi ilə də çalışırıq".

Rüstəm Hacıyev

## Cənubi Amerikada müharibə başlayır?..

Bax:səh-3

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 48 (6041) 15 dekabr 2023-cü il | Qiyməti 40 qəpik

# SALAM, VƏTƏN!




## BİR DAHA YAŞAR ƏLİYEV MƏNƏ ZƏNG ETMƏYƏCƏK



**Görkəmli dövlət xadimi, gözəl insan, millətini və Vətənini öz canından çox sevən Yaşar Əliyevi itirdik.**

Uzun müddət idi ki, xəstə idi. Özünün ağır xəstə olmağına baxmayaraq, hərdən mənə telefon açardı, zəif səsi ilə hal-əhval tutardı. Deyərdi ki, özündən muğayat ol, uşaqlarından muğayat ol. Mən də ona tezliklə sağalmasını arzulayırdım.

Hətta mən Ankarada xəstəxanada yatarkən də axtarıb məni tapmışdı. Demişdi ki, xəstəliyin boş şeydir, fikir vermə, inşallah, keçib gedər.

Bu, Yaşar müəllimin mənə son zəngi oldu.

Çox təəssüf edirəm ki, Yaşar müəllim bir daha mənə zəng etməyəcək.

Heç o dünyada da görüşə bilməyəcəyik, çünki Yaşar müəllimin yeri cənnətdir və məni də ora buraxmazlar.

**Yaşar müəllimin vəfatı ilə əlaqədar bütün əzizlərinə, qohum-əqrəbalarına və Azərbaycan xalqına başsağlığı verirəm.**

Aqil ABBAS

## Azad edilən ərazilərdə yüzminlərlə iş yeri yaradılacaq



**Azad edilən ərazilərdə yüzminlərlə iş yerinin yaradılacağı gözlənilir.**

Adalet.az xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev deyib.

Nazir müavini bildirib ki, həmin ərazilərdə sosial infrastrukturun qurulması və oraya qayıdan şəxslərin dayanıqlı məşğulluğu önəmlidir: "Çünki orada bütün infrastruktur tamamilə məhv edilib. Bütün bunlar ölkə qarşısında əhalinin məşğulluqla təmin edilməsi baxımından ciddi çağırışlar qoyur. Hesab edirəm ki, Azərbaycan bütün çağırışların öhdəsindən uğurla gəlir, görülən işlər də buna bariz nümunəsidir".

Nazirliyin prosesdə yaxından iştirak etdiyinə diqqət çəkən A.Əliyev vurğulayıb ki, azad olunan ərazilərə qayıdan şəxslərlərlə işin aparılması, məşğulluq imkanlarının qiymətləndirməsi təşkil olunur: "Prioritet ixtisası və peşəsi olanlara, eləcə də məşğulluq tarixçəsi olan şəxslərə üstünlük verilir. Peşə hazırlığı alətinə də önəm verilir. Əmək bazarının öyrənilməsi ilə bağlı mütəmadi fəaliyyət göstəririk. Bu gün cəmiyyətdə peşə təhsilinin nüfuzunun artırılmasına ehtiyac var. Gənclərin bu sahəyə marağı güclənməlidir".

## "LEOPARD" ELƏ ÇIRTAÇIRTLA YANIR Kİ



**Almanların "Leopard" tankı hələ ki dünyada ən güclü, əvəzsiz döyüş texnikası sayılır. Bir dəfə Moskva televiziyalarının birində almanların ukraynalılara "Leopard" tankı verdiyi ilə bağlı müzakirə gedirdi. Aparıcı verilişdə olan bir generaldan soruşdu ki, bu tankı vurmaq olmur, yanmır?**

General təbəssümlə dedi:

- Suriyada vururduq, elə çırtaçırtla yanırdı ki.

İndi Fransa "dəliyə yer ver, əlinə tank ver" fəlsəfəsi ilə Ermənistana külli miqdarda zirehli texnika, silah-sursat, hava hücumundan müdafiə sistemləri və sairə və ilaxır bağışlayıb. Ermənistanı yenidən müharibəyə həvəsləndirir. Bircə Qənimətlər parkımızda Makronun texnikalarının yeri əskikdi. Xeyli ərazi də boşdu, yəni Ermənistan Makrona çox güvənməsin.

Biz müharibə istəmirik, sülh istəyirik. Əgər Ermənistan hələ ağıllanmayıbsa və savaş istəyirsə onu alar. Biz savaş istəmirik, biz bizimlə savaşanlarla savaşırıq.

**Əslində erməni xalqı da savaşmaqdan yorulub. Makron kimi yuxa qulağı sulayanlar olmasa yəqin ki, Ermənistan da sülh istəyər.**

## Azərbaycanda güclü zəlzələ ola bilər?

**Hansısa bir zonada güclü zəlzələ olma ehtimalı yoxdur. Dünən 47 təkan olub. Ancaq narahatlığa heç bir əsas yoxdur.**

Adalet.az xəbər verir ki, bunu AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli jurnalistlərə açıqlamasında bildirib.

## NEYLƏYƏK, BİZ BELƏYİK DANA



**70-ci illərdə Xalq Təsərrüfatı İnstitutunda "Qara" deyə çağırdığımız bir ağdamlı oğlan öz qrup yoldaşını möhkəm döyüb xəstəxanalıq edir.**

Qaranın institutdan qovulması rektorluqda müzakirə edilir. Müzakirəsi və qovulması prorektor, əslən ağdamlı olan Çingiz Axundova tapşırılır. Çingiz Axundov deyir ki, o tələbəni çağırın, son sözünü dinləyək.

Qara girir içəri, rəhmətlik Çingiz Axundov soruşur:

**- Haralısan, ə?**

**- Ağdamlı.**

Çingiz Axundov başını bulayıb önündəki iş qovluğunu itələyib deyir:

**- Neyləyək, biz beləyik dana. Rədd ol çölə. Bir də belə axmaqlıq eləsən, səni özüm döyəcəm.**

Beləliklə, Qara institutdan qovulası olmur.

İndi oxuyuram ki, milli komandamızın üzvü "Buriram Yunayted"də çıxış edən Ramil Şeydayev Asiya çempionlar liqasında Çin klubu ilə keçirilən oyundan sonra böyük dava düşüb və Ramil Şeydayev də rəqib komandanın oyunçularını ustaddangəlmə döyüb.

**Çingiz müəllim demişkən, "neyləyək, biz beləyik dana".**

## QƏDEŞ, SƏNİN DƏ VAXTLARIN OLUB EY




**30 ildir Azərbaycanda futbol çempionatı keçirilir. Builki qədər maraqlı və gərgin çempionat görməmişik. "Qarabağ" və "Zirə" atların başını buraxıblar və gedirlər, çətin ki onlara çatan olar. Çox qəribədir ki, 3-cü yerlə 7-ci yer arasında demək olar ki, fərq yoxdur. Bu gün 7-ci yerdə olan iki turdan sonra 3-cü yerdə də ola bilər.**

Nəhayət, "Neftçi" də özünü toparlaya bildi, "Sabah" da. "Araz- Naxçıvan" isə builki çempionatın sürpriz komandasıdır. Çox qısa bir müddətdə belə bir komanda formalaşdırmaq hər oğulun işi deyil. Sonuncu yer uğrunda isə "Kəpəz"lə "Qəbələ" gərgin mübarizə aparır.

"Uşaqlığın son gecəsi"ndə belə bir ifadə var, Murad Davuda deyir:

- Qədeş, sənin də vaxtların olub ey.

İndi "Qəbələ"nin də vaxtları olub. Və "Qəbələ"yə həmin vaxtları arzulayırıq.

## MURAD MUSAYEVƏ «ŞİNNİK»DƏN ELÇİ GƏLİB



**Son zamanlar Murad Musayev "Sabah"ı toparlaya bilib və komandanı Avropa çempionatına çıxarmaq üçün iddialıdır. Ümumiyyətlə, Murad Musayev yaxşı məşqçidir, futbolumuza yeni bir ab-hava gətirib.**

İndi Yaroslavlın "Şinnik"i Murad üçün bir nümayəndə göndərib. "Şinnik" Rusiyada birinci divizyonda oynayır, heç vaxt da normal bir komanda olmayıb. SSRİ çempionatında da həmişə "Neftçi"nin hərifi olub. Rusiya çempionatını izləmədiyimə görə indi bu komanda haqqında o qədər də məlumatlı deyiləm.

Amma Murad Musayevin "Sabah"dan ayrılmasını da istəmirəm. Özü də mövsümün yarısında.

## Zelenski təcili çağırış etdi



**ABŞ-ın dəstəyinin vacib və təcili olduğunu xatırladan Ukrayna prezidenti Zelenski ölkəsindəki müharibənin gedişi ilə bağlı ABŞ Senatının aparıcı simalarına çağırış edib.**

Adalet.az xəbər verir ki, ABŞ-ın Ukraynaya dəstək paketinin Senatdan keçib-keçməyəcəyi ilə bağlı müzakirələr davam edərkən, Vaşinqtona səfər edən Ukrayna prezidenti Volodimir Zelenski Konqres liderlərindən təcili dəstək istəyib. Əks halda müharibəni uduzacaqlarını deyən Zelenski ABŞ prezidenti Co Baydenlə görüşündən əvvəl Senat və Nümayəndələr Palatasında bir sıra görüşlər keçirərək ölkəsinə təcili dəstək verilməsini xahiş edib.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## DARIXAN ADAM



*Çox ağır, uzun və darıxdırıcı səfər oldu. İlk dəfəydi ki, Vətəndən təxminən iki ay ayrı düşdüm. Düzdür, getdiyim yer də Vətən sayılırdı, amma doğulduğum, uşaq vaxtı torpağını yediyim, qız dalınca düşdüyüm, döyüb-döyüldüyüm Vətən deyildi. Ömrümdə qibləmiz olan Bakı üçün bir belə darıxmamışdım. Dostlarım üçün darıxmışdım, Bakının tıxacları üçün darıxmışdım. Tıxaclarda qalanda buna səbəb olan şəxsləri söymək üçün darıxmışdım.*

*Deyirlər bir ara Məhəmməd Hadi orduda mollalıq edirmiş. Bir əsgər şəhid olur, Şairi çağırırlar ki, gəlsin cənazə namazı qılsın. Şair gəlib görür ki, cənazəni üzü qibləyə, yəni Məkkəyə tərəf qoyublar.*

*Deyir:*

*- Çevirin üzünü Bakıya, bunun qibləsi Bakıdır.*

*Cənazənin üzünü Bakıya çevirtdirir və deyir ki, bu heç sağlığında ərəb dilini bilmirdi və başlayır "İnsanlığın tarixi faciəsi" poemasını oxumağa.*

Bax:səh-3

## AFFA-nın ÖZÜNÜN NÜFUZU QALIB Kİ?!



**"Futbol.info" saytında "Turan" Tovuzun rəhbəri Ehtiram Quliyev haqqında və ümumiyyətlə, bu komanda haqqında maraqlı bir yazı oxudum. Yazının başlığı belə idi:**

**"AFFA Ehtiram Quliyevi nüfuzdan salmağa çalışır?"**

**Dostlar, AFFA-nın özünün bir nüfuzu qalıb ki?!**

# Prezident İlham Əliyev Hakan Fidanı qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.**

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Dövlət başçıları və digər səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə töhfə verdiyi bildirilib.

Söhbət zamanı əlaqələrimizin bundan sonra da bütün istiqamətlərdə daha da möhkəmlənəcəyinə əminlik ifadə olunub, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ilə bağlı fikir mübadiləsi aparılıb.

# Azərbaycanda 3 xüsusi təyinatlı hərbi kollec yaradılır

**Prezident İlham Əliyev gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.**

Fərmana əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti peşəkar gizir heyətinin hazırlanması məqsədilə Bakı, Gəncə şəhərlərində və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində 3 xüsusi təyinatlı hərbi kolleci (bundan sonra - hərbi kollec) üç ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməlidir.

2024-2025-ci tədris ilindən başlayaraq təhsil almaq üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində ali təhsil müəssisəsinin bakalavriat səviyyəsinə, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursuna (bundan sonra - ali təhsil müəssisəsi) və hərbi kolleclərə qəbul olunmuş kursantlar üçün 500 manat, hərbi liseylərə qəbul olunmuş kursantlar üçün 300 manat məbləğində birdəfəlik ödəmə təsis edilməlidir.

2024-2025-ci tədris ilindən başlayaraq bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan təhsil müəssisələrində təhsil alan kursantlar üçün təhsil müddətində aşağıdakı aylıq ödəmələr təsis edilməlidir:

ali təhsil müəssisəsi üzrə:
150 manat məbləğində təqaüd;
200 manat məbləğində ailə üzvlərinə maddi yardım;
200 manat məbləğində hesabda yığılan ödəniş;
hərbi kolleclər üzrə:
100 manat məbləğində təqaüd;
200 manat məbləğində ailə üzvlərinə maddi yardım;
150 manat məbləğində hesabda yığılan ödəniş;
hərbi liseylər üzrə:
50 manat məbləğində təqaüd;
100 manat məbləğində ailə üzvlərinə maddi yardım;
100 manat məbləğində hesabda yığılan ödəniş.

2024-2025-ci tədris ilindən başlayaraq ali təhsil müəssisəsinə və hərbi kolleclərə daxil olan kursantlar həmin təhsil müəssisələrindən məzun olaraq Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir kimi həqiqi hərbi xidmət keçdikdən sonra yaşayış sahəsinin hazırlıq qiymətinin 15 faizinin məbləğində Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi və ya İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına güzəştli ipoteka kreditindən istifadə etdikdə müvafiq yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdiriləcək.

Müəyyən edilib ki:

bu Fərmanın 3.1.3-cü, 3.2.3-cü və 3.3.3-cü yarımbəndlərində göstərilən ödənişlər bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan kursantların hər biri üçün açılmış hesabda yığılır;

bu Fərmanın 5.1-ci bəndinə uyğun olaraq hesabda yığılan vəsait və həmin vəsaitin idarə olunmasından əldə edilən gəlir aşağıdakı hallarda ödənilir:

ali təhsil müəssisəsini və hərbi kollecləri bitirmiş məzunlara - Azərbaycan Ordusunda müvafiq qaydada zabit və ya gizir kimi vəzifəyə təyin edilərək həmin vəzifənin icrasına başladıqda;

hərbi liseyləri bitirmiş məzunlara - ali təhsil müəssisəsinə qəbul olduqda;

bu Fərmanın 2-ci və 3-cü hissələrində nəzərdə tutulan ödəmələr (bundan sonra - ödəmələr) dövlət büdcəsinin vəsaiti hesabına Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ödənilir;

bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulan şəxslər güzəştli ipoteka kreditindən istifadə etdikdə onlara "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanının müddəaları şamil olunmur.

Hərbi kolleclərin fəaliyyətinin təşkili və zəruri infrastrukturun yaradılması məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ilkin olaraq 2 milyon manat məbləğində vəsait ayrılıb.

Nazirlər Kabineti üç ay müddətində:

"Gənclərin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almalarına dair 2024-2033-cü illər üçün Tədbirlər Planı"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli;

ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etməli;

bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq güzəştli ipoteka krediti üzrə yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsinin maliyyələşdirilməsi, habelə güzəştli ipoteka kreditinin bir hissəsinin ödənilməsinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikası Prezidentinə təqdim etməli;

bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Müdafiə Nazirliyinə:

bu Fərmanın 2-4-cü hissələrində nəzərdə tutulan ödəmələrin maliyyələşdirilməsi məqsədilə tələb olunan vəsaitə dair təkliflərini müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etmək;

bu Fərmandan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

**Maliyyə Nazirliyinə bu Fərmanın 6-cı hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.**

# Vəsiyyəti yerinə yetirilən Ulu Öndər Heydər Əliyevin ruhu şaddır

**Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin vəfatından 20 il keçir. Bu gün hər bir ölkə vətəndaşına bəlli olan bir həqiqət var: Həsəd aparılacaq bir zəngin, mənalı və şərəfli ömür yaşamış Ulu öndərimiz Heydər Əliyev qısa zaman kəsiyində xalqımızın uzun əsrlər boyu uğrunda usanmadan çarpışdığı ən ümdə haqqını reallığa çevirmişdir. Azərbaycanı hər bir dövlət və millət üçün ən yüksək məqama - müstəqilliyə qovuşdurmuş, dövlətimizin dünya birliyində layiqli yerini bütün bəşəriyyətə nümayiş etdirmişdir.**

XX əsrdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikanın müstəqilliyə gedən yolu 1969-cu ildən başlayaraq Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən məqsədyönlü siyasətlə tamamlanıb.

Zaman və ictimai-iqtisadi formasiya baxımından kifayət qədər fərqli olan hər iki tarixi dövrün əsas bənzər cəhətləri isə Ulu Öndərin Azərbaycana böyük nailiyyətlər qazandıran fədakar xidməti, eləcə də ölkənin inkişafında yeni impuls və tərəqqi meyillərinin geniş vüsət alması olub. Heydər Əliyevin hələ Sovet Azərbaycanına rəhbərliyi dövründə həyata keçirdiyi çoxşaxəli fəaliyyəti xalqımızda milli qürur, milli mənlik şüurunun formalaşmasına, azadlıq, müstəqillik duyğularının baş qaldırmasına gətirib çıxarmışdır.

Ulu Öndərin respublikaya böyük uzaqgörənliklə və müdrikcəsinə rəhbərlik etdiyi 1969-1982-ci illər Azərbaycanda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşdü. Heydər Əliyev hakimiyyətə gələnə qədər sovetlər birliyinin geridə qalan respublikalarından sayılan Azərbaycan çox qısa bir müddətdə iqtisadi artım tempinə görə orta ittifaq səviyyəsini ötmüş oldu.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ölkə Prezidenti seçildikdən sonra əvvəlki iqtidarlardan xalqımız üçün hansı problemlərin miras qaldığı hamıya məlum idi. Torpaqlarımızın işğalı, on minlərlə şəhid və döyüş əlillərinin olması, yüz minlərlə azərbaycanlının qaçqın və məcburi köçkün düşməsi, iqtisadiyyatın çökməsi həmin iqtidarların səriştəsiz idarəçiliklərinin məntiqi nəticəsi idi. Orta və yuxarı yaşlı nəslin nümayəndələri Ulu Öndər Heydər Əliyevin bu problemlərin həlli üçün hansı əziyyətlərə qatlaşdığının şahidi olublar. Bir tərəfdən Ermənistanın artan hərbi hücumlarının, digər tərəfdən separatçılıq meyllərinin qarşısının alınması, o cümlədən strateji qida olan çörək çatışmazlığının aradan qaldırılması, yüz minlərlə məcburi köçkünün yaşayış yerləri ilə təmin olunması ölkə rəhbərindən gecə-gündüz zəhmət, qətiyyət tələb edirdi.

Lakin Heydər Əliyev öz xalqının problemləri ilə yaşayan milli rəhbər idi. Məhz onun idarəetmə səriştəsi, liderlik ustalığı nəticəsində sosial kataklizmlərin prioritetləri seçildi, bu yönümdə ardıcıl məqsədyönlü addımlar atıldı. Atəşkəsin əldə olunması, ölkədə ictimai siyasi-sabitliyin yaranması, tarixi neft kontraktlarının imzalanması, ilk növbədə, Azərbaycanın dövlət müstəqilliyi təhlükələrini aradan qaldırdı. Bunun ardınca Ulu Öndərin tarixi xilaskarlıq missiyası tənəzzüldən inkişafa doğru dönüşün əsasını qoydu. Eyni zamanda bu missiya sabitlikdən sosial rifaha sürətli keçidi təmin etdi. Hər bir qələbəni, hər bir uğuru tarix və şərait yetişdirir. Bu baxımdan İkinci Qarabağ savaşında istər hərbi, istər diplomatik cəbhələrdə qələbəyə gedən yolun təməli hələ Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə qoyulmuşdu. Fəxrlə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ölkəmizdə başlanan dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün gücü ilə qürurlandığımız, suverenliyimizin və ərazi bütövlüyümüzün yeganə təminatçısı olan Azərbaycan Or-



dusudur. 1994-cü ildə atəşkəs sazişinin imzalanmasından sonra Azərbaycanda ordu quruculuğu, ölkənin müdafiə qabiliyyətinin artırılması istiqamətində görülən işlər yeni fazaya daxil oldu. Vahid komandanlıq əsasında hərbi hissələrin formalaşdırılması tezliklə başa çatdırıldı.

Heydər Əliyev fəaliyyəti boyu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində bütün dünyaya çatdırır, beynəlxalq hüquq normaları əsasında regionda sülhün təmin edilməsi üçün həmin təşkilatların təsir imkanlarından istifadə etməyə çalışırdı. Bu zaman Ulu Öndərin istinad etdiyi əsas sənədlər BMT-nin 4 qətnaməsi idi. Bununla yanaşı, Heydər Əliyev hər bir beynəlxalq təşkilatın Zirvə görüşünün yekun sənədində Azərbaycanın ərazi bütövlüyünü təsbit edən müddəanın salınmasına xüsusi diqqət yetirirdi. Heydər Əliyev çevik və dəqiq diplomatik addımları ilə Azərbaycanın dünya birliyi tərəfindən müdafiə olunmasına nail oldu.

Ulu Öndər Azərbaycanın inkişafında qazandığı uğur və nailiyyətlərin davamlı olmasını təmin etmək üçün böyük fədakarlıq göstərib. Bunun ən bariz nümunələrindən biri də Ulu Öndərin özündən sonra ölkəmizə layiqincə rəhbərlik edərək qazanılan uğurların davamlılığını təmin edəcək, xalqın alternativsiz liderinə çevriləcək davamçı-varis yetişdirməsindədir. Ümummilli Lider Azərbaycan xalqına son müraciətində İlham Əliyevi özünün siyasi varisi olduğunu bəyan edərək demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ömrün vəfa etmədiyi Ümummilli Liderin axıra çatdıra bilmədiyi işlərin biri və birincisi isə torpaqlarımızı düşmən tapdağından azad etmək, məcburi köçkünlərin öz doğma yurd-yuvasına qayıtmasını təmin etmək olmuşdur.

Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli ötən 20 ildə daim Prezident İlham Əliyevin diqqət mərkəzində olub. Xüsusilə qeyd etməliyik ki, cənab İlham Əliyev məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması işini sistemləşdirdi, mərhələlərlə ən ağır şəraitdə yaşayan məcburi köçkünləri yeni evlərlə təmin etdi. Şəhid ailələri və müharibə əlillərinin mənzillə təmin edilmə proqramı da ildən-ilə gücləndirilir. Bu həssas sosial məsələlərlə bağlı Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr respublika ictimaiyyəti tərəfindən razılıqla qarşılanır. Qarabağ döyüşlərində sağlamlığını itirmiş vətəndaşlarımızın sosial müdafiəsi, reabilitasiyası və cəmiyyətə inteqrasiyası məsələləri də Mehriban Əliyevanın xüsusi diqqətindədir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına və başqa beynəlxalq strukturlara üzvlüyə qəbul ediləndə onların hər biri Dağlıq Qarabağı ölkəmizin ərazisi kimi tanıyıb. Bütün dünya dövlətlərinin yaxşı bildiyi BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi isə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyini konkret formada sübut edən beynəlxalq hüquqi sənədlərdir.

Bu sənədlərin qəbul edilməsinin lehinə səs verənlər həm də danışıqlar prosesində ATƏT-in Minsk qrupuna həmsədrlik edən dövlətlərdir. Lakin onlar heç bir zaman BMT qətnamələrinin yerinə yetirilməsini işğalçıdan tələb etmədilər.

Qeyd edək ki, müasir tariximizdə bir sıra ölkələrə qarşı beynəlxalq sanksiyalardan və hətta güc amilindən istifadəyə dair çoxsaylı hadisələr var.

Buna baxmayaraq, Azərbaycan dövləti öz haqq işi uğrunda mübarizəsini davam etdirdi.

Bu mübarizənin əsas xətlərindən biri diplomatik sferada Ermənistanın sıxışdırılması idi ki, Prezident İlham Əliyev müdrik siyasətçi kimi buna yüksək peşəkarlıqla nail oldu. Ermənistanın baş nazirinin 2019-cu il Xankəndidə sərsəmləməsindən sonra Prezident İlham Əliyevin Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun sessiyasında "Qarabağ Azərbaycandır və nida" cavabı Ermənistana vurulan güclü siyasi-diplomatik zərbə kimi tarixə düşdü.

Ermənistana qarşı hücumçu diplomatiya ilə yanaşı, müasir, yeni döyüş texnologiyaları ilə zəngin ordu quruculuğu ötən 20 ildə Prezident İlham Əliyevin fəaliyyətinin ardıcıl, sistemli prioritet istiqamətini təşkil edib. Bunun nəticəsidir ki, bu gün Azərbaycan Ordusunun döyüş imkanları dünyanın ən güclü orduları ilə bir sırada dayanır.

Möhtərəm Prezident İlham Əliyev torpaqlarımızın güc yolu ilə azad edilməsinin mümkünlüyünü həmişə bəyan edib. Hər bir qələbəni, hər bir uğuru tarix və şərait yetişdirir.

Bu qələbənin müəllifi isə düzgün və düşünülmüş qərarlar qəbul edən lider olur. Fəxarət hissi ilə qeyd etməliyik ki, İlham Əliyev elə bir uğurlu siyasət irəli sürdü ki, ordumuz öz missiyasını layiqincə həyata keçirdi. Torpaqlarımızı azad etmək istəməyən Ermənistan güc yolu ilə ərazilərimizdən qovuldu, darmadağın edildi.

İlham Əliyevin 44 gün davam edən müharibə günlərində beynəlxalq təzyiqləri diplomatik peşəkarlıqla dəf etməsi, 30-a yaxın beynəlxalq KİV-ə verdiyi müsahibələrdə dünya erməniliyinə vurduğu zərbələr də bu qələbəni şərtləndirən amillərdir. Möhtərəm Prezidentimizin həmin günlərdə xalqa müraciətləri hamının sevə-sevə dinlədiyi el ifadələri, şirin milli terminologiyalarla zəngin nitqlər idi. Prezidentə məhəbbət, ona sıx bağlılıq Vətən müharibəsi dövründə özünü daha bariz şəkildə göstərirdi.

Artıq ərazi bütövlüyünü təmin edən Azərbaycan vətəndaşları öz torpaqlarına geri dönür. Bu dönüş möhtəşəm olacaq və işğaldan azad edilmiş ərazilərimiz ən qısa vaxtda öz inkişafları ilə yeni nümunələr yaradacaqlar.

Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşanın azad olunması xəbərini verdiyi gün xalqa müraciətində demişdir: "Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm... Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim". Bununla da sübuta yetdi ki, Ulu Öndərimizin layiqli davamçısı Prezident İlham Əliyev həm ata vəsiyyətini yerinə yetirən övlad, həm də onun memarı olduğu dövlətin rəhbəri, qurduğu qüdrətli ordunun Ali Baş Komandanı kimi Heydər Əliyev ucalığının parlaq təcəssümüdür.

**Ulu Öndər Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil bir dövlət qurmaq idi. Tarixə müasir Azərbaycanın memarı olaraq düşən Ümummilli Lider Heydər Əliyev hər zaman Azərbaycanı özünə güvənən qüdrətli bir ölkəyə çevirmək istəyirdi. Bu yolda qəti addımlar atır, əməli işlər görür, özünün iqtisadi inkişaf yolunda olan Azərbaycanın etibarlı, sağlam gələcəyini qururdu. 2003-cü ildən bəri müstəqil dövlətimizin qurucusu və xalqımızın xilaskarı, dahi şəxsiyyət Heydər Əliyev cismən yanımızda olmasa da, onun ideyaları və böyük dühası əbədiyaşardır. Əminik ki, bu gün daim azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyevin ruhu şaddır--xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü onun ideya və əməllərini davam etdirən, yarımçıq qalmış arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bərpa edilmiş, 30 ildən bəri düşmən nəsarətində olan Qarabağ əbədi azadlığına qovuşmuşdur. Heydər Əliyevin böyük siyasəti qalib gəlməklə onun ölməzliyini bir daha təsdiqləmişdir. Bütün bunlara görə qədirbilən xalqımız ümummilli lider Heydər Əliyevin əziz xatirəsini daim yüksək tutur, onun müqəddəs ruhu qarşısında baş əyir və uca Yaradandan unudulmaz öndərinə qəni-qəni rəhmət diləyir!**

**Hafiz Hüseynov,**
**Ağcabədi rayon icra hakimiyyəti başçısı aparatının Hüquq Şöbəsinin müdiri**

# Hərbi ekspert: "Arayik və onun kimi separatçılar hələ çox ad günlərini..."

**"Azərbaycana qarşı kifayət qədər ağır müharibə cinayətləri törədən Arayik Harutyunyan artıq qırx gündür ki, Azərbaycanın istintaq təcridxanasında ifadə verir və bu gün o, əlli yaşını artıq Bakıda qeyd edir"**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Hərbi ekspert daha sonra erməni separatçı Arayik Harutyunyan haqqında fikirlərinə bunları əlavə edib:

"Harutyunyanın Azərbaycana qarşı son 13 ildəki fəaliyyətlərinə nəzər salsaq, məlum olar ki, Arayik Harutyunyan Azərbaycanın qatı düşmənlərindən biri olub, mülki əhalisinə qarşı taktiki raketdən atəş açılması barədə göstəriş verib və bunu özü də hələ dırnağarası vəzifəsində



olarkən etiraf edib. Belə bir cinayətlər isə təbii ki, cəzasız qalmır, nə Arayik, nə istintaqa cəlb olunan separatçı rejimin rəhbərləri Azərbaycanın dəmir yumruğuyla onun ədalət məhkəməsindən yayına bilməyəcək və Arayik eləcə də onun kimi digər separatçı qurum rəhbərləri hələ bundan sonra çox uzun illər boyu ad günlərini məhz Azərbaycanda dəmir barmaqlıqlar arasında qeyd edəcək.

Arayik və onunla birgə Azərbaycan istintaq orqanlarının suallarına cavab verən şəxslər ilk növbədə birinci Qarabağ müharibəsindən bəri hələ də taleyinə aydınlıq gətirilməmiş 3890 nəfər vətəndaşımızın harda dəfn edildiyinə dair suallarımıza cavab verməlidir.

Eyni zamanda, ərazilərimizin darmadağın edilməsi, ərazilərimizə uzun illər silah-sursat, mina, texnika, heyət daşınmasına, azərbaycanlıların qoyub çıxdığı malın, mülkün, evlərin, infrastrukturun tamamilə darmadağın edilməsinə və hara daşınmasına dair suallarımıza konkret cavablar verməlidirlər. Bütün bunların məsuliyyətini daşıyan əsas şəxslərdən biri də məhz Arayik Harutyunyandır.

Ona görə də onun həbsi Azərbaycan xalqının, ictimaiyyətimizin vicdanını bir az rahatlatmış oldu. Bəlkə Arayik və onunla bərabər ifadə verən cinayətkarların başına gələnlər Azərbaycana qarşı müharibə gündəliyini irəli sürən bəzi qüvvələrə də bir ibrət dərsi olmalıdır. Kim qarşımıza çıxacaqsa, onu ya əzib keçəcəyik, ya da Azərbaycanın qanunvericiliyi çərçivəsində cəzalanmasına nail olacağıq. Buna kimsənin şübhəsi olmamalıdır"-deyə hərbi ekspert bildirib.

**Qeyd edək ki, bu gün erməni separatçı, terrorçu Arayik Harutyunyanın doğum günüdür. O, əlli illik yubileyini Bakıda istintaq təcridxanasında qeyd edir.**

**Vasif Əlihüseyn**

# FÖVQƏLADƏ HALLAR NAZİRİ, GENERAL-POLKOVNİK KƏMALƏDDİN HEYDƏROV CƏNABLARINA



**Çox hörmətli cənab nazir!**

Sizi və Sizin şəxsinizdə ölkəmizin Fövqəladə Hallar Nazirliyi strukturunun bütün əməkdaşlarını peşə bayramınız münasibətilə ürəkdən təbrik edir və hər birinizə can sağlığı, dövlətimiz naminə gördüyünüz işlərdə uğurlar diləyirəm.

**Cənab general-polkovnik!**

Ölkəmizdə hər kəsə yaxşı məlumdur ki, Azərbaycanın Fövqəladə Hallar Nazirliyi yarandığı gündən ölkə həyatının bütün sahələrində öz vəzifəsini şərəflə yerinə yetirib və bu gün də yerinə yetirir. Sizin həmin quruma rəhbər təyin edildiyiniz dövrdən sonra nazirliyin iş görmə qabiliyyəti, faydalılıq əmsalı, bir az da konkret desəm, Azərbaycanda və onun hüdudlarından kənarda gerçəkləşdirdiyi xidmətlər həqiqətən təqdirəlayiqdir.

Bu gün ölkə prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuş nazirliyin ən zəruri avadanlıqlarla, texniki vasitələrlə təminatı, yaradılmış iş şəraiti həm ürəkaçandı, həm də qürurvericidi. Heç də təsadüfi deyil ki, Azərbaycan FHN-çiləri təkcə ölkə daxilində deyil, yaxın-uzaq məmləkətlərdə də öz bacarıqları ilə hər kəsi təəccübləndiriblər. Hətta Türkiyə prezidenti cənab Ərdoğan da Türkiyədəki sonuncu zəlzələ zamanı vurğuladı ki, başqa dövlətlər telefon açıb hansı yardımların lazım olduğunu soruşanda Azərbaycandan soruşdular ki, təyyarələrimiz hansı limanlara ensin.

Bax, elə bu fikrin özü bizim Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının çevikliyinin, peşəkarlığının real göstəricisidir.

**Cənab nazir!**

Bu gün Fövqəladə Hallar Nazirliyinin əməkdaşları üçün Sizin rəhbərliyiniz altında reallaşan peşə təcrübəsi, yeni ixtisaslara yiyələnmək, müasir avadanlıqlardan, təcrübələrdən istifadə etmək işi bu qurumun nüfuzunu daha da artırır. Və ölkəmizdə indi hər kəs yaxşı bilir ki, FHN-çilər Qarabağ cəbhəsində, döyüş meydanlarında göstərdiyi igidliklə yanaşı, öz xidməti sahələrində də hər cür qəhrəmanlığa hazırdırlar. Və onlar bunu dəfələrlə sübut ediblər.

**Çox hörmətli Kəmaləddin müəllim!**

**Bir daha Sizi və ölkəmizin ən önəmli strukturlarından biri olan Fövqəladə Hallar Nazirliyinin bütün əməkdaşlarını peşə bayramı münasibətilə ürəkdən təbrik edirəm.**

**Hörmətlə:**
**Aqil ABBAS,**
**millət vəkili**

# Rəqabət Məcəlləsi qəbul olundu



**Milli Məclisin iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.**

Adalet.az xəbər verir ki, Məcəllə hökmran mövqedən sui-istifadənin qarşısının alınması və rəqabət neytrallığının təmin edilməsinə xidmət etməklə yanaşı, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasına da imkan yaradacaq.

Qanun layihəsi rəqabət mühitinin inkişaf etdirilməsi və institusional bazanın möhkəmləndirilməsi istiqamətində inhisarlaşma meyillərinin iqtisadi fəaliyyətə və dövlət büdcəsinə mənfi təsirlərinin aradan qaldırılmasına imkan verən əhatəli bir hüquqi çərçivə yaradır.

Rəqabət Məcəlləsi bazarda hökmran mövqedə olan təsərrüfat subyektlərinin inhisarçı meyillərinin qarşısının alınmasının, kartel tipli əlaqələrin müəyyən edilməsinin, təbii inhisarların fəaliyyətinə səmərəli nəzarətin təşkilinin, haqsız rəqabət hallarının aradan qaldırılmasının və dövlət rəqabət nəzarətinin effektiv təşkilinin hüquqi bazasını özündə ehtiva edir.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq III oxunuşda qəbul olunub.

Rəqabət Məcəlləsi qəbul edildikdən təxminən 6 ay sonra, yəni 2024-cü il iyulun 1-də qüvvəyə minəcək.

Qeyd edək ki, Rəqabət Məcəlləsi 2006-cı ildə hazırlanaraq Milli Məclisə təqdim edilib. Qanun layihəsi iki oxunuşdan keçsə də, üçüncü oxunuşda müzakirəyə çıxarılmamışdı.

# Komitə sədri: "Burada şübhəli məqam axtarmaq düşmənçilikdir"

**"Konstitusiyamızın 1 və 2-ci maddələrində göstərilib ki, hakimiyyətin mənbəyi və suverenliyin daşıyıcısı xalqdır. İş burasındadır ki, indiyə qədər Prezident seçkilərində Qarabağ və bitişik rayonlar həmişə işğalda olub. Deməli bizim ərazi bütövlüyümüz və suverenliyimiz təsbit olunmayıb".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib. O bildirib ki, 1995-ci ildə ilk konstitusiyamız qəbul ediləndə də belə idi:

"Düzdür, de-yure o ərazilər bizim idi. Amma indi ərazi bütövlüyümüz bərpa olunub. Cənab Prezident xalqa müraciət edərək bildirir ki, sizin haqqınızdır öz suveren hüququnuzdan istifadə edərək Prezidenti seçəsiniz və bütün ərazilərimizdə həm de-yure, həm də de-fakto hakimiyyət bərpa olunsun. Konstitusiya xalq tərəfindən qəbul olunduğuna görə, Prezidentin bütün ərazilərimizdə hakimiyyətinin tam bərqərar olması üçün xalqın iradəsi lazımdır. Burada nə isə şübhəli başqa məqam axtarmaq düşmənçilikdir".

# Bu hərbi qulluqçular üçün inzibati cəza müəyyənləşir

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatları yayan hərbi qulluqçular üçün inzibati cəza müəyyənləşir.**

Milli Məclisin İnsan hüquqları komitəsində müzakirə edilib parlamentin plenar iclasa tövsiyə edilən İnzibati Xətalar Məcəlləsinə əlavə edilməsi təklif edilən yeni -614-1 maddəsində əksini tapıb.

Layihəyə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların mediada, o cümlədən internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində hərbi qulluqçular və ya toplanışa çağırılmış hərbi vəzifəlilər tərəfindən yayılmasına görə - on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunacaq.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikanın hərəkəti, yaxud dislokasiyası haqqında dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatların yayılması hallarına yuxarıdakı maddənin qüvvəsi şamil edilmir.

Yuxarıda göstərilən əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

**Nicat**

Aqil ABBAS

# DARIXAN ADAM

*Çox ağır, uzun və darıxdırıcı səfər oldu. İlk dəfəydi ki, Vətəndən təxminən iki ay ayrı düşdüm. Düzdür, getdiyim yer də Vətən sayılırdı, amma doğulduğum, uşaq vaxtı torpağını yediyim, qız dalınca düşdüyüm, döyüb-döyüldüyüm Vətən deyildi. Ömrümdə qibləmiz olan Bakı üçün bir belə darıxmamışdım. Dostlarım üçün darıxmışdım, Bakının tıxacları üçün darıxmışdım. Tıxaclarda qalanda buna səbəb olan şəxsləri söymək üçün darıxmışdım.*

*Deyirlər bir ara Məhəmməd Hadi orduda mollalıq edirmiş. Bir əsgər şəhid olur, Şairi çağırırlar ki, gəlsin cənazə namazı qılsın. Şair gəlib görür ki, cənazəni üzü qibləyə, yəni Məkkəyə tərəf qoyublar.*

*Deyir:*

*- Çevirin üzünü Bakıya, bunun qibləsi Bakıdır.*

*Cənazənin üzünü Bakıya çevirtdirir və deyir ki, bu heç sağlığında ərəb dilini bilmirdi və başlayır "İnsanlığın tarixi faciəsi" poemasını oxumağa.*

*Bilmirəm Məhəmməd Hadinin üzünü hansı qibləyə doğru basdırıblar, çünki şairin heç məzarı da yoxdu. Bircə onu bilirəm ki, Gəncədə dəfn olunub.*

*İndi mən də qibləmiz Bakı üçün darıxırdım. Ümumiyyətlə, mən darıxan adamam. Bakıda olanda da Ağdam üçün, Qarabağ üçün darıxıram. Hələ tələbəlik illərindən ən azı ayda üç-dörd dəfə Qarabağa gedər, Qarabağın bütün rayonlarını gəzər, sonuncu duracağım isə Ağdam olardı.*



*Beş il universitetdə oxudum, heç vaxt şənbə günləri dərsdə olmadım. Beşinci gün qatarla Ağdama gedər, bazar günü isə Bakıya qayıdardım.*

*Atam da mənimlə məzələnərdi:*

*- Ay bala, hər gün Ağdamdan Bakıya iki təyyarə uçur, biri səhər, biri axşam. Elə səhər otur təyyarəyə uç Bakıya, dərsdən də çıxanda axşam qayıt geri. Kirayə pullarından ucuz çıxar.*

*Dünyanın böyük şəhərlərini gəzmişəm. Nyu-Yorkdan, Vaşinqtondan tutmuş, Milanından, Varşavasına qədər. Səliqəli şəhərlərdi, amma bu şəhərlərdə də darıxmışam. Amerikada bir ay oldum, deyirdim nə vaxt qayıdacağıq Bakıya. Dostlar da deyirdi ki, nə var Bakıda.*

*Deyirdim:*

*- Bakıda Bakı var.*

*Avropa şəhərlərində ən çox görmək istədiyim yerlər kilsələr və muzeylərdi. Hər bir kilsəyə girərdim, şam yandırardım, İsanın çarmıxa çəkilmiş heykəlinin önündə də bir "Fatihə" surəsi verib dua oxuyardım.*

*Kənardan baxanlar da təəccüblənərdi. Bizim üçün, yəni biz azərbaycanlılar üçün kilsə də, sinaqoq da, məscid də müqəddəsdir, Allah evidir. Bir sözlə, biz erməni deyilik.*

*Deyirlər dünyanın yeddi möcüzəsi var, mənim üçün isə dünyanın səkkizinci möcüzəsi və möcüzələri Milanda, Praqada gördüyüm kilsələrdi. Təxminən 300 ilə, bəlkə də 400 ilə tikilmiş, hər daşı bir zərgər işi olan bu kilsələri insan necə tikib, bax, möcüzə budur. Məni təəccübləndirən yalnız bu kilsələrin tikilişi olub, bu böyük şəhərlərdə məni təəccübləndirən başqa bir şey olmayıb. Bir-birinin içinə girmiş hündür, şüşə binalar. Nyu-Yorkda bir oteldə qalırdıq, yadımdan çıxıb, deyəsən 80-ci mərtəbə idi, səhər nə günəş görünürdü, nə də axşam ay.*

*Ostap Benderin maraqlı bir ifadəsi var: "Eto ne Rio de Janeyro".*

*İndi Avropada gözəl dərələr, dağlar, qayalar görəndə mən də Ostap Bender kimi deyirdim: "Yox, bura Kəlbəcər deyil!"*

*Şəhərlər gözəl ola bilər. Mənim üçün şəhərlərin gözəlliyi orda yaşayan insanlardı, şəhərlərin istiliyidi, söhbət hava istiliyindən getmir, insanların istiliyindən gedir. Bu böyük şəhərlərdə heç vaxt bu istiliyi hiss etməmişəm, bircə İstanbuldan başqa.*



*Bakıda soyuq olanda da mənim üçün həmişə istidir. Bu, adamların doğmalığı, istiliyidir.*

*Bu böyük şəhərlərin heç biri Bakı qədər gözəl deyil, Ağdam qədər heç gözəl deyil.*

*Mənim üçün bugünki Ağdamın xarabalığı Avropanın bütün şəhərlərindən gözəldi.*

*80-ci illərdə şair Məmməd Aslanın Türkiyədən bir dostu gəlmişdi, təxminən bir ay qonağı oldu. Bizə də gətirmişdi Məmməd Aslan onu. Bizə deyəndə, Məmməd Arazgilə. Şairi ziyarət edən türk arkadaş bir qədər əsəbi halda dedi:*

*- Məmməd Aslan bir aydı məni Azərbaycanı gəzdirir, day bulaq qalmayıb, meşə qalmayıb, dərə-təpə qalmayıb, çiçək qalmayıb, gül qalmayıb mənə iylətməmiş. Deyirəm Məmməd, bu daşdan, bu çiçəkdən, bu bulaqdan Türkiyədə də var, məni insanlarla tanış elə, insanları göstər. Mən insanlarla tanıyım Azərbaycanı.*

*İndi Avropadakı dağları, dərələri gəzmişəm, çiçəkləri, gülləri görmüşəm, hətta göllərində də çimmişəm, amma Bakıdakı, Ağdamdakı insanları görməmişəm.*

*Hüseyn Kürdoğlu yazır:*

*Yenə də baş çəkim Ağdama gərək,*
*Qarqarın suları Ağdama gərək*
*Bu yerin qədrini bilməyənlərin*
*Qara gözlərinə ağ dama gərək.*

*Mənim də, ağdamlıların da, bütün qarabağlıların da gözlərinə ağ dammışdı. Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi, şəhid və qazilərimizin qəhrəmanlığı nəticəsində gözlərimizə dammış ağ silindi.*

*Yeri gəlmişkən, mən 30 ildi demək olar ki, həmişə Ağdamı yuxumda görürdüm, amma dağılmış deyil, qəşəng və gözəl bir şəhəri görürdüm. İndi Möhtərəm Prezident İlham Əliyev mənim yuxuda gördüyüm o gözəl Ağdamı yenidən tikir. Mən əvvəllər də yazmışam, yenə də yazıram, yeni tikilən Ağdam həmişəkindən çox gözəl olacaq, çox isti olacaq. Çünki binalara qoyulan hər daşa sevinc göz yaşlarımızı da qoyacağıq. Və o binalar çiçəkləyəcək. Gözünüzün önünə gətirin, bütün binaları çiçəyə bürünmüş Ağdam.*

*Oxucu, bağışla, mən bu yazını fikirləşib yazmıram, vəhylə yazıram, ürəyimə nə gəlir onu yazıram. Ona görə mətləbdən çox uzaqlaşıram.*

*İndi Bakıdan, gözəlim Bakıdan, qibləm Bakıdan, gözəlim Ağdamdan, qibləm Ağdamdan iki min kilometr uzaqdayam. Atamın mənlə məzələndiyi kimi, axşam Bakıya uçub səhər Ankaraya qayıtmağa nə gücüm vardı, nə də pulum çatardı. Ankara nə qədər doğma şəhər olsa da Bakı üçün, xüsusilə də nəvələrim üçün it kimi darıxırdım.*

*Bir səhər yuxudan duranda özümdən asılı olmayaraq yerimdə sakitcə ağlayırdım. Xanımım hiss etdi, dedi, niyə ağlayırsan? Dedim ki, çəpişlər yadıma düşüb.*

*Nəvələrimə "çəpişlər" deyirəm.*

*Xəstəxana şəhər mərkəzindən təxminən 40-50 kilometr məsafədə idi. Deyək ki, təxminən Mərdəkan. Xəstəxananın aurası məni daha çox sıxırdı. Burdakı insanların heç birinin gözü gülmürdü, bircə həkimlərin, tibbi personalın baxışları mülayim idi, ümidverici idi, zarafatlarından da qalmırdılar.*

*Məni daha çox sıxan körpə uşaqlar idi. Müalicəsi mümkün olmayan bu xəstəliyə tutulmuş uşaqların günahları nə idi, Allah? Allahım, sən çox adilsən, özümü demirəm, təki bu körpələrin valideynlərinin səndən ümidi kəsilməsin.*

*Bir azərbaycanlı ailə vardı, 8-9 yaşlarında qızları əməliyyatdan uğurlu çıxdı. O ata-ananın gözlərindəki sevinci görsəydiniz. Atasını bağrıma basıb təbrik etdim. Bəlkə mən onlardan da çox sevinirdim.*

*Xəstəxananın girəcəyində bir şəffaf qutu qoymuşdular. Ürəyi istəyənlər burda yatan uşaqlara kömək məqsədilə həmin qutuya pul atırdılar. Baxıram, iki yüz lirə atan var, hətta yüz dollar atan var, beş-on lirə atanlar da var, hər kəs imkanı daxilində. Mən də hər dəfə xəstəxanaya girəndə mütləq o qutuya imkanım daxilində pul atardım.*

*Xəstəxananın aurası məni sıxdığından orda qalmaq istəmədim, üzbəüz bir otel vardı, bir müddət orda qaldım, daha doğrusu, qaldıq. Sonra həkim dedi ki, o otel çox bahadı, ətrafda butik otellər var, onlar ucuzdu, həm də rahatdı.*

*Xəstəxana varlıların yaşadığı bir qəsəbədəydi. Hər yan bir-birindən yaraşıqlı villalar idi. Bizdən fərqli olaraq bu villaların heç birinin hasarı yox idi. Sadəcə olaraq bir metr, metrə yarım hündürlüyündə dəmir tor çəkmişdilər, bəziləri də həmin tora sarmaşıq dırmaşdırmışdı. Çox səliqəli bir qəsəbə idi. Həkimlər tibbi personala dedilər, onlar da bizim üçün bir butik otel tapdılar - rahat, səliqəli. Bircə narahatçılıq o idi ki, otaqdakı televizor yalnız türk kanallarını göstərirdi, beş-altı kanalı çıxmaq şərtilə yerdə qalan 200-250 kanal… bizim özəl kanallar onların yanında toya getməli idi. O ciddi 5-6 kanal isə 24 saat yalnız və yalnız Qəzzadan danışırdı. Alimlər, yazıçılar, əməkli hərbçilər eyni şeyi nə qədər təkrarlayırdılarsa, o da bir tərəfdən adamı yorurdu.*

*Ən maraqlısı da o idi ki, milyonerlərin yaşadığı qəsəbədə üççə ucuz kafe vardı, iki dənə də market.*

*Birinci gün getdik bu kafelərin birinə, adı da "Xalanın yeri", dönər yemək istədik,*



*amma yeyə bilmədik. Bir az düyü yedik, bir tikə ət də daddıq, onu da yeyə bilmədik və durub çıxdıq.*

*Ondan sonra dostlarla və özümüz həmin yerin qarşısından keçəndə bərkdən deyirdim:*

*- Sənin xalanı…*

*Dostlar da təəccüblənirdi.*

*Gözəl restoranlar şəhərin mərkəzində idi, ora da gedib-gəlmək üçün iki saat vaxt lazım idi. Şənbə-bazar, bəzən də ara günlər Avrasiya Yazarlar Birliyinin başkanı Yaqub Öməroğlu gəlib bizi yendirirdi şəhərə, bahalı restoranlarda ağzımız dada gəlirdi.*

*Yaqub bəy tez-tez Türkiyənin şəhərlərinə konfranslara, tədbirlərə gedirdi, yaxud türk dövlətlərindəki tədbirlərə qatılırdı, onda lap darıxırdıq. Bir də görürdük ki, qızı Özgə və xanımı Həvva xanım gəldilər, bizi götürdülər yendirdilər şəhərə gəzməyə. Sonra da normal bir restoranda nahar edirdik.*

*Mən qarınqulu deyiləm. Anam yazıq həmişə deyirdi:*

*- Aqil dəvəsi ölmüş ərəbdi, nə verirsən yeyir.*

*İndi dəvəm ölmüşdü, amma mən ərəb deyildim. Qədir Rüstəmov həmişə deyirdi ki, ərəblər kərtənkələ yeməkdən kərtənkələyə oxşayır.*

*Dedilər ki, Heydər Əliyev parkında "Bakı" restoranı var, Azərbaycan xörəkləri verirlər. Bir gün taksiyə oturub getdik Heydər Əliyev parkına. Doğrudan da qeyri-adi, gözəl, səliqəli bir park idi. Ətrafdakı əhali istirahət üçün bu parka yığışırdı. Parkın ortasında da Ulu Öndərin möhtəşəm bir heykəli ucaldılmışdı. Parkı doyunca gəzdik, sonra da çıxdıq "Bakı" restoranına, amma restoran o deyildi. Yəni yeməklərinin dadı yaşadığım milyonerlər məhəlləsindəki kafelərdən fərqlənmirdi. Bircə dovğaları xoşuma gəldi.*



*Türkiyədə kababı sümüksüz ətdən bişirirlər. Sümüyün ki tamı kabab bişirəndə ətə çıxmadı, apar qaytar. Otel sahibindən xahiş edirdim ki, mənə kəmikli ətdən ("sümük" onlarda sarsaq sözdü) kabab bişirə bilərsən?*

*- Köylü kababımı istəyirsən?*

*- Hə, qardaş, mən özüm də köylüyəm. Həm də lap yekəsindən.*

*Ağdamda ov həvəskarı Xallı Şahinin qardaşı Allahverdi vardı. Həddindən artıq kök olduğundan dostlar ona Pota Alik deyirdilər. Heç ov-zad da sevən deyildi.*

*Bir gün əl çəkmədi ki, mən də sizinlə ova getmək istəyirəm. Qoşuldu biz avaralara, getdik Ağcabədiyə - Ağgölə. İki-üç saat fırlanırıq, əlimizə bir şey keçmir. Alik də yorulub, əsəbləşib və çığırır:*

*- Evə getmək istəyirəm, dolma yemək istəyirəm, katlet yemək istəyirəm.*

*İndi Alikin sözü olmasın, mən də evə getmək istəyirəm, dolma yemək istəyirəm, katlet yemək istəyirəm.*

*Bir gecə dostum Mehman Muradlının xanımı, TRT-də çalışan Günay Arda hardansa qəfil gəldi çıxdı. Elə bil gecənin qaranlığında gün doğdu, darıxmaq da yadımızdan çıxdı. Ordan-burdan xeyli dərdləşdik. İşindən-gücündən, TRT-dən danışdı. Sonra günəş batdı, yəni Günay Arda çıxıb getdi.*

*Günay Ardanı yola salarkən xanımım dedi:*

*- Bu da hər gün çığırıb-bağırır ki, evə getmək istəyirəm, dolma yemək istəyirəm, katlet yemək istəyirəm.*

*Aradan iki gün keçmiş Günay xanım bir gecə yenə gəldi. Qoltuğunda da böyük bir qazan, tənək dolması bişirib gətirmişdi. Özü də mənim istədiyim Qarabağ dolması.*

*Dolmanı acgözlüklə az qala ağzıma yox, gözümə təpirdim. Xanımımı da, Günay Ardanı da gülmək tutmuşdu.*

*Bir boşqab da otelin sahibi Fateh bəyə verdim:*

*- Abi, al, gör dolma necə olar? Yoxsa sizin sarma…*

*Üç gün kef elədim ey, ürəyimdən vodka içmək də keçdi.*

*Fateh bəy dedi ki, bizdə vodka olmur, istəyirsən rakı gətirim.*

*Dedim:*

*- Yox, yox, heç onun şüşəsini də görmək istəmirəm.*

*92-ci il idi. Vaqif Cəbrayılzadə (Vaqif Bayatlı Odər), Zakir Fəxri və bir neçə dostla ilk dəfə İstanbula getmişdim. Görkəmli alim Turan Yazqanın oğlanları bizi bir axşam yeməyə dəvət etdi. Hamı rakı içirdi. Ona su qatırlar, onda da şüyüd iyi gəlir. Dedim ki, mənim rakıma su qatmayın.*

*Turan Yazqanın oğlu:*

*- Bəy, onda səni çıldırdacaq.*

*- Nə çıldırdacaq ey, onun dərəcəsi altmışdır, bizdə tut arağının dərəcəsi səksən. Onu içə bilirik, indi bunu içə bilməyəcəyik?*

*- Bəy, vallah, səni çıldırdacaq.*

*- Çıldırdacaq, çıldırdacaq da.*

*Nə isə, normamı, yəni 250 qram rakını susuz içdim. Sonra da durub restorandan çıxdıq, otel də yaxın idi, deyə-gülə, zarafatlaşa-zarafatlaşa gəldik otelə, çay içməyə. Amma gördüm susuzluqdan yanıram. Nə qədər su içirdim, susuzluğum yatmırdı, təxminən iki litr su içdim. Xeyiri olmadı, xeyiri o oldu ki, otağa çıxanda gördüm nəfəsim kəsildi. Nə qədər edirəm nəfəs ala bilmirəm.*

*Dostlar yığışdı başıma. Zakiri söyürəm ki, ə, görmürsən ölürəm, qoyma. Vallah, ölsəm dədəm səni gülləylə vuracaq. Nə isə, həkim çağırası oldular. Həkim gəldi, nəbzimi yoxladı, day nə bilim nəyi yoxladı və soruşdu ki, bu nədən belə olub?*

*Zakir dedi ki, 200-300 qram rakını susuz içib, sonra da otelə qayıdanda üstündən də iki litr su.*

*Həkim başını bulayıb:*

*- Arkadaş, day denən bu iki litr rakı içib ki? Su bədənində rakı ilə reaksiyaya girib. Mən buna heç nə edə bilmərəm. Burda həkimlik bir şey yoxdu, ya öləcək, ya qalacaq.*

*Mən də çığırıram ki, Zakir, həkimi buraxmayın.*

*Birdən həkim soruşdu ki, rus vodkanız var? Dedilər, var. Dedi, gətirin bir yüz qram buna içirdin. Mən də çığırıram ki, içə bilmərəm. Həkim dedi ki, burnunu tutun, məcbur içirdin. Beləliklə, zorla mənə rus vodkası içirtdilər. On dəqiqə sonra nəfəsim açıldı, özümə gələ bildim, yerimdən qalxıb oturdum. Əhvalım düzəlmişdi. Zakir də qayıtdı ki, düz deyirlər, pazı pazla çıxarарlar.*

*O gündən rakıya nifrət edirəm. Hətta butılkasını görəndə allergiyam tutur. Bunu Türkiyədəki dostlarım da bilir, məni qonaq aparanda rakı içmirlər. Qəşəng də ad qoyublar: "Aslan südü".*

*Bakıya dönən kimi barımda nə qədər "Aslan südü" vardı ikinci mərtəbənin pəncərəsindən hamısını atdım çölə.*

*Və beləliklə, dolmanı üç gün ürəyimdən keçsə də vodkasız yeyəsi oldum. Heç demə, vodkasız daha dadlı olurmuş.*

*Xəstəxana ilə qaldığımız otelin arası təxminən kilometr yarım yol idi. Hər səhər saat 9-da piyada düşürdük yolun ağına. Və bizi hər səhər bu yolda yarımçıq bir villanın həyətində bahalı bir it qarşılayırdı. Bizi görən kimi də özünü cırırdı, az qalırdı zəncirini qopara. Gülüb deyirdim:*

*- Ay qancıq oğlu, qancıq neçə gündü bizi tanımadınmı?*

*Xeyiri yox idi. Məhlə qurtarana qədər hürürdü. Onunla qonşu villada iki dənə eşşək boyda it vardı. Türklər bu itləri Qanqal adlandırırlar. Avşarların qoyun itindən də böyük. Avşarlar belə itlərə "ikimərtəbəli it" deyir. Həmin ikimərtəbəli itlər bizi heç veclərinə də almırdılar, elə gözləri ilə müşayiət edirdilər. Hərdən də o qancıq oğlu qancığa mırıldanırdılar ki, səsini kəs. Bu hal xəstəxanadan dönəndə də baş verirdi.*

*Xanımıma deyirdim ki, bəlkə səhər gələndə buna sucuqdan-mucuqdan gətirib ataq, zəhləmizi tökməsin. Gətirib atdıq da, xeyiri olmadı, heç yemədi. Deyəsən sahibi bunu öyrətmişdi ki, yad adamın verdiyi heç nəyi yemə.*

*Amma adamlar var ki, yad adamlar nə versə gözlərinə təpirlər.*

*(Ardı olacaq)*

---

Rüstəm Hacıyev

## Cənubi Amerikada müharibə başlayır?..



Son bir həftədir dünya həyəcanla Cənubi Amerikadan gələn xəbərləri izləyir. Venesuelanın prezidenti Nikolas Maduro, neftlə və müxtəlif təbii sərvətlərlə zəngin olan Essekibo regionunu ölkə ərazisinə qatmaq üçün referendum keçirib. Qayana dövləti isə yüz ildir ki, bu regionu müstəqil Qayananın əraziləri hesab edir.

Hərbi qüvvələri Venesuelanın hərbi qüvvələrindən 36 dəfə az olan Qayananın prezidenti İrfan Əli, CNN telekanalının efirindən dünyaya xəbərdarlıq edib ki, onun ölkəsi "ikinci Ukrayna" ola bilər. Təbii ki, dünyada baş verən münaqişələrinin onların maraqından kənar qalmasına alergiyası olan ABŞ və Rusiyanın diqqətindən kənarda qala bilməzdi. Neft və təbii sərvətlərin bol olduğu regionun kimsənin təkbaşına nəzarətinə keçməsinə, bu hegemon dövlətlərdən başqa, Çin, Braziliya, Kolumbiya, Surinam və son zamanlar "başını-başlara qoşmaq istəyində olan" Hindistan da biganə olmadıqlarını nümayiş etdirirlər.

Bir sözlə, Qayananın başının üstünü böyük müharibə dumanı almaqdadır. Neftin iyi, təbii sərvətlərin parıltısına yığışan "ac çaqqal sürüləri", "banan cəngilliklərində" yeni müharubə ocağının qalanmasına hazırlaşırlar.

Venesuelanın prezidenti Nikolas Maduro, arıq qonşu Qayanaya məxsus Essekibo ərazilərini işğal etmək məqsədilə ölkəsində səfərbərlik elan edib. İspaniyanın "El Paris" qəzeti yazır ki, hətta general-mayor Aleksis Rodrigers Kabelyu, Essekibo regionuna müvəqqəti rəhbər təyin edilib. (Rusiya prezidenti Vladimir Putinin dəstixətti açıq-aydın görünür. O da, İşğal edilən Ukrayna ərazilərinə dərhal marionet rəhbərlər təyin edirdi). Yaxın dostu Putindən fərqli olaraq, Maduro bir az da qabağa gedərək, işğal etməyə hazırlaşdığı regiona bəri başdan rəhbər təyin edib.

"Bizim Qayana-Essekibo de-fakto Britaniya imperiyası və onun varisləri tərəfindən işğal olunub və onlar uzun illərdir ki, bu ərazilərin sərvətlərini talan etməklə məşğuldurlar"- deyə Nikolas Maduro bəyan edib. Venesuela prezidenti referendumun nəticələrinə görə, hazırda Essekibo şelflərində neft çıxaran xarici şirkətlərini, "üç ay müddətində öz xoşları ilə" bu əraziləri tərk etməyə səsləyib. O, eyni zamanda neft hasil edən PDVSA dövlət şirkətinə, Essekiboda işlərə başlamaq üçün xüsusi qrup hazırlamağı tapşırıb.

Maduronun bəyənatlarını ölkəsi üçün birbaşa təhdid hesab edən Qayananın prezidenti İrfan Əli, kömək üçün BMT Təhlükəsizlik Şurasına müraciət etməyə hazırlaşır. Bədbəxt ölkənin bədbəxt prezidenti hələ də anlamır ki, başlarının üstünü almaqda olan müharibə təhlükəsinin əsas mənbəyi bu "şeytan yuvasınadan" qaynaqlanır. TŞsı (daha doğrusu Konseyi) yarandığı gündən bu vaxta qədər heç bir münaqişəni dayandırmayıb, əksinə yalnız közərməkdə olan odunun üstünə benzin tökməkdə məşğul olub və olmaqdadır.

Yazıq İrfan Əli, xalqa təcili müraciətində ölkəsinin hərbi qüvvələrinin tam hərbi hazırlıq vəziyyətinə gətirildiyini, Birləşmiş Ştatlar başda olmaqla "tərəfdaşları ilə əlaqədə olduğunu" bəyan edib.

Göründüyü kimi İrfan Əli, Ukrayna prezidenti Volodimir Zelenskinin də bir vaxtlar çox güvəndiyi "eribarlı" tərəfdaşlara bel bağlayır. Bu "tətəfdaşlara" güvənib "ağ günə çıxan" Ukrayna xalqının yaşadığı hazırki faciədən dərs götürmür... Qayana da belə "xoşbəxt" olacaq. "Sem dayının" barmağı olan yerdə hələ gül bitdiyini heç kim görməyib, kim bilir, bəlkə İrfan Əliyə bunu görmək qismət olacaq...

---

## Əliyar Əliyevin oğlu: "Atam şəhid olanda on bir yaşım olub, onun haqqında..."

**"Mən hərbçiyəm, işğaldan azad edilən ərazilərimizdə xidmət edirəm. Tez-tez gedib atamın məzarını ziyarətə gedirəm. Allah Ali Baş Komandanın köməyi olsun, onun verdiyi əmrlə torpaqlarımızı düşməndən azad etdik. İndi bizim üçün daha xoşdu ki, atamın ad günündə sevinək, məzarını ziyarət edə bilirik"**

Bunu Adalet.az-a açıqlamasında Milli Qəhrəman Əliyar Əliyevin oğlu Emin Əliyev deyib. Emin Əliyev düz otuz il atasının məzarını ziyarət edə bilmədiklərini bildirib:

"İndi xidmətdə olduğuma görə mənim üçün atamın məzarını ziyarət etmək daha rahatdı. Evdə olanda böyük əmim bizə gəlirdi, yaxınlarımızla oturub atam haqqında xatirə danışırdılar. Birinci Qarabağ müharibəsi zamanı səkkiz yaşım olub və atam şəhid olanda isə 11 yaşın içindəydim. Atama ayağının ayaqqabısını çıxarıb əsgərinə verən bir insan olub.

1988-ci illərdə Ermənistandan azərbaycanlılar qovulanda atamgil vətənin müdafiəsinə qalxıblar. Atam haqqında döyüş yoldaşlarından, dostlarından xatirələr eşitmişəm, çünki onda uşaq olmuşam. Otuz il atamın məzarını ziyarət edə bilmədik. Torpaqlarımız işğaldan azad ediləndən sonra isə atamın məzarını yenidən bərpa etdik.

Qubadlıdakı evimizin isə ancaq divarları qalıb, hər şeyi dağıdıblar. İnşallah dövlətimiz o evi təmir edib verər, ya da hansısa layihə çərçivəsində ev tikərlər və biz də ora köçərik"- deyə Emin Əliyev bildirib.



Qeyd edək ki, bu gün Milli Qəhrəman Əliyar Əliyevin doğum günüdür. Əliyar Əliyev 1957-ci il dekabrın 14-də Qubadlı rayonunun Qazyan kəndində anadan olub. 1979-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu fərqlənmə diplumu ilə bitirərək bir müddət Qubadlı rayonunun Dondarlı kənd orta məktəbində idman müəllimi işləyib. Qarabağ müharibəsi başlayanda Əliyar Əliyev könüllü olaraq ordu sıralarına qoşulub. O, əvvəl taborun kəşfiyyat bölməsinin komandiri, sonra tabor komandirinin təchizat üzrə müavini təyin edilib. 1992-ci il oktyabrın 3-də Laçının iki kilometrliyində "Tikanlı zəmi" yüksəkliyi uğrunda gedən döyüşlərdə tabor komandiri Ə.Əliyev və onun sürücüsü Əlisadət Ağayev qəhrəmancasına şəhid olub. O, doğulduğu Qazyan kəndində dəfn edilib. Ə.Əliyevin mərmərdən qoyulan məzar daşı isə Qubadlı işğal edildikdən sonra ermənilər tərəfindən dağıdılsa da, 44 günlük Vətən müharibəsindən sonra o da azadlığa qovuşub. Ə.Əliyevin məzarı dövlət tərəfindən yenidən bərpa edilib.

**Allah rəhmət eləsin!**

**Vasif Əlihüseyn**

---

## Azərbaycanın işğalda olan 8 kəndinin aqibəti necə olacaq?

**"Ermənistan sülh müqaviləsinin imzalanması üçün əlavə şərtlər irəli sürsə də, ümumi prosesə hər hansı formada təsir etmək imkanına malik olmayacaq".**

Bu sözləri politoloq Tural İsmayılov Adalet.az-a açıqlamasında bildirib.



"Hər birimiz hazırda tarixi anların yaşandığı dövrün şahidləriyik. İlk dəfədir ki, iki münaqişəli ölkə - Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün perspektivlər yaranıb. Sülh tərəfdarı olan Azərbaycan regionda hər zaman əmin-amanlığın hökm sürməsi üçün səy göstərib. Yaşanan təxribatlara baxmayaraq, Azərbaycanın qalib ölkə kimi diktə etdiyi şərtlər sülh müqaviləsinin imzalanması prosesini daha da sürətləndirir. Hazırda sülh müqaviləsinin imzalanması yönündə böyük işlər görülür. Ermənistan hər zaman olduğu kimi indi də müqavilənin imzalanması prosesinə mane olan, yaxud vaxtı uzadan fəaliyyətini davam etdirir.

İrəvan sülh müqaviləsinin imzalanması üçün əlavə şərtlər irəli sürsə də, ümumi prosesə hər hansı formada təsir etmək imkanına malik olmayacaq. Ermənistan münasibətlərin normallaşması istiqamətində davam etdirilən proseslərə mane olan addımlardan çəkinərsə, sülh müqaviləsinin tezliklə imzalanması realdır".

**Eminquey**

---

## Politoloq: "Ermənistan Qarabağdan köç edən ermənilərin geri qaytarılmasını..."

**"Ermənistan "Dağlıq Qarabağ"ın Azərbaycanın tərkib hissəsi olması faktını demək olar ki, uzun müddətdir təkrar edib və onunla barışıb. Üstəlik bu ərazilərdən könüllü sürətdə köç edən ermənilərin Azərbaycana qaytarılması məsələsində də israrlı mövqedə dayanmır"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Qabil Hüseynli deyib. Politoloq daha sonra açıqlamasında bunları əlavə edib:

"Hətta Ermənistan qondarma respublikanın təşkilini də qeyri-qanuni hesab edir və bu səbəbdən də həmin qurumun buraxılmasının tam qanunauyğun olduğunu bildirir. Zənnimcə, sülh yaradılması üçün kifayət qədər zəmin yaradılıb, Paşinyan və Ermənistan tərəfi sülh müqaviləsinin məzmununda Qarabağdan könüllü köç edən ermənilərin geriyə qaytarılmasını şərt kimi irəli sürülməsi məsələsindən də bildiyimə görə imtina edir.

Sərhədlərin delimitasiyası məsələsində hansı xəritələrin əsas götürülməsi problemi tam həll olunmayıb və bu da həll olunsa, o deməkdir ki, sülh yaratmanın prinsipial şərtlərinin hamısı həllini tapıb və uzaq olmayan bir dövrdə sülh müqaviləsi imzalana bilər". Politoloq Azərbaycan və Ermənistan arasında əsirlərin dəyişdirilməsi məsələsinə də toxunub:

**"Müharibə bitdikdən sonra "hamının-hamıya" prinsipi ilə əsirlərin dəyişdirilməsi prosesi qüvvəyə minir. Bu da beynəlxalq hüququn şərtlərindən biridir, Azərbaycan da bu şərtlərə uyğun hərəkət etdi. Ərazilərimizdə erməni əsirləri qalır, amma 32 erməni hərbçisini geri qaytarmaqla sülh yaratma prosesində sağlam bir mühitin yaradılmasına çalışır"-deyə politoloq bildirib.**

**Vasif Əlihüseyn**

AQİL ABBAS

# SULTAN BƏYİN MƏZARI DA VİRAN HALDADI

*Əsrin əvvəlində Andronikin qulağını kəsən bu bəyin qəbri Qarsın bir köyündədir. İki dəfə bu qəbri ziyarətə getmişəm. Torpaq bir məzardır və torpaq dağılmasın deyin məzarın kənarına daşlar düzüblər, baş daşı da yoxdur. Baş daşı yerinə bir kubik daşı qoyublar. Azərbaycan çox çalışır ki, bu məzarı Sultan bəyin adına layiq bərpa elətdirsin, amma hələ ki nail ola bilməyib. Bunun da səbəbi odur ki, Türkiyə qanunlarına görə, bir məzarın bərpasına yalnız Daxili İşlər Nazirliyi icazə verə bilər. Həm də elə bərpa olunmalıdır ki, ətrafdakı məzarlardan fərqlənməsin. Üstünə büst, ya heykəl qoymaq qadağandır.*




*Yalnız bir dəfə Azərbaycan hökumətinin təkidi ilə və bir vaxtlar Qarsda baş konsulumuz olmuş Həsən Zeynalovun fədakarlığı ilə İqdırda Kərbəlayı İsmayılın məzarı bərpa olunub və büstü qoyulub.*

*Yəqin ki, gün gələr Sultan bəyin də məzarı adına layiq götürülər.*

*İndi oxuyuram ki, Sultan bəyin Laçında, Hacısamlı kəndində bağını da viran ediblər. Eybi yox, Laçın və kəndləri sürətlə bərpa olunur, bəyin bağını da bərpa edərlər və yəqin ki, Laçının mərkəzində də Sultan bəyə bir abidə ucaldarlar.*

---

Eminquey

# Mən çoxdan barışmışam insanlarımızın bayağılığı ilə

***İTV-də "Maska" şou yayımlanır.***

***Keyfiyyətli, zövqlü və səviyyəli əyləncədir.***

***Musiqi də var, rəqs də, tamaşa da.***

***Düşük mahnılar yoxdur, porno nümayişi yoxdur.***

***Münsiflər də zövqlü sənətçilər.***

***Eee, nə olsun? Görün heç "Ay Zaur" qədər baxılır?***

***O ki deyirsiniz ha, keyfiyyətli veriliş yoxdur TV-də, bu da keyfiyyətli veriliş.***

***Özü də əyləncə. Kanalların hamısını bu cür verilişlə doldursan da, o reytinqi yığa bilməyəcəksən.***

***Hətta günün bütün saatları da yayımlasan, çifayda.***

***Vallah, mən çoxdan barışmışam insanlarımızın bayağılığı ilə.***

***Özünüzü aldatmayın...***

---

## Dumanlı havada avtobus aşdı...

**Mürəkkəb hava şəraitində, yağışlı-yağmurlu və qarlı-şaxtalı günlərdə sürücülər daha diqqətli olmalı, nəqliyyat vasitələrini məsuliyyətlə idarə etməlidirlər.**

Belə qeyri-sabit havalarla əlaqədar onlar yol polisi tərəfindən öncədən xəbərdar edilir və maarifləndirilir.

Bir neçə gün bundan əvvəl Qusar rayonunda sərnişin daşıyan avtobus idarəetməni itirib, dərəyə aşıb.



Qəza nəticəsində bir neçə sərnişin yüngül xəsarət alaraq tez bir zamanda xəstəxanaya yerləşdirilib. Hadisəyə səbəb yenə sürücü məsuliyyətsizliyidir.

Yəni belə dumanlı havada sürücü arxa və qabaq işıqları yandırmalı, avtomobili aşağı sürətlə idarə etməlidir. Görünür, avtobusun sürücüsü bu tələblərə əməl etməyib, nəticədə qəza qaçılmaz olub.

Baş Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis kapitanı Toğrul Nəsirli deyir ki, biz mütəmadi olaraq sürücüləri, hərəkət iştirakçılarını mürəkkəb hava şəraiti ilə bağlı maarifləndiririk. Əlbəttə, yol hərəkəti qaydalarına əməl etmək hər bir hərəkət iştirakçısının borcudur.

O cümlədən sürücülər sükan arxasında daha diqqətli olmalıdır ki, dumanlı havada qəza törətməsinlər. Onlar belə havada ara məsafəsi saxlamalı, arxa və qabaq işıqları yandırmalı, sürət həddinə əməl etməlidirlər. Əgər qatı dumanda, imkan varsa, magistral yoldan çıxmalı, daha təhlükəsiz yerdə avtomobili saxlamalıdır.

Qatı duman çəkiləndən sonra yola çıxıb mənzil başına getmək olar. Göründüyu kimi, hər bir sürücü çətin hava şəraitini düzgün qiymətləndirməklə qəza vəziyyətindən çıxmağı bacarmalıdır.

Heç şübhəsiz ki, onda qəzalar da azalmış olar!

## Metroda bu stansiyaların adları niyə dəyişdirilmir?



**Bakı metrosunda elə stansiyalar var ki, adları hələ dəyişdirilməyib. Düzdür, bir neçə stansiya var, onların adları yenisi ilə əvəzləndi.**

Məsələn, "26-lar" "Sahil"lə, "28 aprel" "28 may"la, "Əzizbəyov" " Koroğlu" ilə yeniləndi. Amma elə stansiyalar durur ki, onların da adı dəyişdirilməlidir. "Xalqlar dostluğu", "Neftçilər", "Gənclik" stansiyalarının adlarının dəyişdirilməsinə böyük ehtiyac var. Həmin adların yerinə o qədər gözəl adlar var...

**O stansiyalara Azərbaycanın qəhrəmanları general Polad Həşimovun, Mübariz İbrahimovun və digər vətənpərvər igidlərimizin adlarını vermək olar. Bəs onda nəyi gözləyirik?!**

**EMİL FAİQOĞLU**

---

# Xəstələrin ümid yeri

**Onda Ağdamın gözəl günləri idi. Necə deyərlər, hər kəs öz işi-gücü ilə, ailə qayğıları ilə məşğul idi. Heç kimin ağlına da gəlməzdi ki, nə vaxtsa Ağdam xarabalığa çevriləcək, sakinləri pərən-pərən düşəcək, doğmalar bir-birlərini soraqlaya-soraqlaya qalacaqlar. Heç kəsin bilmədiyi bu faciə təkcə Ağdamı yox, bütün Qarabağı gözləyirdi və o günə də hələ bir xeyli zaman var idi. Həmin o zamanın aralı olmasına baxmayaraq, payına çox şeylər düşürdü. Hələ çox sular axıb durulacaqdı.**

Deyirlər su aydınlıqdı. Elə mən də o aydınlıqdan başlayıram bu yazını. Çünki həyati zərurətdən tanış olduğum bir insanın, bir həkimin ömür yolu diqqətimi çəkib, məndə xoş təəssürat yaradıb. Çox sadə, istiqanlı, ünsiyyət qurmağa meylli olan həmsöhbətim Heydərov Elxan Əfqan oğlu 1961-ci ildə Ağdamda doğulub. Deməli, onun da bəxtinə Ağdamın gözəl günlərini görmək, yaşamaq düşüb. Torpağın dadı, tamı, barı, bərəkəti və bir də təbii ki, Qarabağın havası, suyu onu hər zaman vətən sevdalı, böyük Məmməd Araz demişkən, vətən daşı olmağa kökləyib. Ona görə də seçdiyi həyat onu o torpağa daha çox çəkib, yəni Ağdamda orta təhsilini başa vurub, sonra insanların sağlamlığı keşiyində durmaq üçün sevib-seçdiyi Azərbaycan Tibb Universitetinə üz tutması heç də təsadüfi deyildi. Yəni onun seçiminin kökündə də vətəndaş sevdası var idi.

Tibb Universitetini Qırmızı diplomla bitirdikdən sonra cərrah kimi Sumqayıt şəhər Təcili Tibbi Yardım Xəstəxanasına işləməyə göndərilib. Bütün bu proseslərin getdiyi bir zamanda artıq erməni işğalçıları baş qaldırmışdılar. 1988-ci ilin fevralından başlayaraq onlar torpaq iddiası ilə təkcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində deyil, onunla həmsərhəd olan bölgələrimizdə də, o cümlədən Ağdamda da fitnə-fəsad törədir, həmsərhəd kəndlərə hücumlar edir, qrad atəşinə tuturdular. Məhz bu gerçəkliyi görən Elxan həkim daxilən özünü artıq döyüşlərə hazırlamışdı.



Bu istək onu Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlılarının (OMON) cərgəsinə aparıb çıxardı. O, Goranboy rayonu ərazisində qanunsuz silahlı erməni birləşmələrinə qarşı keçirilən əməliyyatlarda xüsusi təyinatlıların arasında olur, hərbi həkim kimi onların köməyinə çatırdı. Özü də bir əlində silah, bir əlində yara sarğısı olmaqla döyüşürdü. Müəyyən zaman kəsiyindən sonra Milli Ordunun tərkibində xidmətdə olan həkim kimi döyüşən əsgərlərimizin yanında idi. O, doğulduğu Ağdamın müdafiəçilərinə qoşulmuşdu.

Təəssüf ki, Elxan həkimin, eləcə də həmin illərin bütün döyüşçülərinin, yəni Birinci Qarabağ Müharibəsi iştirakçılarının cəsarətinə, igidliyinə baxmayaraq, kəndlərimiz, rayonlarımız ard-arda işğal olunurdu. İşğal Ağdamın da qapısını kəsmişdi. Elxan həkim geri çəkilmək, xidməti bölgəsini dəyişmək fikrində deyildi. O, bir həkim kimi, bir hərbçi kimi, bir ağdamlı kimi özünü hər şeyə hazır sayırdı. Bir amalı var idi: Yaralıların köməyinə çatmaq, onları xilas etmək, Ağdamın müdafiəçilərinin yanında olmaq!..

Hər kəsə məlumdur ki, həmin illərin xəyanətləri, ordumuzun tam səfərbər olmaması, hərbi sursatın, texnikanın çatşmazlığı öz təsirini göstərdi. Düşmən Ağdamı da işğal etdi. Özü də bu işğal xalqımıza Qarabağsız 30 il yaşatdı. Həmin 30 ilin içərisində ordumuz yenidən quruldu, yenidən silahlandı və İkinci Qarabağ savaşına Ali Baş Komandanın rəhbərliyi altında səfərbər oldu.

Hərbi həkim kimi xidmətini davam etdirən Elxan həkim artıq Milli Ordunun sıralarında böyük bir təcrübə qazanmışdı. 1998-ci ildə o, ehtiyata buraxıldı, əvvəlki iş yerinə - Sumqayıt şəhər Təcili Tibbi Yardım Xəstəxanasına qayıtdı. Təbii ki, həkim hər yerdə hər məqamda öz işinin başındadı. Çünki ona hər kəsin ehtiyacı var. Elə Sumqayıtda işlədiyi illər ərzində qazandığı nüfuz və ordudakı təcrübə Elxan həkimin daha çox tanınmasına səbəb oldu. Elxan həkimin şəfalı əlləri, demək olar ki, hər bir xəstənin həyata qayıtmasında öz sözünü dedi.

Mən onunla həmsöhbət olduğum müddətdə öyrəndim ki, bu zarafatcıl, xəstə ilə münasibət qurmağı bacaran həkimin əsas iş prinsiplərindən biri xəstədə inam yaratmaqdır. Mən onun pasienti olanda Elxan həkim şəxsən öz davranışı, səmimiyyəti və işini peşəkarcasına görməsi ilə məni əmin etdi ki, sağlamlığımdakı kritik məqamı qısa zamanda arxada qoyacağam. Həqiqətən də belə oldu. Ağır bir durumda təcili yardıma çatdırılan məni o, dərhal əməliyyat otağına götürdü və...

Xəstə həkimə inananda artıq mülicənin böyük bir hissəsi reallaşmış olur deyirlər. Yəni inam çox şeyi həll edir. Bu mənada İkinci Qarabağ savaşının və Antiterror əməliyyatının da iştirakçısı olan, döyüşçülərimizə yüksək səviyyədə xidmət edən Elxan həkim göstərdi ki, o, əsl vətəndaş olmaqla yanaşı, həm də çox bacarıqlı həkimdir. Necə deyərlər, əlləri şəfalıdır.

Barəsində bu kiçik yazını qələmə aldığım Elxan həkimin həyatı, cəmiyyətdəki mövqeyi mənim üçün bir cümlə ilə ifadə olunur:

**- O, yaxşı insan, yaxşı vətəndaş və əlləri şəfalı həkimdir!**

**Düşünürəm ki, bu qənaətim təkcə mənə məxsus deyil, Elxan həkimə müraciət edən bütün xəstələrin ürəyindən keçənlərdir. Sadəcə olaraq mən bunu yazılı formada ifadə etdim. Və sonda demək istəyirəm ki, çox sağolun, Elxan həkim. Yaxşı ki, sizlər varsınız.**

***P.S.** Mən həkimimlə bağlı dost-tanış arasında etdiyim söhbətlərdən öyrəndim ki, Elxan həkimin anası əmək qabaqcılı, yəni Sosialist Əməyi Qəhrəmanı Heydərova Tamara Bəbir qızı təkcə Ağdamda yox, bütün Sovetlər Birliyində nüfuz sahibi olub. Axı Sovet dönəmində əmək qabaqcılları həmişə sayılıb-seçilirdilər.*

**Şamxal ŞABİYEV**

---

# Səlibçilik ruhu, yoxsa, erməni lobbisinin milyardları?: 150 qeyri-erməninin Bakıdan tələbi

**150-dən çox beynəlxalq və humanitar təşkilatlar eyni zamanda siyasi xadim və iş adamları Azərbaycanda həbsdə olan separatçı, qatil və terrorçu erməni məhbusların azad edilməsini tələb edirlər. Onlar bu barədə açıq məktubda qeyd ediblər.**

Açıq məktubu imzalayan beynəlxalq xadimlər belə bir bəyanatla çıxış edərək, prezident İlham Əliyevi adları çəkilən "qanunsuz" həbs edilmiş şəxslərin hamısını dərhal azad etməyə çağırıblar.

Xüsusilə, açıq məktubu İrlandiya və Kosta-Rikanın keçmiş prezidentləri Meri Robinson və Ernesto Zedillo, Nobel Sülh Mükafatı laureatları Leima Qbovi və Oskar Arias, Elie Vizel Fondunun Humanitar Elmlər üzrə İdarə Heyətinin sədri Elişa Vessel, Riçard Branson, Virgin-in baş direktoru, Salesforce-un baş direktoru Marc Benioff, "The Huffington Post"-un təsisçisi Arianna Huffington və başqaları bu işdə xüsusi fəallıq göstərirlər.

Bəzən insan haqsızlıqları baş alıb gedən bu planetdən qaçıb getmək istəyir. Özü də özünün dünyanın beynəlxalq təşkilatlarının və hegemon dövlətlərinin başçılarının haqsızlığını görəndə təəssüf etməkdən başqa əlindən heç nə gəlmir. O 150 ermənipərəst siyasətçi, iş adamı, milyonçu 44 günlük müharibə zamanı



Gəncə şəhərindəki yaşayış binasının raketlə vurulması əmrini verdiyini videomüraciət zamanı etiraf edən, içərisində körpə uşaqlarda olmaqla 27 dinc əhalini qətlə yetirən, 127 nəfəri müxtəlif bədən xəsarətləri ilə şikəst edən Araik Arutyunyan kimi bir qatilin azad olunmasını niyə istəsin ki?

Ermənilərin taleyindən narahat olan bu ədalətsizlər 4000-ə yaxın əsir azərbaycanlı haqqında niyə susub görəsən?!Həm də düz 30 il! Qondarma "blokada" vaxtı Qarabağ separatçılarına dünyanın naz- nemətini göndərən bu ikili standart azarkeşləri hətta Xankəndiyə humanitar yardım adı altında qanunsuz mallar daşıdı, həm də təkcə qondarma "blokada" vaxtı yox, son 30 ildə !

Amma 30 ildir o separatçıların əməlləri , işğalı, savaşı sayəsində yurdundan qovulmuş azərbaycanlı qaçqın və məcburi köçkünlərə heç vaxt bir kömək əlini uzatmayıblar?

150 demirəm, bu imza atanların heç olmasa 15 nəfəri belə bir açıq məktub yazaraq Ermənistan hakimiyyətinə göndərdilərmi?

Düz 3 ildən çoxdur ki, 400-ə yaxın vətəndaşımız mina qurbanı olub, barmaqların qulaqlarına tıxayıb, gözlərini də bərk-bərk sıxıb özünü görməzliyə- karlığa vuran 150 nəfər niyə bir dəfə Nikol Paşinyana mina xəritələrini dürüscəsinə Azərbaycana verilməsini onlardan tələb etmədi?

Bir xatirəmi də sizə xatırladım: Xankəndidə tez-tez keçirilən beynəlxalq idman yarışları, festival və konsertlər Azərbaycan vətəndaşlarını üzən hadisələrdən olurdu. Ermənilərin bu tip tədbirlərdə göstərdiyi canfəşanlıq yox dünya siyasətçilərinin, iş adamlarının, ölkə başçılarının bu separatçı quruma göstərdiyi dəstək bizi üzərdi, yandırıb yaxardı.

**İndi "İlahi Ədalət" qələbə çalıb! Azərbaycan ordusu və siyasəti uğur qazanıb. İndi 30 il Azərbaycan torpaqlarında işğalçılıq, terrorçuluq, tirançılıq edənləri niyə bu qədər müdafiə edirsiniz? Sizi onları müdafiə etməyə məcbur edən böyük səlibçilik ruhunuz, xaçınızdır, yoxsa, erməni lobbisinin sayıb cibinizə soxuşduruğu milyonlardır?**

**Deməsəniz də, biz hər şeyi aydın görürük!**

**Əntiqə Rəşid**

---

# Ekspert: "Körpü inşasında bunlar nəzərə alınmalı idi"

**Günün aktual məsələlərindən biri də Bakıda körpü çökməsidir. Belə ki, Əbdülvahab Salamzadə küçəsi, körpünün üzərində yolun sağ zolağında yaranan çökmə səbəbindən küçənin hər iki istiqamətində- və "Qələbə" dairəsində sıxlıq yaranmağa başlayıb. Tez-tez hava şəraitinin kəskinləşməsi nəticəsində yaranan sıxlığı da nəzərə alsaq, vəziyyətin heç də ürəkaçan olmadığını görərik. Belə halların qarşısını almaq mümkündürmü? Yaxud da qarşısı alınmaq üçün hansısa tədbirlər görülürmü? Bu kimi suallar əlbəttə bizi də dqşündürür.**

Sözügedən məsələ ilə bağlı nəqliyyat eksperti Aslan Əsədov Adalet.az-a danışıb. Ekspertin sözlərinə görə, çökən körpü daim təzyiq altında olub və baş verən bədbəxt hadisə gözlənilən idi:

"Bu kimi neqativ halların yaşanmaması üçün mütəmadi



olaraq monitorinqlər aparılmalıdır, nəzarət mexanizmləri olmalıdır. Əsaslı təmir, cari təmir bu və ya digər formada mütləq aparılmalıdır.

Monitorinq aparılmadıqda bu cür xoşagəlməz hallar baş verə bilər.

Tikintidə hər hansı çatlar ola bilər, bir hissəsi qopa da bilər, burada qəbahət yoxdur, çünki uzun illərin tikintisidir. Bundan əlavə, çökən körpü böyük təzyiq altında olub, həmin körpüdə daimi olaraq tıxac var və yüklənmədədir.

Hətta tez-tez yük maşınları da həmin yoldan istifadə edir. Ona görə çökmə gözlənilən idi. Lakin monitorinq aparmaq, altı aylıq, bir illik əsaslı təmir aparmaq, körpünü nəzarətdə saxlamaq lazım idi".

Ekspert bildirib ki, bu kimi halların baş verməsində sürücülər təqsirkar deyil. Onlar sadəcə ara məsafəsini saxlamağa cavabdehdir:

"Bu halda sürücülərin üzərinə hər hansı məsuliyyət düşmür. Burada sürücülük bir şey yoxdur. Onlar sadəcə ara məsafəsini saxlamalıdır.

Burada məsələ konkret olaraq yolun özündən və onun keyfiyyətindən asılıdır. Buna sürücü heç nə edə bilməz. Sürücü körpünün üzəri ilə gedərkən qəfildən uçursa, bunda məsuliyyət daşıya bilməz. Ən yaxşı halda deyəcəklər ki, alın yazısı belə imiş, taleyi belə gətirdi, öldü, yazıq. Başqa heç nə etmək olmaz.

A.Əsədov söyləyib ki, çökən körpünün tikintisində bəzi nöqsanlar var:

**"Şəkildən baxanda da görünür ki, körpünün inşasında nöqsana yol verilib. Belə ki, körpünün çökən hissəsi amortizasiyaya uğrayan hissədir.**

**Orada daim yüklənmə olduğu üçün elastik bir səth olmalıdır, həmin yerə asfalt vurulmamalı idi. Sanki insanın qolu sınıb və həkim qolu oynaqdan gipsləyir. Belə etmək olmaz. Körpü inşasında da bu nəzərə alınmalı idi, bunun üçün mühəndis olmağa gərək yoxdur. Körpünün ağırlığını daşıya biləcək hissə var, onu nəzərə alıb həmin yeri elastik materialdan tikməli idilər".**

**Əntiqə Kərimzadə**

---

Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Uşaqlar yalan danışmırlar...



**Bu fikri kim deyibsə, çox düz deyib. Çünki həqiqətən də uşaqlar yalan demirlər. Və yalanı böyüklər danışırlar.**

**Bugünlərdə kənd rayonlarımızın birindəki orta məktəbdə ibtidai sinif müəllimini dərs dediyi sinifdə direktor ora gələrək əlindəki bloknotla onun başına vurub, sonra da itələyib yerə yıxıb. Bu anı sinifdə olan şagirdlər də görüblər. Onların bir neçəsi deyir ki, direktor müəlliməni bloknotla vurdu və itələdi.**

**Uşaqlar isə heç vaxt yalan danışmırlar və onlar gördüklərini deyirlər. İbtidai sinif müəlliməsi direktorun onu vurduğunu və təhqir etdiyini deyir. Müəllimə onu da bildirir ki, bir neçə gün əvvəl direktorla onun arasında mübahisə və münaqişə olub. Belə ki, iş günü olmayan vaxtı o, direktorun telefon zənginə cavab verməyib və bundan əsəbləşən direktor dərs zamanı sinif otağına gəlib, sonra danışdığımız hadisə baş verib.**

**Məktəbin direktoru isə deyir ki, mən onu vurmamışam, yanıma çağırmışam, o da gəlməyib, əksinə intizam qaydalarını pozub. Baş vermiş hadisə ilə bağlı müəllimlərin iştirakı ilə akt tərtib olunub. Təbii ki, bu aktın nə dərəcədə ədalətli olub-olmadığını bir o müəllimlər və bir də barəsində akt tərtib olunan müəllimə bilir. Direktoru qoyub, əsl həqiqəti kim müdafiə edəcək? Aydındır ki, əksəriyyət direktoru müdafiə edəcək!**

**Amma əsl həqiqəti uşaqlar deyirlər, çünki onlar böyüklər kimi yalan danışmırlar. İndi həmin hadisə ilə bağlı Regional Təhsil İdarəsi araşdırma aparır. Və eyni zamanda ibtidai sinif müəlliməsi polisə ərizə ilə müraciət edib.**

**Heç şübhəsiz ki, bu araşdırmalardan sonra əsl həqiqət üzə cıxacaq, kimin haqlı, kimin də haqsız olması aydınlaşacaq! Amma gəlin onunla razılaşaq ki, bəzi məktəb direktorları özlərini prokuror kimi aparır və düşünürlər ki, bütün müəllimlər onların qabağında dik durmalıdır! Amma nahaq yerə!**

---

Əntiqə Rəşid

# Serbiyanın Azərbaycan siyasətinə görə Makiavelli ilə razılaşmıram



*2020-ci il Azərbaycan tarixi imtahan günləini keçirirdi. Düşqonşumuzu silahlandırması biz də təəccüb yaratmadı. Ermənistanın arxasında duraraq, hərtərəfli dəstək nümayiş etdirərək onu Azərbaycanla müharibəyə itələyirdi. İranın ,Fransanın , Rusiyanın və bir sıra dövlətlərin belə düşmənçilik etməsi bizi təəccübləndirmədi. Necə deyərlər, adları üstündə: Düşmən!. Bizimlə düşmənçilik aparırdılar. Adını sıraladığım ölkələrin yanında bir də düşmənçiliyini gözləmədiyimiz ölkələr vardı. Onlardan biri də Serbiya idi. Bəli, 2020-ci il İyulun 20-də Serbiyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Danitsa Veinoviç Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb və Xarici İşlər Nazirinin müavini Xələf Xələfovla görüş keçirildi. Görüşdə X.Xələfov əldə edilmiş etibarlı və təsdiqlənmiş məlumata əsasən Serbiyadan Ermənistana minatanlar və müxtəlif kalibrli hərbi sursat da daxil olmaqla böyük həcimdə silah sursatın göndərildiyini qarşı tərəfə bildirdi. Əlbəttə cidanı çuvalda gizlətmək də mümkün deyildi. Serbiya rəsmisi Serbiyanın ticarət və telekommunikasiya naziri Rasim Ljajic açıqlamasında bildirdi ki, Ermənistana silahların "özəl bir şirkət tərəfindən ixrac edilib:"Silahlar Ermənistana dörd nazirlik - Ticarət, Müdafiə, Daxili, Xarici İşlər nazirliklərindən və Kəşfiyyat və Təhlükəsizlik Agentliyindən (BİA) icazəsi olan özəl şirkət tərəfindən ixrac edilib".Nazir bildirdi ki, "dövlət şirkətlərinin satışda iştirakı olmayıb". "Hansı şirkət olduğunu deyə bilmərəm, amma məlum olan budur ki, o, dəyəri milyon avrodan aşağı olan, əsasən silah və tapança ixrac edib. Satış iki hissədə, may və iyun aylarında yerinə yetirilib".*

*Açıqlama sizə də gülünc gəldimi? Onsuzda Azərbaycan bilirdi ki, Serbiya müxtəlif illərdə Ermənistanı müxtəlif tipli silahlarla təmin edib. Rəqəmlərə diqqət edək: Hələ 2007-ci ildən Ermənistana silah satışı üzrə öncül yerlərdən birini tutur. Məsələn elə həmin ili İrəvan Serbiyadan 250 ədəd M93 "Black Arrow" snayper tüfəngi və 100 ədəd 30 mm çaplı AGM-17 qumbaraatanı, 2010-cu ildə isə Serbiyanın "CPR Impex" şirkət Bosniya və Hersoqovina üzərindən satışı həyata keçirməklə Ermənistana 200 ədəd M-57 və M70 "Commando" minaatanı və 2016-cı ildə açıqlanmayan sayda 82 mm çaplı M79 dəzgahlı qumbaraatan (həmçinin bu silah üçün döyüş sursatı) və M-80 tipli biratımlı qumbaraatanlar ixrac edib.*

*Nəhayət qardaşlarından və dostundan başqa kimsədən dəstək və mənəvi yardım almayan Azərbaycan o çətin imtahandan əla qiymət alıb, alnıaçıq , üzü ağ dünyanın qarşısına çıxdı. Qalib oldu.*

*2022-ci ilin fevralında Rusiyanın Ukraynaya hücumu və Qərbin Rusiyaya düşmən münasibəti bir sıra problemləri meydana gətirdi. Rusiya qazının Avropaya nəqli zəiflədikcə alıcılar yeni qapılar axtarmağa başladı. Serbiya Rusiyadan asılılığını azaltmaq üçün üz tutdu Azərbaycana.*

*Serbiya 2037-ci ildən etibarən Azərbaycandan qaz tədarükünü üç dəfə artıra bilər. Bəli, bunu Serbiyanın dağ-mədən sənayesi və energetika naziri Dubravka Cedoviç-Handanoviç Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimindən sonra jurnalistlərə açıqlamasında deyib.*

*"Hazırda biz bu qaz kəmərini tam gücü ilə istismar etmək istəyirik. Gələcəkdə ehtiyac yaranarsa, biz onu 3,2 milyard kubmetrə qədər genişləndirə bilərik. Bu, demək olar ki, Serbiyanın qaza olan tələbatını tam 100 faiz ödəyəcək. Hazırda bu kəmər üçün əsas qaz mənbəyi Azərbaycandır və biz 2036-cı ilə qədər 400 milyon kubmetr qazın tədarükünə dair müqavilə imzalamışıq. 2037-ci ildən etibarən tədarük həcmi demək olar ki, üç dəfə arta bilər", - nazir bildirib. Onun sözlərinə görə, Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun işə salınması Azərbaycan ilə Serbiya arasında yaxşı münasibətlərin davam etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.*

*"Biz evlərimizə və fabriklərimizə daha çox qaz verə biləcəyik. Azərbaycandan əlavə tədarüklə ölkəmizin bu hissəsində qaz təchizatını genişləndirə biləcəyik. Bu, enerji sektorunda ikitərəfli strateji əlaqələrimizi daha da dərinləşdirəcək. Prezidentlərimiz arasındakı gözəl münasibətlər sayəsində Serbiya əsas qaz tranziti ölkəsi kimi xəritədə öz mövqeyini möhkəmləndirəcək", - Dubravka Cedoviç-Handanoviç əlavə edib.*

*Əslində Serbiya Azərbaycandan heç bir pislik görməmişdi. 1999-cu ildən Serbiyanın nəzarətindən çıxarılaraq BMT-nin himayəsində olan Kosovo 2008-ci il fevralın 17-də müstəqilliyini elan edib. Bu qərardan dərhal sonra ABŞ və bəzi Avropa dövlətləri Kosovonun müstəqilliyini tanıyıb. Ancaq dünya birliyinin bu məsələdə rəyi haçalanıb. Kosovonun müstəqilliyinə ilk etirazlardan biri Azərbaycanın paytaxtından gəlib. Həmin gün - fevralın 17-də brifinq keçirən Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü dövlətin mövqeyini belə açıqlayıb: "Kosovonun müstəqilliyini elan etməsi beynəlxalq hüquq normalarına zidd və qanunsuzdur".*

*Bunun ardınca - fevralın 26-da prezident İlham Əliyev Azərbaycan sülhməramlılarının Kosovodan geri çağırılması üçün Milli Məclisə müraciət göndərib. Kosovoda Türkiyə taborunun tərkibində fəaliyyət göstərən 34 nəfərlik sülhməramlı Azərbaycan taqımı Milli Məclisin martın 4-də keçirilən iclasının qərarıyla geri çağırılıb. Aprelin 15-də taqım Azərbaycana qayıdıb.*

*Beləcə, siyasət. zaman, maraqlar göstərir ki, qardaşdan başqa kimsəyə güvənmək olmaz! Sabah və yaxud gələcəkdə şərtlər dəyişərsə, məsələn, Serbiya Azərbaycandan umduğunu ala bilməsə yenidən Azərbaycanın düşməninə silah-sursat satacaq. Əslində Azərbaycanla heç bir problem yaşamadığı halda , hətta "yaxın dost ikən onun düşmənini dişinə qədər silahlandırmağı özünə məqsəd seçən Serbiya gör, Azərbaycandan umduğunu almasa, ala bilməsə. nələr edər!?*

***P.S.** italyan filosofu, yazıçı və siyasi xadimi Nikkolo Makiavelliinin "Şahzadə" əsərində Aristoteldən başlayaraq siyasi ədəbiyyatda hakim yer tutan "siyasətin əsasında ədalət və əxlaq dayanır" fikri təkzib olunub. Bu, həm Makiavellinin, həm onun əsərinin tarixə düşməsində əsas amil rolunu oynayıb. Hazırda Serbiyanın o cümlədən, dünyanın hegemon dövlətlərinin, beynəlxalq təşkilatlarının, qərb ölkələrinin siyasətini izlədikcə, Nikkolo Makiavelli böyük bir yanlış etdiyini anlayırsan. Deyəsən axı, siyasətin əsasında ədalət və əxlaq dayanmır?!*

# Gecikmiş məktub

**Salam və Salavat olsun Sizə, əziz Öndərim, Heydər Əliyev! Bu məktubun gecikmə səbəbləri var. Bu səbəbləri sizinlə bölüşürəm.**

Mən bu yazdıqlarımı 2003-cü ildə yazsaydım anlaşılmazlıq olardı və Sizə olan sevgim, sayqım haqda müxtəlif fikirlər söylənilərdi.

Bu məktubda yazılanların həqiqət olduğunu Gözəl Allahım, Sizin ruhunuz və o zamanlar vəzifədə olan çox insan bilir. 2003-cü ilin 15 dekabrında mən Nərimanov rayonunun 207 saylı məktəbində müəllimə idim. Siz 3 gün idi ki, bizləri tərk etmişdiniz.

Bütün idarələrdə matəm, anım günləri keçirilirdi. Çalışdığım məktəbin direktoru, keçmiş məktəb yoldaşım Mailə xanım məni çağırdı və dedi ki, Heydər Əliyevin anım günündə sən çıxış etməlisən. Evə gəldim. Fikirləşdim ki, nə danışacam. Bu nəhənglikdə dahi bir şəxsiyyət haqqında mən necə danışım ki, ona layiq olsun. Xasiyyətcə standart, çeynənmiş sözlər mənlik deyildi. Dəstəmaz aldım, namaz qıldım. Hacət Namazı. Çünki adi insan haqda danışmayacaqdım. Rəbbimdən kömək istədim. Namazı bitirib, dualarıma keçdim, səcdəyə getdim, o an tam möcüzə gördüm. Güclü bir işıq sütunu yuxarıdan aşağı məni bürüdü .Titrətdim və yalvardım: "İlahi mənə izn ver, "Söz ver danışa bilim".

Durub yazı masasına keçəndə, Sizin Ruhunuza müraciət edir kimi Sizdən soruşdum:

Nə yazım? Cavabımı qəlbimlə duydum.

"Özünün ən yaxşı bacardığın şəkildə səmimi qəlbdən gələnləri yaz". Başladım və bitirdim. 15 dəqiqə sonra artıq məktəb səhnəsinə necə qalxdım bilmədim. Salondakıları görmürdüm. Yazdıqlarımı titrəyə-tirəyə oxudum. Dahi İnsanın adının və soyadının Sakral mənasını 3 dildə Azərbaycan, ərəb və runik əlifbasının rəmzləriylə izahını verirdim. 3-ü də eyni mənaya gətirib çıxartdı. "Nəfəs qapısı". "Yuxarıdan gələn nəfəs qapısı".

Çıxışım bitəndə gördüm ki, Milli Məclisin bir neçə deputatı, Təhsil Nazirliyinin nümayəndələri, rayon təhsil şöbəsinin nümayəndələri məni dinləyirmiş. Şair Zəlimxan Yaqub ilk infarktdan durub bura gəlmişdi. Ayağa qalxdı, mənimlə salamlaşıb dedi: "Mən Heydər Əliyev cənabları haqqında yazdığım poemanı hələ çap etdirməmişəm, amma elə bil sən onu oxumusan".



Səhərisi gün o vaxtkı təhsil naziri Misir Mərdanov və onun müavini məni nazirliyə dəvət etdilər. Fatma Abdullazadə məlumatlı idi. Mənə təşəkkürünü çatdırdı. Misir müəllim adi bir müəllim üçün gözəl təkliflər elədi. Vəzifə, ad-san, imtina etdim. Əziz insan, Dahi Öndərim, cavabımda dedim ki, mən ona hədsiz hörmət bəsləyən, sayqı, sevgisini bildirməyə məqam axtaran bir müəlliməm, dilçiyəm. Sonra Səttarxan zavodunun klubunda təmtəraqlı məclisə dəvət etdilər, dedilər ki, çıxışı təkrar edin, etdim.

Əziz böyük müəllim, əziz Heydər Əliyev!

Həqiqətən sizin haqda dediyim səmimi doğrular mənə nəfəslik açdı. Uşaqlıqdan istedadlı və savadlı olduğumu hər kəsdən eşidirdim. Amma 43 yaşında ilk dəfə işləməyə müəllimliklə başlamışdım. İxtisasım dilçi şərqşünas idi. Taleyin hökmünə baxın ki, qızınız Sevillə bir fakültədə oxumuşduq və bir az da rəfiqəlik etmişdik. Sevil vəzifəli adamların qızları arasında səmimiyyəti və dürüst əxlaqı ilə seçilirdi. Ona yaxınlaşmağa heç kim cürət etmirdi. Özü mənə yaxınlaşaraq dedi, Almaz, gəl, bir az yaxın olaq. O, rus bölməsində oxuyurdu, mən Azərbaycan. Xahiş etdi ki, onunla həmişə azərbaycanca danışım. Çünki məktəbi rusca oxumuşdu. Əlavə etdi ki, atam tapşırıb Azərbaycan dilində kim səlis və sərbəst danışırsa onunla çox söhbət et. Sadə qız idi. Atasını hədsiz sevirdi. Tez-tez qəzetlərdəki çıxışlarını gətirib mənə oxutdurardı. Qürurla deyirdi, atam bütün sahələrdən xəbərdardır. Bir gün soruşdu ki, sənin atan kimdi? Gülümsəyib dedim, axı sən bunları bilirsən: - Açıq desəm birdən məni qoymazlar universitetdə oxumağa (o vaxt sovet qanunlarına görə ticarətçilərin uşaqları üçün qadağa vardı) Sakitcə cavab verdi: - Mənə etibar edə bilərsən. Gizlətmədim: - Bazarkomdu atam, amma ondan xəbərsiz bu fakültəyə sənədlərimi verib özüm daxil olmuşam.

Gülümsədi. Gülümsəyəndə bir az başını yuxarı qaldırırdı Sizin kimi. Həə, danışırlar ki, çox savadlısan. Sonra dedi: - Sən bilsən özü necə savadlıdı. Atam hər şeyi bilir.

Sevil xanımın atasına olan sevgisi və hörməti mənə elə o vaxtdan siraət eləmişdi. Xüsusi pərəstişkarına çevrilmişdim atasının. Yadımdadı Kənd təsərrüfatı işçilərinin konfrans materiallarını başdan-başa oxuyub heyran olmuşdum. Sizin qəzetdəki çıxışınızı mənə Sevil gətirmişdi. Onda 18 yaşım vardı, indi 68. Mənə Allah nə lazımsa verib. Bu dünyanın nemətlərindən doymuşam. Heç nəyə ehtiyacım yoxdu. Ona görə bu uzun müddəti susdum. Və məktubumu gecikdirdim. Ürək sözlərimi 48 yaşımda səhnədə dedim. Sizin haqqınızda yazdığım kiçik həcmli yazı mənə bu həyatda böyük nəfəslik açdı. Öz Yoluma çıxdım. "SÖZ" adlı yazıyla valeoloqların beynəlxalq konfransındakı çıxışım doktorluq dissertasiyasına gətirib çıxartdı. Moskvada müdafiə etdim. 65 yaşında yenidən "Almaz" metodunun kəşfi ilə əlaqədar müəlliflik hüququ aldım. Qeyd etdiyim həmin zamanlar Təhsil Nazirliyinin və Nazirlər kolleqiyasının fəxri diplomuna layiq gördülər məni. Özüm 3 uşaq anası olmağımı bəhanə edib təqaüdə çıxdım. Düşündüm ki, sizin haqqınızda yazdığım yazı hamıya nə qədər qeyri-adi görünsə də mən çox az demişəm. Əvəzində İnsanlardan heç bir şey almaq istəmədim. Halbuki, o vaxt övladlarımın çox ehtiyacı təmin oluna bilərdi. Amma Ulu müəllim, Ustadım, nə yaxşı ki, belə oldu. Sizi və məni yaradan Allah hər şeyi tənzimlədi. Həccdə olanda Həcc daşına yaxınlaşıb Rəbbimə yalvarmışdım ki, bircə arzumu yerinə yetir. Heç bir şəxsi arzumu deməmişdim. Yalnız onu dedim ki, vətənimin torpaqları alınsın, birləşsin.

Əziz Heydər Əliyev, mənə elə gəlir ki, siz də oğlunuza bunu vəsiyyət etmisiniz. Torpaqlarımızı geri almamış yanıma gəlmə. Allah İlham Əliyevdən razı olsun. Söz verdi, elədi. Geri aldı. İgidləri başına topladı. Qıy vurdu, haydı, irəli dedi, aldılar. Qan bahasına, can bahasına aldılar. Üzü ağ olsun. Millətin üzünü dünyada ağ elədi. Onun da heç nəyə ehtiyacı yoxdu. Tək bir dəyərləndirilməyə və vəsiyyəti sona çatdırmağa ehtiyacı var. Rəbbim güc və ömür versin oğlunuz İlhama. Onun haqqında da yazmışdım. Sonu Hüseyn Cavidin misraları ilə bitmişdi.

*"Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü"*

Əslində haqqı almaq nər oğulun işidi. Alan gündən bəri də bir sözü var." "Gəlin sülhə. Biz qan tökülməsini istəmirik. Mənim gözümdə sizin oğlunuz cavandı. Elin başına gəldiyi yaşdadı. İnşə Allah adının açmasını yazıb saxlamışam, hətta siyasətinin insanpərvərliklə bərabər döyüşçü ruhu olduğunu da izah etmişəm. Mən onun barədə bu yazını yazanda hələ torpağı qan bahasına almağa qalxmamışdı, hazırlaşırdı.

Sizin missiyanız torpaqları birləşdirmək idi. Onunku isə xalqının ruhdan düşmüş gücünü qaldırmaq və sona qədər torpağına, millətinə İlham vermək idi. Qalanını biz bilə bilmərik, Əziz Öndərim!

**İnanıram ki, əbədiyyətdə görəcəm Sizi. Ümidvaram ki, mən gələnəcən məktubumu alacaqsınız, böyük Ustad!**

**Almaz Xanlarova,**
**filologiya elmləri doktoru,**
**psixolinqvist, "Almaz"**
**metodunun müəllifi**

*Eminquey*

## Sufidən ruzili sevgi dərsi



**Bir gün sufilərdən birindən soruşurlar:**

**- Sevgi haqqında danışanlarla onu yaşayanlar arasında nə fərq var?**

**Sufi bircə kəlmə də demir, əvvəlcə sevgini dodaqdan qəlbə sala bilməyənləri çağırır, onları bir süfrə başına yığır. Süfrəyə əvvəlcə isti şorbalar gətirilir, daha sonra isə "dərviş qaşıqları" deyilən sapları bir metr olan qaşıqlar düzülür.**

**Sufi deyir:**

**- Bu qaşıqların ucundan tutub şorbalarınızı içəcəksiniz.**

**Amma qaşıqlar çox uzun olduğuna görə adamlar yerə tökub-dağıtmamış qaşıqları ağızlarına apara bilmirlər. Baxırlar ki bacarmırlar, süfrədən qalxıb gedirlər.**

**Sufi bu dəfə sevgini yaşayan insanları eyni hazırlanmış süfrəyə dəvət edir. Onların hər biri uzun qaşıqlarını boşqaba batırıb qarşılarındakı adama uzadır. Beləcə, hamısı qarnını doyurub süfrədən qalxır.**

**Sonra Sufi sual verən adama üzünü tutub deyir:**

**- Bax, kim ki həyat süfrəsində yalnız özünü görür və sadəcə öz qarnını doyurmağı düşünürsə, ac qalır. Kim ki başqalarını düşünür və onu doyurmağa çalışırsa, o da digərləri tərəfindən doyurulur. Unutmayın ki, həyat bazarında daima alan deyil, verən qazanclıdır.**

**Anlayıram, bəzi daima gülməli olmağa çalışan və özünü hamıdan ağıllı sayan adamlar "o uzun qaşığın sapını sındırıb vəziyyətdən çıxardım" da deyə bilər, amma bu əhvalat biclik və yumor sərgiləmək istəyənlər üçün deyil, ruzinin insana necə hasil olmağını düşünən üçündür.**

**Əlxüsus da özünü düşünən biveclər üçün!**

**Hə, bir də molla yanına gedib bərəkət duası yazdıranlar üçün...**

## Yazıçı: "Qarabağ Universiteti"ndə müəllim də, təsərrüfat müdiri də işləməyə hazıram..."

**"Əslində bütün bunlar hamısı çox möhtəşəmdir. Bizim tarixi qayıdışımızın əsas hissələrindən biridir. Tələbələrimiz orda təhsil alacaq, yaşayacaq, orda ailə quracaqlar, kök salacaqlar"**

Bunu Adalet.az-a açıqlamasında yazıçı Seyran Səxavət işğaldan azad edilən ərazilərimizdə təhsil müəssisələrinin yaradılması haqda danışarkən deyib. Yazıçı bütün bu addımların əzəli torpaqlarımızda möhkəmlənməmizə xidmət etdiyini bildirib:

"Bu təkcə Xankəndində keçmiş universitetin bərpası deyil, əslində bütün köklərimizi bərpa etmək məsələsidir. Bakı o qədər yüklənib ki, məsələn, hələ mən sovet dövründə bir çox ölkələr kimi Pribaltikanı da gəzmişəm. Orda tutaq ki, konservatoriya Litvada Vilnüsdə yox, Kaunasdadı. Bu bütün ölkə boyu yaranıb. Həm də bir başlanğıc kimi gələcəkdə bunu bütün bölgələrə aid etmək lazımdır. Bütün bu addımlar bizim dövlət olaraq proqramlarımızın tərkib hissəsidir.

Buna mən çox yaxşı baxıram, hətta Xankəndidə indi bərpa olunan stadionda yarış keçirmək o qədər lazımdır. Ordakı məktəblərin birində müəllim də, təsərrüfat müdiri də işləməyə hazıram".

Yazıçı Azərbaycan və Ermənistan arasında əsirlərin dəyişdirilməsi məsələsinə də toxunub:

"Biz həmişə əksər hallarda hər şeyi bir az baş-ayaq başa düşürük. Bəzi ağzıköyçəklər deyir ki, iki əsirimizə qarşı niyə otuz iki erməni əsiri veririk. Sadəcə bunu belə başa düşmək lazımdır ki, bizim iki əsgərimiz ermənininin otuz iki əsgərinə bərabərdir. Bunun mənası belədir".

## Terapevtdən xəbərdarlıq: "İşdəki problemləri evə gətirməyin..."

**Bu gün boşanmaların sayı artarkən, terapevtlərin problemləri həll etmək və boşanmaların qarşısını almaq üçün köməyi çox vacibdir.**

Adalet.az xəbər verir ki, terapevt Süməyyə Bilir son vaxtlar boşanma nisbətlərinin artdığına diqqət çəkərək bunun ən böyük səbəblərindən birinin həyat yoldaşlarının iş həyatlarındakı problemləri evlərinə daşımaları olduğunu bildirib:

"Qadınlar kişilərdən daha həssasdırlar. Həm də bəzən münasibətlərin pisləşən dinamikasını tez hiss edə bilirlər. Bu nöqtədə əlaqəni düzəltmək üçün kişilərdən terapevtə müraciət edə bilərlər. Əvvəla, bilməliyik ki, oynadığımız hər rol münasibətdə olduğumuz hər nöqtədə fərqlidir. Bu, əslində bizim öz inkişafımıza çox uyğundur. Buna görə də, öz emosional inkişafımızın fərqində olanda və özümüzü dərk etməyimiz artdıqda, əslində rollarımız haqqında daha az çaşqın oluruq. Bəzən gündəlik həyatın stressi və iş həyatında yaşadığımız mənfi hallar evdə öz əksini tapdıqda istər-istəməz ailələrin dağılmasına səbəb ola bilir. Bundan sonra münasibətlərdəki tarazlıq sarsılır. Ona görə deyirik ki, evdə rol başqa, işdə rol başqadır. Evə gələndə işdəki rolumuzu bir kənara qoymalıyıq"-deyə o, bildirib.

Terapevt bildirib ki, münasibətlər bu cür davam edəndə problemlər ortaya çıxmağa başlayır:

"Bu şəkildə insanların emosional və ya intellektual ehtiyacları ortaya çıxa bilər. Bu andan etibarən münasibətlərin dinamikasının getdikcə pisləşdiyini və bir-birini itirmək qorxusunun azaldığını görə bilərik. Terapevt tərəf tutaraq bir tərəfin haqlı, digər tərəfin haqsız olduğunu söyləməz. Terapevtlərin ümumiyyətlə diqqət yetirdiyi məqam pozulmuş dinamikanı görmək və düzəltməkdir. Cütlər bunu görə bilməz. Burada terapevtlər işə düşür. Münasibətlərdə cütlüklər ümumiyyətlə haqlı olmaq istəyirlər. Ancaq burada haqlı olmaq və ya xoşbəxt olmaq bizim üçün vacibdir, buna isə baxmaq lazımdır"-deyə terapevt bildirib.

## "Bir qadın ki, canından olan bir parçasını..."



**"Bu yaşımda elə hadisələr eşidirəm ki, dəhşətə gəlirəm. Ana da öz övladını atarmı, bunun ürəyi daşdımı?"**

Bunu Adalet.az-a açıqlamasında tanınmış ictimai xadim, Tibb Universitetinin (ATU) dosenti Rəşid Mahmudov deyib.

R.Mahmudov Bakıda ananın körpəsini taksidə qoyaraq qaçmasını sərt qınayıb:

"Hadisənin təfərrüatlarını hüquq-mühafizə orqanlarının araşdırdığını deyirsiniz. Yəqin ki, ondan sonra dəqiq bilinər qadın niyə bu addımı atıb. Amma heç bir halda ana nəyisə bəhanə gətirib uşağını atmalı, ondan imtina etməli deyil. Bu çox pis addımdır, başqaları da bu xəbərləri oxuyub özlüyündə fikirləşir ki, mən necə edib?! Bir qadın ki, canından olan bir parçasını, körpəsini taksidə qoyub qaçırsa, onu deyiləcək söz tapmıram"-deyə Rəşid Mahmudov bildirib.

Qeyd edək ki, Bakıda qadın övladını taksidə qoyaraq qaçıb. Bu haqda sosial şəbəkədə "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib. Hadisələylə bağlı Daxili İşlər Nazirliyi araşdırmalara başlayıb.

**Vasif Əlihüseyn**

# "Stalinin 85 il əvvəl əsası qoyulan Sumqayıtın altında gizlətdiyi xəzinə..."-

*Bu il Abşeron yarımadasının şimal-qərbində , Bakı şəhərinin 30-35 kilometrliyində Sumqayıt dəmir yolu stansiyanın yaxınlığında Sumqayıt şəhərini təməlinin atıldığı ildən 85 il keçir.*

*1938-ci il - indiki İES-in yerində fəhlələr üçün ilk baraklar quraşdırılır. İES-in inşaatçıları üçün yaşayış məntəqəsinin tikintisinə başlandı. 1939-40-cı illərdə isə Sintetik Kauçuk, Boru yayma və Kimya zavodlarının bünövrəsi qoyulur. Böyük Vətən müharibəsinin başlaması ilə bütün tikinti işləri durdurulursa da 1941-ci ildə İES işə düşür və Bakının neft sənayesi üçün ilk elektrik cərəyanını verir. Kimya və metallurgiya zavodlarının tikintisi 1944-cü ildə işinə başlayır və bir ildən sonra Sumqayıt Kimya zavodu ilk məhsulunu verir. Elə həmin ildən də Sumqayıtda geniş tikinti işləri vüsət alır.*

*İEM yanında qəsəbə olaraq yaranan Sumqayıt qısa müddət ərzində böyük sənaye mərkəzinə çevrilir.1949-cu ildə Azərbaycan Ali Soveti Prezidiumunun qərarı ilə Sumqayıta şəhər statusu verilir və elə o ildən Sumqayıt "metirka"sı elə yazılır. Yəni, belə hesablasaq bu il Sumqayıtın 74 yaşı tamam olur. Halbuki Sumqayıtın təməlqoyması və tikinti işlərinin başlanması məhz 1938-ci ildən etibarən başlayıb.*

*1952-ci il - Boruyayma zavodu ilk məhsulunu verdi. Azərbaycanda qara metallurgiya sənayesi inkişaf etməyə başladı. Sintetik Kauçuk zavodu işə başladı və ilk dəfə neftdən etil spirti əldə edildi. 1953-cü il Marten sobalarında ilk polad əridilməsi,1955-ci il Sumqayıt Alüminyum zavodu işə başladı,1957-59-cu illər - Elmi-tədqiqat institutları və mədəniyyət mərkəzləri tikilir, şəhər infrastrukturu inkişaf etdirilir.1960-ci il - Avropanın ən böyük neft-kimya kombinatının tikintisinə başlanıldı.*

*1961-68-ci illər - Bir-birinin ardınca yeni müəssisələr: kərpic zavodu, polimer tikinti materialları kombinatı, superfosfat zavodu, tikilərək istehsala başlayır. 1970-80-ci illər - Yüngül və maşınqayırma sənayesinin inkişafı. Bu vaxtlar Sumqayıt artıq keçmiş SSRİ-nin aparıcı sənaye şəhərlərindən biri kimi tanındı. Bu faktlar bir çoxlarınıza yəqin ki məlumdur və Bakıdan sonra respublikanın 2-ci böyük sənaye şəhərinin yaranması haqında məlumatları bilməmiş deyilsiniz.*

*İndi də keçək, Sumqayıt adının yaranma tarixinə və qədim Sumqayıtın tarixinə! Mövzu ilə bağlı suallarımıza siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev cavablandıracaq.*

**- Zaur müəllim, 70 il ərzində qəsdən səhv yazılmış və səhv də təbliğ edilmiş tariximizi araşdırmaq , həqiqəti tapmaq son 30 ildə bizə nəsib olub. Sumqayıt adı da erməni və rus qəsbkarlarının düşmənçiliyinə hədəf olan türk adlarındandır. Elə deyilmi?**

- Bu günə qədər Sumqayıtın adı ilə bağlı bir neçə uydurma izahlar verilib. Guya Hindistandan gəlib Yaxın Şərqə doğru hərəkət edən dəvə karvanında olan Sum adlı gənc və Ceyran adlı qızın "sevgi rəvayət"ində "Sum qayıt, Sum qayıt!" çağrışı edib və bundan sonra bu ərazi belə adlanıb. Birinci "Hindistandan gələn" dəvə karvanının Sumqayıtdan keçməsi nəinki məntiqlə, heç coğrafi yolla da mümkün deyil. İkinci, Hindistandan gələn karvanda olan səyyahlar Azərbaycan türkcəsində "Sum, qayıt" sözü deyə bilməzdi.



Sumqayıtın adında süni şəkildə zorla hind kökü axtaranlar da yanlış olaraq bunu həmin dildə müvafiq olaraq dəvə və iz mənasını bildirən "sumq upt" ifadəsi ilə bağlamağa çalışırlar. Bu da uydurma faktdan başqa bir şey deyil. Hindistandan gələnlər Suraxanı ərazisinə gediblər, Hövsan kəndində o zaman mümkün olan limana gəlirdilər, dizin-dizin ordan Suraxanı Atəşgahına qədər sürünürdülər.

"Sumqayıt şəhərinin tarixi" mövzusunda ilk doktorluq dissertasiyasının müəllifi olmuş Həmid Alıyev yazır: "Yerli toponimlərə zorla "uyğunlaşdırılmış" "Sum və Ceyran" əfsanəsi əslində həqiqətdən çox-çox uzaq bir erməni uydurmasıdır. Söhbət Sumqayıtın adının özgələşdirilməsindən getdiyindən, bu termin barədə bir neçə əsaslandırılmış söz demək məcburiyyətindəyik və bildiririk ki, burada işlədilən sözlərin hamısı türk mənşəlidir və onlar yalnız yerli-milli köklərə bağlıdır".

A.V.Tverdi "Qafqazın toponimik lüğəti"ində yazır: "Sumqayıt - Azərbaycanda şəhər; eyniadlı çayın mənsəbində, Azərbaycanın paytaxtı Bakı şəhərinin şimalında yerləşir. Hidronim XIII əsrdə Azərbaycanın monqollar tərəfindən işğalında iştirak etmiş türk tayfası sukaytın adı ilə bağlıdır".

**- Sovet tarixçilərilərinin 70 il bizə sırıdığı növbəti yalanın üstü açılır. Sumqayıtın etimologiyası da qondarma əfsanəyə deyil, türklüklə, türklərlə bağlıdır.**

- Tarixçilərin fikrincə, burada Midiya tayfaları yaşayıb. Tikinti bumu zamanı, icra binasının bünövrəsi qazılarkən ərazidən qədim karvansaranın qalıqları, habelə şəxsi əşyalar və qab-qacaq aşkar edilib.Tarixçilərin digər bir versiyası da var. Şəhərin adı qədim türk tayfası olan "suqa" və ya "sunqa"ların adından gəlmişdir. "-it" şəkilçisi isə qədim türk dillərində cəm şəkilçisi olub. "Sumqait" - "Sunqa-lar", yəni "sunqaların yerləşdiyi ərazi" mənasını daşıyır.

Şəhərin adının mənşəyi ilə bağlı başqa bir fikir, şəhərdən bir az şımalda axan Sumqayıt çayı ilə əlaqədardır. Yarımsəhra şəraitində axan çayın mənsəbi yoxdur və çay quraqlıqda tamamilə quruyur. Çayın Xəzər dənizinə axmayıb geri qayıtdığına görə ona qədim türkdilli tayfalar "su qayıdan çay" demişlər. Çayın adı və sonradan salınmış şəhərin adı da məhz bu ifadədən gəlir.

**- Bu versiya gülünc "Ceyran və Sum" əfsanəsindən daha sanballı və tutarlıdır.**

- Eyni fikri alman səyyahı İ.Lerx də yazır: XVIII əsrin 30-cu illərində Sumqayıtın yerləşdiyi hazırkı ərazidə axan çayın olduğunu və onun üzrərində daş körpünün mövcudluğunu bildirmişdir.Semyon Bronevski 1823-cü ildə nəşr edilmiş "Qafqaz haqqında ən yeni coğrafi və tarixi xəbərlər" adlı kitabında yazır: "Bakı xanlığı demək olar ki, Abşeron yarımadasında yerləşir, şimalda Quba mülkü ilə sərhəddir ki, ondan Suqaytı çayı ilə ayrılır". Bu versiya daha ağlabatandır.

**- Tarixi mənbələrdə bu ada nə vaxt rast gəlinib?**

- Çünki tarixi sənədlərdə Sumqayıtın adı ilk dəfə 1580-ci ildə ingilis səyyahı X.Berou tərəfindən çəkilir.

1858-ci ildə fransız yazıçısı A.Dümanın "Qafqaz səyahəti" adlı kitabında Sumqayıt adlı poçt stansiyasından bəhs edilir. Rus səyyahı İ.Berezin öz yol qeydlərində yazırdı:

"Şəhərin yaxınlığında Suqayıt adlı bir çay axır. Bu ad onunla bağlıdır ki, havalar isti keçəndə çayda su quruyur, yağışlar mövsümündə isə çay yenidən canlanır". İ.Berezinin fikrincə, ola bilsin ki, bu ad "su" və "qayıt" sözlərindən yaranmışdır. Qafqazın 1808-ci ildə Almaniyada Veymarda nəşr olunmuş xəritəsində Sumqayıt çayının adı "Suqayıt" kimi verilmişdir.

**- Onda belə çıxır ki, bu ərazilərdə ən qədim türklər yaşayıb və sonra yox olublar...**

- Bəli, bu ərazidə hələ eramızdan əvvəl 7-ci əsrdə qədim yaşayış məskənləri var idi. 1938-ci ildə şəhərin tikintisi zamanı torpaq altında qazıntı işləri görülərkən qədim yaşayış məntəqəsinin və karvansaranın qalıqlarına rast gəlinirdi.

**- Hesab etmək olar ki, əhali oranı təbii şəraitinə görə tərk etmək məcburiyyətində qalıb. Məsələn, 1938-ci ildə tikinti zamanı inşaatçıların qarşılaşdığı çətinlikləri təsvir etmək üçün onlardan birinin xatirələri bunu deməyə əsas verir. İnşaatçı yazır:" Çox şiddətli küləklər inşaatçıların işini ləngidirdi: gün ərzində qazılan tranşeylər gecə yenidən qumla dolurdu Bəzi barakları qum gecə boyunca elə örtürdü ki, bu barakı qumdan təmizləmək üçün iki, üç yük maşını lazım olurdu". Maraqlıdır, bu ərazilərdə şəhər salmaq Stalinə niyə bu qədər vacib olur?**

- Bolşeviklər Azərbaycanı işğal edəndən sonra onlara verilən məlumata görə, bəylər və xanlar öz varidatlarını Beşbarmaq, Xızı, Sumqayıt, Corat kimi ərazilərdə gizlədiblər. Bunun üçün Moskvadan xüsusi bir arxeoloqlar qrupu gəlir.

Tozlu-torpaqlı, dənizin ləpələrinin iri dalğalarla sahilə çırpıldığı ərazidə qazıntılar zamanı burda ilk insan yaşayış məskənləri olduğunu sübut edəcək qədim artefaktlar, əşyalar, qəbirlər, kurqanlar, qədimdə mövcud olmuş şəhər-dövlətin qalıqları tapılır.

Sumqayıtda yerləşən qədim tunc dövrünün yadigarı - nekropolun tapılması isə bu yerlərdə həqiqətən də qədim insanların məskən saldığını sübut edirdi. Sumqayıtın Yaşma bağları ərazisində yerləşən qədim ovdanın tapılması dediklərimizi təsdiq edir.

Mədəniyyət Nazirliyinin Şabran Regional İdarəsinin rəisi Sabit Qurbanov bu ovdanı belə təsvir edir: "Qobustan, Səngəçal, Hacıqabul, Siyəzən və Şamaxı ərazilərində tapılan bəzi türk tayfa damğaları həkk olunub.

Bu ovdanın üzərində Salur damğasına rast gəlinir. Burada 24 Oğuz boyundan biri olan Salur tayfasının damğası var. Bununla yanaşı, ovdanın üzərində insan fiquruna oxşayan damğa da aşkarlanıb. Bu damğalar noğayların istifadə etdiyi tayfa damğasıdır. Ümumiyyətlə abidənin üzərində altıyadək damğa mövcuddur".

**- Onda belə çıxır ki, tarix kitablarında yazıldığı kimi, sovet tarixçilərin dediyi kimi müasir Sumqayıtın yerləşdiyi ərazidə heç də qədim ə midiyalılar yox, elə qədim türklər yaşayıb. Hə, əgər ərazidən türklüyün tarixinə, qədimliyinə aid bir sübut tapılıbsa, deməli, Stalinə o ərazini yaddaşdan silmək üçün mütləq bir plan ortaya qoyacaq.**

- Burada tapılan qədim əşyalar paralel olaraq Mingəçevir ərazisində tapılanlarla oxşarlıq təşkil edirdi. Türk tayfalarına məxsus elementlər, petroqliflər, damğalar barədə dərhal Moskvaya xəbər verilir. Yaşı minilliklərə gedib çıxan bu tapıntı Azərbaycan türklərinə qarşı əks-planı olan Stalini narahat etməyə başlayır. Çünki qədim abidələr burda minillər öncə türk xalqlarının yaşadığını sübut edirdi. Qədim artefaktlar üzərində türk yazılarının olması ərazinin türk kimliyini məhv etməkdə onun qarşısında sədlər çəkirdi.O, ÜİK(b)P MK-nın və SSRİ XKS-nin rəhbərliyinə tapşırır ki, dərhal Bakı ətrafında olan Abşeron, Sumqayıtla yanaşı, Mingəçevir ərazisində yeni şəhər salınması məsələsini gündəliyə salsın. Nəticədə Sumqayıt şəhərinin ilk layihəsi və tikintisi 1932-ci il 16 may tarixli qərarına əsasən SSRİ Xalq Ağır Sənaye Komissarlığına həvalə olunur.

Sənaye obyektlərinin yerləşdirilməsi üçün yeni şəhər salmaq zərurəti yarananda Sumqayıt kiçik bir kənd idi. Beləcə, ilk tikinti işlərinə 1938-ci ildə başlanır,

**- Deməк, 1938-ci ildə Abşeron yarımadasının şimal-qərbində , Bakı şəhərinin 30-35 kilometrliyində türk abidələrindən ibarət bir yaşayış məskəninin tapılması, əslində Qafqazın türklərə məxsus olmasını təsdiqləyən bir sənəd idi. 1938 -ci il zəngin bir arxeoloji tapıntının tarixi kimi də qeydə keçə bilərdi. Bu səbəbdəndə Sumqayıtın "doğum metirkası" 1938 deyil, 1949 yazıldı. Təbii ki bu mənim subyektiv fikrimdir.**

**Son nəticə olaraq deyə bilərik ki, yer üzündən TÜRK sözünü silmək istəyən Stalin unudur ki, "Günəşi örtsə də qara buludlar, Yenə Günəş adlı bir qüdrəti var... " heç bir qəddarlıqla verilmiş qərar türk toplumunu məhv etməyəcək, türkçülüyü ortadan qaldırmayacaq. Zaur müəllim, ətraflı məlumatlara görə , sizə təşəkkür edirik!**

**Əntiqə Rəşid**

# Mərkəzi Bank əhaliyə xəbərdarlıq etdi

**Mərkəzi Banka daxil olmuş vətəndaş müraciətləri əsasında aparılmış araşdırmalar nəticəsində məlum olmuşdur ki, naməlum şəxslər sosial şəbəkələr üzərindən "Maryam Invest" investisiya şirkəti adı ilə yüksək gəlir vəd edərək investisiya xidməti göstərilməsi adı altında vətəndaşların pul vəsaitlərini mənimsəməyə cəhd edirlər.**

Bu barədə Adalet.az Azərbaycan Mərkəzi Banka istinadən xəbər verir.

Məlumata görə, son dövrlər ölkə hüdudlarından kənarda yeni fırıldaqçılıq hallarına cəhd edildiyi müşahidə edilir.

Mərkəzi Banka daxil olmuş vətəndaş müraciətləri əsasında aparılmış araşdırmalar nəticəsində məlum olmuşdur ki, naməlum şəxslər sosial şəbəkələr üzərindən "Maryam Invest" investisiya şirkəti adı ilə yüksək gəlir vəd edərək investisiya xidməti göstərilməsi adı altında vətəndaşların pul vəsaitlərini mənimsəməyə cəhd edirlər.

Fırıldaqçılar qeyd olunan şirkətin Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən lisenziya aldığını bildirərək saxta sənədlər əsasında vətəndaşların etibarını qazanmağa çalışaraq onları təqdim etdikləri xarici bank hesablarına investisiya etməyə təşviq edirlər




**Mərkəzi Bank bir daha əhalini diqqətli olmağa və fırıldaqçıların bu tipli təkliflərinə aldanmamağa, belə halların geniş vüsət almamasından ötrü investisiya xidmətlərindən istifadə etməmişdən əvvəl bu xidmətləri təklif edən şəxslərin fəaliyyətinin qanuniliyinin və lisenziyası olan şəxslərin siyahısının dəqiqləşdirilməsi üçün Mərkəzi Bankın rəsmi internet səhifəsindən (https://www.cbar.az/page-200/investment-companies ) istifadə etməyə çağırır.**

Əbülfət MƏDƏTOĞLU



# Biri Səsdi, biri Sözdü qolboyun

*Ustadım Seyran Səxavətin şeirini işığında Dədə Süleymanın Ruhuna...*

***Bu bir həqiqətdir ki, sözlə musiqi həmişə bir-birini tamamlayıb. Ona görə də söz olan yerdə musiqinin, musiqi olan yerdə sözün at oynatması təbiidir. Təbii olan isə həmişə ruh oxşayır, könül sevindirir. Bax, bu mənada hər dəfə kökləndiyim musiqinin sözünü də özümdən asılı olmadan gözüm, könlüm axtarıb tapır. Yəqin ki, siz də beləsiniz. Əgər bir anlıq gözümüzü yumub həmin musiqini dinləsəniz, o səsin də sizin yanınızda olduğuna, sizinlə çiyin-çiyinə dayandığına əmin olacaqsınız... Yəqin ki, Seyran Səxavətin xanəndələrimizin, müğənnilərimizin ifasında səslənən şeirlərini dinləmisiniz. Və onun musiqiyə necə yatdığını da hiss edib yaşamısınız.***

***Bugünlərdə Seyran Səxavətin ilk kitabı diqqətimi çəkdi. Əl boyda olan kitabı vərəqləyəndə, yəni "Mənim planetim"lə tanış olanda yenə həmin musiqinin kitabxanama axıb gəldiyini hiss etdim və elə həmin ovqatla da "Bir şairin bir şeiri" layihəmin mövzusunu tapdım. Bu mövzu da Seyran Səxavətin "Həzin-Həzin"i oldu. Şair yazır ki:***

*Gül, gülən gözündə şimşəklər çaxsın,*
*Mizrabı tellərə vur həzin-həzin.*
*Bu elin qəlbinə süzülsün, axsın,*
*Segah həzin-həzin, Şur həzin-həzin.*

***Həqiqətən, Şurun da, Segahın da həzinliyində sözün gözəlliyi də, yatımı da adamın şah damarına qədər işləyir. Elə bilirsən ki, o sözü də sən yazırsan, sən deyirsən.***

***Bax, bu balanslaşdırma, bu tarazlıq az qala adamın ayağını yerdən qoparır. Və sənin ruhunla birlikdə, cismin də fəzada ən gözəl bir məkanda qərar tutur. Orada səni işığına getdiyin səs qarşılayır. O səs də İslam Rzayevin səsidir:***

*mən bu səsin əllərini görürəm*
*qarışdırır, sığallayır saçımı.*
*mən bu səsi köynək kimi geyirəm -*
*unutdurur kədərimi, acımı.*

***Deyə bilərsiniz ki, burda mən bədii sözün gücünə söykənmişəm. Necə deyərlər, şairlik eləmişəm. Amma bütün hallarda yenə təkrar edirəm ki, İslam Rzayevi dinləyəndə, Dədə Süleymanın səsinin içərisində olanda mən***





*Tarını götürüb düşdün canıma,*
*Nidalar gözümə göründü, qardaş.*
*Xallar damarımdan keçib qanıma,*
*Bütün bədənimi süründü, qardaş.*

***Misralar tarın sədaları altında artıq mənim də içimdə sürünürdü, məni də çəkib aparırdı o simə tərəf, o barmaqlara tərəf, o avaza tərəf və elə bilirdim ki, həqiqətən o tarı sinəsinə sıxan adamla, o ifaçı ilə üz-üzə dayanmışam.***

***Hətta onun başını tara necə söykədiyini, gözlərini necə yumduğunu hiss edirəm, görürəm. Və bu ovqat da məni sözün meydanına tərəf çəkir. Həmin an böyük xanəndəmiz, mərhum və unudulmaz İslam Rzayev yazılmış misralarımı düşünürəm. Elə bilirəm ki, o tarın sədasında bu misralar da ruha xoş gələr:***

*mən bu səsin işığını görürəm*
*bu səs mənə təbiəti göstərir.*
*kol dibinə sığınaraq gizlənən -*
*toxunmadan, bənövşəni göz dərir...*

***Bilmrəm, siz indiki anda nə düşünürsünüz, nəyi xatırlayırsınız. Amma mən elə bilirəm ki, Seyran Səxavətin misralarının yaratdığı ovqat, barmaqların simə verdiyi dəyər indi o qədər yerinə düşübdür ki, orada saatlarla oturub qalmaq, xəyala dalmaq mümkündür və xəyal da qanadlandıqca istər-istəməz İslam Rzayevin səsi də gəlib tapacaq səni. Çünki onu arzulayırsan, onun işığına üz tutmusan. Bunu təkcə mən demirəm. Bunu həm də Seyran müəllimin misraları deyir:***

***Tar üstə xəyala elə daldın ki,***
***Babamın zilini, pəsini duydum.***
***Sən elə çaldın ki, elə çaldın ki,***
***Ötən əsrlərin səsini duydum.***

***Mən təkcə bugünün səsini, bu anın ovqatını özümə kökləmişdim və özümü də ona təslim etmişdim. Amma Seyran müəllim ötən əsrin də səsini şeirə çevirib onu da yaddaşımızın qaranlıq guşəsindən çəkib çıxarıb işığa. Həm zili, həm pəsi nur olan o səs yolumuza səpələnib. Və biz də bu yolla həmin o səsin dalınca getmişik və gedirik. Ona görə də yazıram:***

*mən bu səsin gözlərini görürəm*
*ovsunlayır qəmzəsiynən, nazıynan.*
*mən bu səsin izlərini görürəm -*
*vəsf eləmək çətindi bir yazıynan......*

***İnanın ki, bu yaşadığım, bu şeirləşdirdiyim misralar bir reallığın, bir gerçəyin özüdü, əks-sədasıdı. Xüsusilə, böyük xanəndənin ifasında dinlədiyim bir az kədərli notlara köklənən "Mən dünyada olmayanda" nəğməsi məni əməlli-başlı özümdən alır. O səs də, o ifa da mənim üçün möcüzəyə çevrilib. Bu sirlər dünyasında həm səsin, həm musiqinin təsiri ilə axtardığın gözün, gülün, çiçəyin özünü görmək və bir də sənə o musiqini təqdim edənin baxışlarını oxumaq, qəlbinin döyüntüsünü duymaq, Segah, Şur ovqatı yaşamaq necə də gözəldir. Bunun da gözəl olduğunu bir az da dəqiqləşdirsəm, o gözəlliyin yaşanmasının zərurətini də Seyran Səxavət deyir mənə, eləcə də sizə:***

***həqiqətən səsin əlini, ayağını da, yəni bütün vücudunu görə bilirəm. Lakin bilmirəm ki, bunun səbəbi, nədəni nədir?! Ona görə də lap çox dinləyirəm. O nədəni tapmaq yolundan dönmürəm. Bu yolda Seyran müəllimin misraları da köməyimə çatır:***

*Bir ölən həsrətim dirilib indi,*
*Fikirlər beynimi yormaq istəyir.*
*Sarı sim sərhədtək gərilib indi,*
*Mizrab o sərhəddi qırmaq istəyir.*

***Yəqin ki, bu məqamda mənim niyə məhz Seyran müəllimin misralarının köməyimə çatdığını söyləməyimin açmasını tapdınız. Həqiqətən, bir sevgi həsrəti, bir ömür nisgili, bir sərhəd xətti kəsir yolumu. O yolu ancaq səs və musiqi keçib gedə bilir, bir də xəyalım. Elə həmin xəyalla da indiki anıma, yəni kitabxanamda baş-başa qaldığım dünyaya qayıdıram. Misralar yenə öz axarı ilə sıralanır. Bu misralar İslam Rzayevdən, onun səsindən bəhrələnibdi:***

*mən bu səsin özü ilə üz-üzə,*
*danışıram, illər düşür yadıma.*
*toxunanda ürəyimə kim isə -*
*simurq kimi gəlib çatır dadıma!*

***İnsan ümidsiz olanda saman çöpünü də axtarır. Kül altdakı qoru da arıyır. Bu mənada səsi həmsöhbətim olan, nəğməsi ruhumu oxşayan unudulmaz xanəndəmizin yaratdığı ovqatla Seyran müəllimin misralarını təqdim etdiyi tarın işığı qovuşur bir-biri ilə. Həmin kəsişmə nöqtəsində yenə Seyran müəllimin şeiri dayanır. Özü də öz səsində, öz təqdimatında:***

*Bu tarla insanı qardaş, mənə bax,*
*Oxşamaq da olar, yormaq da olar.*
*Tarçının ürəyi sinəsində yox,*
*Tarçının ürəyi barmaqda olar.*

***Bu, bir həqiqətdir. Özü də Seyran Səxavətin möhürlədiyi həqiqət. Bütün musiqi bilənlər hər zaman vurğulayırlar ki, ifada barmaqlar şərtdir - barmaqlar danışa bilirsə, onda ifa dipdiri olacaq, canlı olacaqdır. Ona bir az da ürəyi, ruhu qatanda özgə bir aləm yaranacaq. Elə Seyran müəllim də həmin o mənim yozduğum fikri şeirinin sonunda möhürləyib. Həm mənim yaddaşıma, həm də oxucuların. Mən də ustada baxıb böyük xanəndəmizə hələ sağlığında yazdığım şeirin sonunu belə tamamlamışam:***

*mən bu səsin əhatəsi içində*
*yaşayıram, düşən gündən tilsimə!*
*gördüyümü yaşadığım üçün də -*
*məni dəli saymağa heç tələsmə!*

***Budur, sözün, səsin, musiqinin təmasından doğulan yazı. Mən onu kağıza köçürəndə, daha doğrusu, bilgisayarımız Elnarə xanıma diktə edəndə həqiqətən o səsi də, o ifanı da, o məqamı da yaşayırdım. Yanımda tar, yəni onu ifa edən barmaqlar, başımın üstündə Seyran Səxavət, gözümün önündə İslam, Dədə Süleyman... Bir sözlə, musiqili, nəğməli bir an!..***

***P.S.** Bu yaşamda, nədə səhv etdimsə, ustadımdan üzr istəyirəm.*

# DÜNYAŞÖHRƏTLİ VULKANOLOQ ALİM

**Azərbaycan planetimizdə palçıq vulkanlarının unikal və klassik inkişaf regionu kimi tanınır. Belə ki, Yer kürəsində məlum olan 2500-ə yaxın palçıq vulkanından təxminən 350-i Azərbaycanda yerləşir və onlardan bəziləri unikal təbiət abidəsi statusu adı almışdır. CNN Travel portalı tərəfindən 2017-ci ildə Azərbaycanın Abşeron yarımadasında yerləşən palçıq vulkanları dünyanın 50 təbiət möcüzələri sırasına daxil edilmişdir. Planetimizdə mövcud olan minlərlə füsunkar təbiət abidələri içərisində Vezuvi vulkanı, Arizona meteorit krateri, Kapadokya, Mamont mağaraları və b. daxil olan 50 təbiət möcüzələri sırasında bizim palçıq vulkanlarının da yer alması çox fərəhli və sevindirici hadisə, həm də alimlərimizin qazandığı böyük nailiyyətdir. Əsrarəngiz gözəlliyə, nadir ekzotik quruluşa malik olan palçıq vulkanları bizim həm milli, həm də təbii sərvətimizdir. İndi qürur hissi ilə deyə bilərik ki, dünyada ilk dəfə palçıq vulkanlarını elmi cəhətdən araşdıran, tədqiq edən Azərbaycan alimləri olmuşdur. Bu unkial təbiət abidələrinin dünyada ilk atlasını hazırlayaraq çap etdirənlər də bizim alimlər idilər.**

Bu nailiyyətlərin əldə olunmasında dünyaşöhrətli böyük alim, geologiya - mineralogiya elmləri doktoru, professor Adil Əliyevin əlahiddə xidmətləri olmuşdur. O haqlı olaraq elmimizin palçıq vulkanları üzrə patriarxı adlandırılır.

Ölkəmizin neft-qaz yataqlarının tədqiqində və onların palçıq vulkanları ilə əlqəli olmasının müəyyən edilməsində də Adil müəllimin müstəsna xidmətləri vardır. Eyni zamanda, o, ölkəmizdə geologiya elminin ən parlaq təşkilatçılarından və təbliğatçılarından biridir. Adil müəllim bir çox gənc alimlərə və mütəxəssislərə örnək ola biləcək maraqlı və zəngin həyat yolu keçmişdir və o indi də fəal elmi yadadıcılığını davam etdirir.

**"MƏN PALÇIQ VULKANLARINI SEYR EDƏNDƏ MƏNƏVİ RAHATLIQ TAPIRAM"**

**Adil Əliyev**

Adil Abas Əli oğlu Əliyev 1930-cu il sentyabrın 7-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) daxil olmuş və onu 1954-cü ildə fərqlənmə diplomu ilə bitirərək neftçi-geoloq ixtisasını almışdır.

Qeyd etmək lazımdır ki, Ad.Əliyev hələ tələbə olarkən elmi-tədqiqat işlərinə böyük maraq göstərdiyinə görə 1950-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Geologiya İnstitutuna işə qəbul olunmuş və indiyədək orada çalışır. Ad.Əliyev tələbə və aspirant olan zaman çöl ekspedisiyası işlərində akademik Şəfayət Mehdiyevin rəhbərliyi altında fəal çalışmış və sonralar onun yaratdığı "Neft yataqlarının geokimyası" laboratoriyasının tədqiqatlarında fəal iştirak etmişdir.

Qeyd edək ki, Adil müəllimi bu böyük insanla, görkəmli alimlə bir çöx oxşar cəhət birləşdirirdi. Gənc tələbə də uzun çöl ekspedisiyaları zamanı hiss etdi ki, geologiya digər ixtisaslardan fərqli olaraq adicə peşə deyil - həyat tərzidir. Geologiya fədakarlıq, özünə inam, romantika tələb edən yüksək ruhlu insanların peşəsidir. Geoloq özünə, öz gücünə güvənməlidir. Onun daxilində bir növ harmoniya olmalıdır, çünki çox vaxt o öz düşüncələri, xəyalları, istəkləri ilə tək başına qalmalı, düzgün qərar qəbul etməli olacaqdır. Geoloq üçün zəruri keyfiyyətlər diqqətlilik, ən incə nüansları belə görmək, gördüklərini təhlil etmək bacarığıdır. Axı, elə olur ki, sən getdiyin marşrutla ilk dəfə tədqiqat aparan elə özünsən. İşin keyfiyyətlə aparılmalıdır. Geoloq gördüklərini yaxşı təsvir etməyi bacarmalıdır.

O, 1954-cü ildə "Neft və qazin geologiyası" ixtisası üzrə aspiranturaya qəbul olmuş və 1958-ci ildə "Kiçik, Böyük Hərəmi və Mişovdağ silsilələri sahələrinin geoloji quruluşu və neft-qaz potensialının perspektivləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və bir ildən sonra ona baş elmi işçi adı verilmişdir.

Onun dissertasiya işi Aşağı Kür neft-qaz rayonunun həmin illərdə qazma ilə əhatə olunmayan sahələrin tədqiqinə həsr edilmişdir. Maraqlıdır ki, sonralar həmin ərazidə zəngin neft-qaz yataqları - Kürovdağ, Mişovdağ, Qalmas və s. kəşf olunmuşdur.

Sonrakı illərdə "Bituminologiya və süxurların üzvi maddələri" (1969- 1970) və "Palçıq vulkanlarının geokimyası" (1972-1986) laboratoriyalarına rəhbərlik etmişdir. 1986-1990-cı illərdə Dəməşq şəhərində Suriya Neft Şirkətində baş mühəndis-geokimyaçı və elmi məsləhətçi vəzifələrində işləmişdir.

1992-ci ildə "Palçıq vulkanizminin geokimyası və böyük dərinliklərin neft-qazlılığı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1987-ci ildən isə Adil müəllim Geologiya İnstitutunun (indiki Geologiya və Geofizika) palçıq vulkanizmi şöbəsinin rəhbəridir.

O, böyük təcrübəsi olan, yüksək ixtisaslı neftçi - geoloq, geokimyaçı və vulkanoloq alimdir. Elmi tədqiqatları neft və qazın geologiyası və geokimyası, palçıq vulkanizmi, karbohidrogen xammalının qeyri-ənənəvi (alternativ) ehtiyatları, və geologiya elminin tarixi sahələrini əhatə edir.

Göründüyü kimi, alimin elmi fəaliyyəti çoxsahəlidir, çünki hələ tələbəlik illərində Geologiya İnstitutunda işlədiyi dövrdə o, yay mövsümlərində təcrübəli, sonralar dünyaşöhrətli geoloq-alimlərin, Viktor Xainin və Hətəm Şıxəlibəylinin rəhbərliyi altında Azərbaycanın müxtəlif ərazilərində aparılan çöl ekspedisiyalarında fəal iştirak etmiş və geologiya elminin təcrübi əsaslarını mənimsəməyə nail olmuşdur. Sovet dövrünün ən romantik peşələrindən olan geologiyanın populyarlığının zirvəsi 1950-1960-cı illərə təsadüf edir. Müharibədən sonrakı onilliklərdə elmə təkcə uzun yolların romantikası ilə deyil, həm də alimin yüksək sosial nüfuzu və seçilən bir nəsil gəldi. Bunların ön cərgəsində gedənlərdən biri də Adil müəllim idi.

Universitetin IV kursunda oxuyarkən, Ad.Əliyev "Tərtər çayının yuxarılarının geoloji quruluşu"na həsr edilmiş işinə görə



keçmiş SSRİ Ali Təhsil Nazirliyinin həvəsləndirici fərmanı ilə təltif olunmuşdur. 20 ildən artıq (1960-1983) müddətdə əsas elmi tədqiqatları ilə yanaşı, o, Azərbaycanda SSR ərazisinin geoloji öyrənilməsi üzrə komissiyasının elmi katibi olmuş və "SSRİ Geologiyası" çoxcildliyinin Azərbaycana aid 42-ci cildin hazırlanmasına böyük əmək sərf etmişdir. Bu illər ərzində Azərbaycanın geoloji öyrənilmə tarixinin müxtəlif mərhələləri üzrə 10-dan çox kitab nəşr olunmuşdur.

Adil müəllimin elmi fəaliyyətini səciyyələndirərkən, qeyd etmək lazımdır ki, keçən əsrin 60-cı illərində o, Azərbaycanın neftli-qazlı rayonlarının çökmə süxurlarındakı üzvi maddələrin geokimyəvi tədqiqi işi ilə məşğul olmuş, mezokaynozoyun kəsilişində neft-qazəmələgətirən çöküntüləri ayırmış və görülən işlərin nəticələri Xəzəryanı-Quba rayonunun (1963), Kür dağarası çökəkliyinin şərq hissəsinin (1965) çöküntülərinin geokimyasına həsr olunmuş monoqrafiyalarda öz əksini tapmışdır. Eyni zamanda, 1964-cü ildə Dehli şəhərində keçirilən Beynəxalq Geoloji Konqresinin XXII sessiyasında "Azərbaycanın çöküntü qatlarındakı üzvi maddələrin geokimyasının bəzi məsələləri" adlı məruzənin müştərək müəllifi olmuşdur.

Adil Əliyevin əsas elmi istiqaməti palçıq vukanizmi problemlərinin həllinə yönəldilmişdir. Hələ namizədlik disertasiyası üzərində işləyərkən o, 1957-ci ildə Hərəmi silsiləsi palçıq vulkanları haqqında elmi məqaləsini çap etdirmişdir. Sonralar bu istiqamətdə tədqiqatlarını genişləndirmiş və onların nəticələri "Küryanı neftli-qazlı vilayətlərin palçıq vulkanları" (1969) monoqrafiyasında şərh olunmuşdur.

1966-cı ildə Geologiya İnstitutunda Sovet İttifaqı miqyasında ilk dəfə "Palçıq vulkanizmi" laboratoriyası yaradılmışdır. Bu laboratoriyada görülmüş işlərin nəticələri 5 il sonra Almaniyada çap olunmuş "Azərbaycanın palçıq vulkanları atlası"nda öz əksini tapmışdır. Bu atlas ümumdünya geoloji ədəbiyyatında palçıq vulkanlarına aid bu tipli birinci nəşr idi.

1972-ci ildə Geologiya İnstitutunda palçıq vulkanizmi sektoru yarandıqdan sonra, görkəmli alim-vulkanoloq, akademik Əhəd Yaqubovun rəhbərliyi altında palçıq vulkanlarının geokimyası laboratoriyasında o süxur və flüidlərin geokimyəvi tərkibinin, xüsusilə, vulkanların püskürmə məhsullarının kompleks öyrənilməsilə məşğul olur. Bu işlər nəinki Azərbaycanın, hətta keçmiş SSRİ məkanında intişar tapmış palçıq vulkanlarının tədqiqinə yönəlmişdir. O illər SSRİ EA-nın qərarı ilə Azərbaycan SSR Elmlər Akademiyasının Geologiya İnstitutu "Palçıq vulkanizmi və faydalı qazıntı yataqlarının axtarışı" problemi üzrə baş təşkilat statusunda təsdiq edilmişdi.

Bu illər ərzində palçıq vulkanizmi məsələlərinə aid bir çox vacib elmi - təcrübi nəticələr əldə edilmişdir. Ad.Əliyev palçıq vulkanlarının əmələgəlməsində və təzahüründə paleogen-miosen yaşlı süxurların rolunu, palçıq vulkanizmi ilə seysmikliliyin əlaqəsini təsdiq etmişdir. Onun tərəfindən palçıq vulkanlarının morfogenetik təsnifatı verilmiş, ilk dəfə olaraq iki genetik əlaqəli əsaslar: palçıq vulkanları və vulkan təzahürləri, həmçinin çoxlu miqdarda neft çıxaran vulkan və təzahürlər müəyyən edilmişdir. O "Sönmüş sualtı vulkanların axtarışı üsulunu" işləyib hazırlamış və Xəzərdə müvəffəqiyyətlə tətbiqinə nail olmuşdur.

Həmçinin palçıq vulkanları yerləşən ərazilərdə böyük dərinlikdə neft və qaz yataqlarının geokimyəvi metodlarla axtarışı məsələsini işləyib hazırlamışdır.

Son illər palçıq vulkanlarının struktur mövqeyinin öyrənilməsi, kosmik şəkillər və aerofotomaterialların təsviri əsasında yeni qırılma strukturları və müxtəlif xarakterli mikrobloklar, yerüstü və gömülmüş vulkanlar aşkar edilmiş, palçıq vulkanlarının məkan və zamanca paylanmasının qanunauyğunluqları müəyyən olunmuş, palçıq vulkanlarının ümumiləşdirilmiş kataloqları yaradılmış, püskürmə məhsullarının izotop-geokimyəvi tədqiqatları əsasında mənşəyi aşkarlanmışdır.

Ad.Əliyev bir alim kimi nəinki Azərbaycanda, həmçinin onun sərhədləri kənarında da yaxşı tanınır. O, çoxsaylı beynəxalq elmi forumların (ABŞ, Almaniya, İtaliya, Fransa, Macarıstan, Türkiyə və s.) iştirakçısı və mühazirəçisi olmuş, neft-qaz yataqlarının geologiyası və geokimyası, həmçinin palçıq vulkanizmi sahələrində Azərbaycan geologiya elminin xarici ölkələrdə təbliğ etmişdir. 1992-ci ildən etibarən alim xarici neft şirkətləri və firmaları ("Britiş-Petrolium", "Statoyl", "Geokimya qrupu", "Amoko", "Eksson", "AMOK" və s.) ilə müştərək elmi-tədqiqatlarda fəal iştirak etmiş və neft-qaz geologiyasının və palçıq vulkanizminin müxtəlif problemli məsələlərinin öyrənilməsi üzrə əsas icraçılardan biri olmuşdur.

Ad.Əliyevin vulkan palçığının xüsusiyyətlərinin öyrənilməsində, palçıq vulkanları qoruğunun yaradılmasında -vulkanlara turist marşurutlarının təşkili məsələlərində də böyük xidməti olmuşdur. Hələ 80-ci illərdə müalicə məqsədilə ilk dəfə olaraq vulkan palçığının geokimyəvi xüsusiyyətləri tədqiq olunmuşdur. 1993-cü ildə o, palçıq vulkanları sahələrinin dağıdılması, əraziyə tullantıların atılması, yaxınlığında tikinti işlərinin qarşısının alınması, vulkan qoruğunun təşkili məsələlərini respublikada ilk dəfə qaldırmışdır. 2008-ci ildə "Azərbaycanın palçıq vulkanları" (bələdçi) kitabçasını (ingilis, rus və azərbaycan dillərində) nəşr etdirmişdir.

Ümumiyyətlə, alim 400-ə yaxın elmi əsərin, o cümlədən 25 kitabın müəllifidir. Azərbaycanın neftli-qazlı rayonlarının palçıq vulkanlarının 1:500000 miqyaslı xəritəsinin həmmüəlliflərindən biridir ki, buna görə 1981-ci ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalına layiq görülmüşdür.

Adil Əliyevin geologiya elminin və bütövlükdə elmi biliyin populyarlaşdırıcısı kimi zəhmətini vurğulamaq vacibdir. 60 ildən artıqdır ki, o, elmi tədqiqatla yanaşı, eyni zamanda jurnalist fəaliyyəti ilə də məşğul olmuşdur. 70-80-ci illərdə Ad.Əliyev 16 il "Vışka" qəzetinin ştatdankənar müxbiri olmuşdur. Azərbaycanda, müxtəlif respublikalarda, xüsusən də Moskvada dərc olunmuş ("Priroda", "Vokruq sveta", "Nauka v SSSR" və s.) 250-dən çox qəzet və jurnal məqaləsinin müəllifidir. Onun çoxsaylı müsahibələrini, radio və televiziyada çıxışlarını qeyd etmək lazımdır.

**2000-2002-ci illərdə Adil Əliyev, "Amerika Neftçi Geoloqları Assosiasiyası"nın filialı olan "Azərbaycan Neftçi Geoloqları Cəmiyyəti"nin vitse- prezidenti və prezidenti olmuşdur. 2001 -ci ildə Azərbaycan Televiziyasının lentə aldığı 2 seriyalı elmi-kütləvi "Palçıq vulkanları" və "Vulkanla üz-üzə" filminin elmi məsləhətçisi (kinorejissor Nazim Rza) olmuşdur. Həmin ildə alim "BP" neft şirkəti ilə əməkdaşlıq çərçivəsində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin palçıq vulkanları ərazisindən keçən istiqamətini müəyyən etmişdir. 2004-2007-ci illərdə palçıq vulkanları qoruğunun yaradılmasına dair sənədlərin hazırlanması ilə əlaqədar Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində yaradılmış "Əlaqələndirmə şurası"na sədrlik etmişdir.**

**(ardı 7-ci səhifədə)**

# Dan üzünün duası



Məti Osmanoğlu

**Əbülfət Mədətoğlu ilə təqaüdə çıxmaq yaşımızın - 65-illiyimizin bizi təxminən eyni vaxtda haqlaması onun yaradıcılığı haqqında söz demək, ona yubiley təbriki yazmaq səlahiyyətinə və məsuliyyətinə məni də ortaq eləyir. Biz dünyaya da, ədəbiyyata da bir az aşağı, bir az yuxarı eyni vaxtda gəlmişik və sözün dünyası haqqında düşüncələrimizin ortaq dayaqları, bağları çoxdur. Elə ortaq olmayan məqamları da bir-birimizlə bölüşməyimiz çətin deyil: sözə münasibətdə düşüncələrimizdəki fərqlərin nə olduğunu, nədən gəldiyini bilirik...**

Əbülfət Mədətoğlunun imzası ilə oxucuların ilk ciddi tanışlığı 1980-ci illərdə olub. Onun bir şair kimi sözə yanaşması, sözdən şeir yaratmaq istəyi və bacarığı, yaratdığı şeirlərin bədii dünyası o illərin ədəbi iqliminin içində yoğrulub-yapılıb və o illərin ədəbi ənənəsi, aparıcı təmayülü ilə qırılmaz şəkildə bağlıdır.

Əbülfətin yaşı irəlilədikcə, təcrübəsi artdıqca baxışlar hədəfi uzaqda axtarsa, gözlər uzağa dikilsə, üfüqlər dərinləşib genişlənsə də, onun yaradıcılığılnın ilkin başlanğıc dayağı yerini dəyişmədi. Ən əsası da üstündən zamanın sərt yelləri əsən, fırtınalar, tufanlar görən bu başlanğıc öz ilkinliyini və təravətini saxladı...

***Baxdım, ölçdüm, düşündüm***
***Gözüm yolda bozardı.***
***Mən həsrətdən üşəndim***
***Yanaqları qızardı -***
***kədərin!***

***Bu sevginin hər anı***
***Məni aldı qoynuna.***
***Yerdə qoyma bu qanı***
***Sən onu yıx boynuna -***
***kədərin...***

Əbülfət Mədətoğlu bədii sözün qapısını döyəndə, ədəbiyyata "mən gəlirəm" deyəndə şeirin baş qəhrəmanı kədər olsa da, şairlərin gözündə dünya daha işıqlı idi və şeir insana da, dünyaya da işıq tərəfindən, ağ yanından baxmağa üstünlük verirdi. Kədərlə üz-üzə dayanan şeir nikbinlik axtarışında idi və həmin illərdə ədəbiyyata gələn ədəbi nəslin yaradıcılığı estetik başlanğıcını və gücünü işıqdan alırdı. Bu axtarışın bəzən ifrata varmasında da bir qanunauyğunluq olmamış deyil: Vaqif Səmədoğlunun "Bəxt üzüyü" komediyasında "optimist nəslin" nümayəndəsi Şair Moşu Göyəzənlinin əsər boyu "xoşbəxtlik" sözünə qafiyə axtarması, görünür, ədəbi prosesdəki işığın bolluğundan gəlirdi: şeirin "xoşbəxt sonluq" axtarışı bəzən komizm doğuran şablona çevrilirdi...

Bu gün o zamanın şeirindəki işığı, sabaha ümidi görməmək və qiymətləndirməmək həmin dövrün poetik dünyasını görməmək demək olardı. O dövrün gəncliyinin yaradıcılığına daha çox təsiri olan Əli Kərimin dünya ilə vida yazısının - "Vəsiyyət" şeirinin də son misraları şeiri işığa əmanət etmişdi. Şair övladlarına da, oxucularına da, ədəbiyyata özündən sonra gələn şairlər nəslinə də öz təbəssümünün işığını yadigar qoyub getmişdi:

***Asın təbəssümümü***
***divar lampası kimi***
***başı üstdən***
***üç canımın,***
***üç***
***igid oğlanımın,***
***Paşamın,***
***Azərimin,***
***Orxanımın...***

Əbülfət Mədətoğlunun 1988-ci ildə nəşr etdirdiyi ilk şeirlər kitabının, "Səməni nəğməsi"nin adı da oxucuya işıq vəd edirdi. Şairin özünü ədəbi ictimaiyyətə təbiətin dan üzünün - baharın rəmzinin adı və obrazı ilə təqdim etməsini onun yaradıcılığının mayasını, xəmirini müəyyənləşdirmək baxımından təsadüf saymaq doğru olmazdı. Əbülfətin sonrakı şeirlərini də dan üzünün duasının səmimiyyəti və həniri müşayiət elədi...

***Uşaq kimi gülümsəyir -***
***Hamıdan öncə dan üzü!***
***Çiçəklərin ən gözəli -***
***Açılan qönçə, dan üzü!***

Əbülfət Mədətoğlunun (və onun təmsil elədiyi şairlər nəslinin) yaradıcılığında işığın və ümidin leytmotiv təşkil etməsi ədəbiyyata sonradan gələn nəslin yaradıcılığı ilə müqayisədə daha qabarıq və parlaq görünür: bugünkü yeni və ən yeni poeziyamızın aparıcı motivi qaranlıq və qeyri-müəyyənlikdir. İndi şeir daha çox cavabı olmayan suallar qoyur və itdiyi qaranlığın içində ölümə, intihara, həyatın mənasızlığına tapınır. Əlbəttə, bu, toplum psixologiyası və sosiologiya baxımından arzuolunmaz təmayüldür və bunun arxasındakı ciddi ictimai səbəbləri görməzdən gəlmək olmaz. Sənət baxımından isə hər şairin yaradıcılığına fərdi yanaşmağa, hərəni istedadının səviyyəsinə və ədəbi prosesdəki yerinə görə qiymətləndirməyə ehtiyac var. Qaranlıqdan səslənən, çarəsizlik, ümidsizlik ifadə edən şairlərin istedadlıları və istedadsızları var. Onların yaratdıqları şeirlərin güclüsü və gücsüzü, orijinalı və bayağısı, yaxşısı və pisi var. Ancaq heç şübhəsiz ki, şeirimizin qaranlıq bolluğunda və qatılığında da "pessimist nəsil" modasından gələn israfçılıq öz işini görməkdədir. Yeni şeirin də "bədbəxtlik" sözünə qafiyə axtaran öz Moşuları var...

Tarixin tərsliyindən Əbülfət Mədətoğlunun ilk kitabı - "Səməni nəğməsi" nəşr olunan ildən etibarən ölkəmizin üzərində nikbin nəğmələrin deyil, sərt harayların kabusu dolaşmağa başladı və həmin qara kabus milli taleyimizi çulğaladı, tariximizin üstünə qatı bir qaranlıq çökdü. Əbülfət Mədətoğlunun işi isə lap nəhs gətirdi. Anadan olduğu Tuğ kəndi, Qarabağ torpağı milli psixologiyamızın tarix boyu ən güclü sarsıntısının episentrinə düşdü. Böyük güclərin məkrli oyununa çəkilən və bu oyuna həvəslə girən millətlər arasdında ədavət getdikcə qızışdı, qatı qaranlıqlara qızıl qanlar töküldü, qaçqınlıq, didərginlik, Əbülfət Mədətoğlunun öz sözü ilə desək, "Vətəndə vətənsizlik" başladı. Otuz ildən uzun sürən bir müddətdə məğlubiyyət acısı ilə sarsıntı içində yaşamağa məhkum edildik. Həyat bədii əsərdən daha dramatik və daha faciəli oldu...

Bu qarışıq tarix içində sözünü inadla deyən və eşitdirməyə çalışan şairlərdən biri Əbülfət Mədətoğludur. O, publisistik yazılarında israrla "torpaqlarımız yalnız hərbi yolla azad edilə bilər!" qənaətindən çıxış etsə də, şeirin sehrinə inamını heç itirmədi. Əbülfətin və Qarabağdan yazan şairlərimizin xidməti onda oldu ki, onlar insanlarımızın içindəki Qarabağı, bədii ədəbiyyatın yaratdığı Vətən obrazını işğal olunmağa qoymadılar. Qaranlıq işğal illərində yurdun, torpağın taleyinə həsr olunan şeirlərin də fərqləndirici tərəfi oxucuya ümid, işıq aşılamasıdır.

***Yenə könlüm qan ağladı,***
***Baxdım dağlara, dağlara...***
***Dolub qaralmış bulud tək,***
***Yağdım dağlara, dağlara.***

***Havalanmış ruhum şimşək***
***Bəsdi, mənə sən az şum çək!***
***Əbülfəti bir bayraq tək***
***Taxdım dağlara, dağlara...***

Doğma yurd xiffəti, uşaqlıq xatirələrinə qayıdış, zamanı geri döndərmək istəyi dünyanın düz vaxtında da şeiri müşayiət edib və edir. Bu, təbii bir yaddaş hadisəsidir: gözünü açanda gördüyü dünyanın xiffətini hamı yaşayır. Şairlər isə "günahı öz boyunlarına çəkir", bu xiffətə şeir donu geyindirib, onun təsirini daha da artırırlar. Ən yeni tariximizin Qarabağ xiffətini isə təbiətin və yaddaşın qanunu ilə izah etmək, anlatmaq mümkünsüzdür. Azərbaycan öz müstəqilliyinin qürurunu yaşamağa macal tapmamış yaddaşımız sevər yerindən yaralandı və Qarabağ xiffətinə həsr olunmuş yazılara bu yaradan sızan qan hopdu...

Bu mürəkkəb ictimai psixilogiyanın içində işıqlı şeir yazmaq və ya axtarmaq məntiqdənkənar, paradoksal görünə bilər. Ancaq bu da bir həqiqətdir ki, bədii sözün adi nitqdən başlıca fərqləndirici keyfiyyətlərindən biri məhz onun paradoksallığı, məntiqin fövqündə olmağıdır.

Əbülfət Mədətoğlunun 2019-cu ilin ilk günündə yazdığı bir şeiri var: "60 yaşın ilk şeiri". Əslində, həmin günün dərinliyində bir bayram havasının əsintisi də gözlənilə bilərdi: Dünya Azərbaycanlılarının Həmrəyliyi günü, Yeni il, bir də yanvarın 1-də anadan olmuş şairin doğum günü. Ancaq əlini üzünə dayamış şairin iç dünyasının dərinliyində başqa bir əsinti dolaşır və bunu kiminsə kənardan görməsi imkansızdır:

***İndi***
***əlim çənədə,***
***gözlərim pəncərədə,***
***xəyalım uzaqlarda…***
***səhərdən***
***çıxıb getmişəm***
***bu şəhərdən…***
***Tuğdayam,***
***qurşağa qədər***
***qarın içində -***
***dağdayam…***

Şeirin mətni incə bir tabu, "adıdeyilməz" üzərində qurulub: burada nə düşmən əsirliyində qalan Tuğun, nə Qarabağın, nə də Azərbaycanın digər ərazilərinin işğal altında olması ilə bağlı hər hansı bir eyham və işarə var. Sadəcə, şeirin lirik qəhrəmanının (bu ədəbiyyatşünaslıq termininin burada nə dərəcədə yerinə düşdüyünü bilmirəm) xəyalı doğulduğu torpaqda, Tuğda dolaşmaqdadır. O, əhatəsində olduğu hər kəsdən, hər şeydən qopub ayrılmaq, "dörd divardan ibarət dibçəkdə yaşamaq mövcudluğundan" qurtulmaq, bir zamanlar Tuğda qarı xışmaladığı kimi indi də zamanı xışmalayıb, ovcunun içində saxlamaq, qayalardan sallaşan buz sırsırası arasında yer tutmaq, uzaqlarda, xatirələrdə qalmış, düşmən gülləsi ilə yaralanmamış, paralanmamış, parçalanmamış ilkinliyə qovuşmaq istəyir. Onun üçün yaşamaq - Tuğda qurşağa qədər qarın içində buz bağlayıb daş olmaqdır.

***Amma***
***bir Allah görür***
***bir də sən***
***harda olduğumu***
***bu qarın içində***
***hıçqırıqlara boğulduğumu…***

Yaşın, ömrün qürbəti ilə torpağın və yaddaşın qürbəti bir-birinə tən gələndə isə insanın içindəki uçurum dərinləşir. Uçurumun o biri qaşından adını dilinə gətirə bilmədiyin məlul-məyus, boynubükük segvi boylanır. Uzaq illərin və xatirələrin bu sahilində bayram süfrəsi başında yanlarında oturduğun ən yaxın, ən dogma insanların belə sənin haralara getdiyindən xəbəri olmur.

***İndi əl çənədə***
***göz pəncərədə***
***ad günümdə***
***süfrə başında***
***oturub***
***geri qayıtmağımı***
***gözləyir***
***sakitcə uşaqlarım***
***hələ də…***

Burada "geri qayıtmaq" frazasının iki mənada yozulması və qavranılması mümkündür. Bir - şairin daldığı və heç kimin görmədiyi həsrət dünyasından, xatirələr aləmindən geri qayıtmaq, bir də tərk etdiyimiz torpağa, xəyalın dolaşdığı yurda geri qayıtmaq...

Və biz qayıtdıq…

Geri qayıtmadıq. İtirdiyimiz torpaqları əsirlikdən xilas eləyib, irəli, tariximizin yeni və şərəfli başlanğıcına döndük.

Uzun sürən və bizim nəslin payına düşən ayrılıqdan sonra sözümüz Müzəffər Ordusu zəfər çalmış qalib dövlətin və millətin səsi kimi yüksəlməyə və eşidilməyə başladı.

Bizi bu şanlı tarixə qovuşduran, müqəddəs xatirəsi bizə daim əziz olan şəhidlərimizi ən təntənəli yığıncaqlarımızda bir qədiqəlik sükutla yad etmək isə yazılmamış qanunumuza çevrildi.

"Bir dəqiqləlik sükut"u əbədiləşdirən şairlərdən biri Əbülfət Mədətoğludur və bu şeir də dan üzünün duası kimi işıqla doludur.

***Tətikdəki barmağı***
***Ürəyimlə öpəcəm!***
***Şəhid qanlı torpağı***
***Gözlərimə təpəcəm!***

***Son hücumun nidasını***
***Bayrağıma tən tutub...***
***Hayqıracam sədasını:***
***- Döyüşü vətən udub!***

…Bu yazını Əbülfət Mədətoğlunun 60-illiyi münasibətilə yazmağı nəzərdə tutmuşdum və bu barədə özünə də "informasiya sızdırmışdım".

Beş ildən sonra yazmalı oldum.

"Hər işdə bir xeyir var" deyiblər. Bu yazı beş il bundan əvvəl yazılmış olsaydı, yəqin ki, təsəlli ilə bitirməli olacaq və təsəlli üçün söz tapmaqda çətinlik çəkəcəkdim…

**İndi isə 65 yaşını döyüşdən qalib çıxmış Vətəndə qarşılayan şairə var səsimlə gözaydınlığı verirəm!**

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

№ 48 (2372) 15 dekabr 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# SÖZÜN QÜDRƏTİ

**Deyirlər ki, dünyada sözdən güclü və qüdrətli bir şey yoxdur. Təbii ki, bu fikirdə həqiqət çoxdur. Düzdür, dünyanın bu gün ən müasir silahlarla idarə edirlər. Daha doğrusu, dünya gücləri nüvə silahına malik olduğu üçün digər ölkələrə hərbə-zorba gəlir, onların gözünü qorxuzur və maraqlarını bu üsulla təmin etmək istəyirlər. Aydındır ki, heç də hər ölkə dünya güclərinin hərbə-zorbasını qəbul etmir və onlara silahdan da güclü sözlə cavab verirlər. Bu söz həmin dünya güclərini silkələyir, ağlını başına gətirir və onları daha dərindən düşünməyə məcbur edir.**

Əlbəttə, söz tək indiki zamanda deyil, insan yarandığı gündən ta bu günə kimi öz qüdrətini, gücünü, qüvvəsini və əhatə dairəsini həmişə zənginləşdirib, qoruyub. Bizim ölkəmizdə də söz, mətbuat, pülrealizm, fikir və düşüncə azadlığına bu və ya digər dərəcədə önəm verilib, diqqət yetirilib. Söz o vaxt güclü olur ki, o hər hansı ünvanına vaxtında çatır və öz təsirini göstərir. Əlbəttə, totalitar rejimdə, yəni başqa sözlə demiş olsaq, qeyri-demokratik bir dövlətdə heç vaxt mətbut, fikir azadlığı, pülrealizm ola bilməz. Olsa da onu elə günə qoyacaqlar ki, o azad sözü, azad fikri səsləndirən hər hansı bir insan olmazın təzyiqləri və müsibətləri ilə üzləşəcək. Biz bunları Sovet dönəmində çox görmüşük. O dövrdə daha dəqiq desək, 1980-ci illərdə "Cümhuriyyət" ifadəsini işlətdiyinə görə çox siaysi xadimlər və ziyalılar təzyiqlərə məruz qalırdılar. Hətta bu sözlər yenicə nəşrə başlayan demokratik fikirli mətbuat orqanında yazılanda yuxarıların kürkünə birə düşürdü. Çünki onlar sözün həqiqi mənasında açıq fikirdən, açıq düşüncədən və söz azadlığından çəkinirdilər. Ən azından ona görə ki, Sovet rejimində yüksək vəzifədə əyləşən məmurlar haqq-ədaləti qəbul etmir, düz sözü deyənlərdən xoşu gəlmir və müxtəlif bəhanələrlə həmin yazarları, ziyalıları incidir və elə günə qoyurdular ki, o yazarlar ikinci dəfə o fikirləri səsləndirməsinlər. Amma heç nədən, heç bir təzyiqdən qorxmayan, cəsarətli ziyalılarımız fikirlərini və aydın düşüncələrini cəmiyyətə çatdırırdılar. Böyük ziyalılarımızdan Bəxtiyar Vahabzadə, Xudu Məmmədov, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov, Aydın Məmmədov və başqaları, istər o vaxtkı mitinqlərdə, istərsə də qəzetlərdə çap olunan məqalələrdə o azad fikri və düşüncəni cəmiyyətə ötürürdü. Yenə deyirik, ancaq çox çətinliklə!



Lakin Azərbaycan müstəqillik dövrünə qədəm qoyduqan sonra, bütün sahələrdə olduğu kimi, mətbuat, söz, fikir pülrealizmi və düşüncə sahəsində də yeni bir sistem, yeni bir mərhələ yarandı. Bu mərhələni də və bu mühiti də Ulu Öndər Heydər Əliyev respublikamıza gətirdi. Heç kim deyə bilməz ki, ondan əvvəlki hakimiyyətlərin dövründə söz və mətbuat azadlığı bu dərəcədə çiçəklənməmiş və geniş vüsət almamışdır. Çünki Ulu Önər Heydər Əliyev sözün, mətbuatın və düşüncə azadlığının necə olmasını hamıdan yaxşı bilirdi. Bunları hamıdan yaxşı bilən Heydər Əliyev Azərbacyanda 1993-cü ildən sonra elə bir mühit, elə bir şərait yaratdı ki, burada sözün həqiqi mənasında mətbuatın və söz azadlığının inkişafıından danışmağa və söhbət açmağa dəyər. Belə ki, Ulu Öndər Heydər Əliyev istər rəsmi görüşlərində, istərsə də ziyalılarla, yazıçılarla, jurnalistlərlə söhbətlərində həmişə onlara rahat şərait yaradar, fikir və düşüncələrini səslənddirmək üçün imkan verərdi. Bir fikri də deyək ki, Heydər Əliyev hətta Sovet İttifaqının vaxtında Azərbaycan Kommunist Partiaysının birinci katibi və Siyasi Büronun üzvü olanda belə yazıçı və şairlərlə görüşündə çox açıq söhbətlər edib, onların fərqli düşüncələrinə və fikirlərinə hörmətlə yanaşıb, hətta o vaxt kimlərinsə ehtiyatla danışa biləcəyi sözləri səsləndirmək üçün yazarlara bir ruh da verib.

Ümumiyyətlə, bir fikri qeyd edək ki, Heydər Əliyevin hakimiyyəti dövründə Azərbacyan mətbuatına çox böyük diqqət və qayğı göstərilib. Fikrini öyrəndiyimiz neçə-neçə qəzet təsisçisi və baş redaktorlar deyirlər ki, onlar Heydər Əliyevin azad sözü və demokratiyanı dəstəkləməsindən sonra cəmiyyətə daha açıq fikirlər və ideyalar ötürüblər. Bu fikir və ideyalar birmənalı olaraq Azərbaycanın müstəqilliynə, dövlətçiliyinə və demokratik inkişafına xidmət edib. Hər şeydən öncə Vətənin bütövlüyü, insanların azadlığı və onların bəşəri dəyərlərə hörmətlə yanaşmasıdır. Təsadüfi deyil ki, Azərbaycanda gedən demokratik islahatlar, söz və mətbuat azadlığına yandırılmış "yaşl işıq" hətta bizdən xoşu gəlməyən Avropa dövlətlərinin də ürəyincə oldu. Çünki elə Avropa dövlətləri var ki, Azərbaycana və onun inkişafına paxıllıq edir, suyu bulandırmağa çalışırlar. Amma elə ki, o dövlətlərin mütəxəssisləri, siyasi xadimləri, jurnalistləri və ekspertləri Azərbaycana gəlir və burada tam başqa bir mənzərə görürlər. Belə ki, bəzən sapı özümüzdən olan baltalar ölkəmizdə demokratiyanın pozulmasından, söz və mətbuat azadlığının zəif olması barədə Avropalıların qulaqlarını doldururlar. O Avropalılar da Azərbaycanda gəlib deyilənlərin əksini görürlər. Görürlər ki, Azərbacyanda sosial media açıqdır, çoxlu sayda qəzet, jurnal, televiziyalar fəaliyyət göstərir və insanların azad söz demək sahəsində heç bir problemi yoxdur.



Əgər Azərbaycan dövlətinin qayğısı, diqqəti və isti münasibəti olmasaydı birmənalı olaraq, ölkəmizdə əksər çap mətbuatı nəşrini çoxdan dayandırmışdı. Çünki həmin çap mətbuatı çox mürəkkəb durumdadır və onlara hər il dövlət tərəfindən ildə iki dəfə maliyyə yardımı edilir. Bu maliyyə yardımı şübhəsiz ki, həmin qəzetlərin və eləcə də sayıtların dirçəlməsi üçün ən böyük təkandır. Əlbəttə, bunu kim bilməsə də çap mətbuatının təsisçiləri və redaktorları çox yaxşı bilirlər və həm də yüksək qiymtələndirirlər.

**Prezident İlham Əliyev tərəfindən də Azərbaycan mətbuatına həmişə böyük dəstək olub və cənab Prezident öz çıxışlarında dəfələrlə bəyan edib ki, mən juranilstlərin ən yaxın dostuyam və dostluqda da sədaqətliyəm. Cənab Prezident bu sözləri öz əməli fəaliyyəti ilə gerçəkləşdirib və mətbuatımızın ən çətin, ən ağır günündə sinəsini qabağa verib, onu xilas edib. Və bu günün özündə də ölkəmizdə gedən demokratik prosseslərə - söz, mətbuat, düşüncə, fikir plürealizminə İlham Əliyev tərəfindən böyük dəstək var. Təbii ki, bu dəstəyi də həm cəmiyyət, həm də mətbuat nümayəndələri çox yüksək dəyərləndirirlər.**

**FAİQ QİSMƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

**Akif İMANLI-75**

# DAĞ HAVASIYLA PƏRVAZLANAN ALİM ÖMRÜ

***Akademik İsa HƏBIBBƏYLİ:***
***"Mən professor Akif İmanlını etibarlı dost, əsl pedaqoq, dilçi-alim, Mirzə Cəlil ruhlu yazıçı kimi tanıyıram..."***

**Odlar yurdu Azərbaycanımızın Naxçıvan diyarının Şərur ellərinin gen qucağını qoyub dağlarının döşünə sığınıbdır Axura kəndi. Bəlkə ona görədir ki, Ulu Tanrı öz payını əsirgəməyibdir bu kənddən: dörd bir bucağında suları ürəklərə sərinlik gətirən bulaqlar çağlayır, dağlarının şiş qayaları buludlara dayanaraq göyləri saxlayır... Günəşi nurludur, qarı bəm-bəyazdır, ağaclarının meyvələri tükənməz, çəmənlərinin çiçəkləri ətirli, rəngarəngdir Axuran kəndinin! Bir də qonaqcanlı, el-obaya bağlı, elmə-mədəniyyətə vurğun, sinələri söz boğçalı, əməksevər insanlar yaşayır bu kənddə!**

Haqqında söz açmaq istədiyim Akif Kazım oğlu İmanlı 1948-ci il dekabrın 27-də Axura kəndində müəllim ailəsində anadan olmuşdur. Səkkizillik təhsilini doğma kəndində aldıqdan sonra, Şərur şəhərindəki orta məktəbi bitirmiş, müəllimlik peşəsinə sonsuz məhəbbəti, doğma dilimizin saflığına, ədəbiyyatımızın zənginliyinə vurğunluğu onu 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə gətirib çıxarmışdır. Həmin ildən Azərbaycan DPİ-nin Naxçıvan filialı fəaliyyətə başladığından Akif ali təhsilini Naxçıvan şəhərində davam etdirmişdir. Bəlkə də ən şirin, yada düşəndə ürəyin tellərini sızladan tələbəlik illəri Akifin və onun tələbə dostlarının payına hamıdan çox düşmüşdür. İnstitutda onların hər bir təşəbbüsü maraq və sevinclə qarşılanırdı. Xoşbəxtlikdən Akif İmanlı kimi onun tələbə dostları da yenilikçi, yaradıcı və təşəbbüskar idilər. Təsadüfi deyil ki, o illərdəki tələbələrin çoxu bu gün ədəbi yaradıcılıqla və elmi işlərlə məşğul olan yazıçılar, alimlər, metodist müəllimlər, idarə və müəssisə rəhbərləri, öz əməkləri ilə tanınan insanlardılar.

Hələ tələbəlik illərində bədii yaradıcılığa meyil göstərən Akif İmanlının ruhuna yumor qarışmış hekayələri Muxtar Respublikada nəşr olunan "Şərq qapısı", "Şərurun səsi" qəzetlərində, toplu və almanaxlarda dərc olunmuşdur. 2004-cü ildə isə bu hekayələr "Kal qarpız" adlı kitabda toplanaraq oxuculara çatdırılmışdır.

1971-ci ildən Naxçıvan DPİ məzunu olan Akif İmanlı Şərur rayon təhsil şöbəsinin göndərişi ilə Şəhriyar kənd orta məktəbinə Azərbaycan dili və ədəbiyyat müəllimi təyin olunur. Orta məktəb şagirdlərinə Azərbaycan dilinin və ədəbiyyatının incəliklərini səylə mənimsədən Akif müəllim pedaqoji kollektivin və şagirdlərin sevimlisinə çevrilir və yaxşı müəllim kimi tanınır. Rayon Təhsil Şöbəsinin təşkil etdiyi bölmə iclaslarında, seminar və konfranslarda maraqlı məruzələrlə çıxış edir. 1977-ci ildə Akif İmanlı Naxçıvan DPİ-yə (indiki DPU-ya) müəllim işləməyə dəvət olunur, bir vaxt tələbə kimi təhsil aldığı bu ali məktəbdə müəllim kimi fəaliyyətə başlayır. Lakin fəaliyyətini müəllimliklə bitmiş hesab etmir, elmi sahədə axtarışlarını davam etdirir, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun (indiki Təhsil Problemləri İnstitutunun) aspirantı olur, respublikamızda tanınmış dilçi alim, pedaqoji elmlər doktoru, professor Əziz Əfəndiyevin rəhbərliyi altında "Azərbaycan dili sintaksisinin ibtidai kursunun öyrənilməsində sintaktik bacarıq və vərdişlərin formalaşdırılması" mövzusunda dissertasiya işi üzərində çalışır. Bu illər ərzində o, elmi məqalələri ilə Naxçıvan DU-nun "Xəbərlər"ində, "Azərbaycan məktəbi" jurnalında, onun əlavələri olan "Azərbaycan dili və ədəbiyyatı", "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnallarında çıxış edir. 1988-ci ilin may ayında uzun illərin və yorulmaz fəaliyyətin bəhrəsi olan elmi işini uğurla müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alır.

Naxçıvan Müəllimlər İnstitutu fəaliyyətə başlayandan Naxçıvan Dövlət Universitetində fənlərin tədrisi metodikası kafedrasının dosenti Akif İmanlı taleyini bu ali təhsil ocağına bağlamış, əvvəlcə tərbiyə işiəri üzrə prorektor işləmiş, 2003-cü ildən isə tədris işləri üzrə prorektor vəzifəsində çalışmışdır. Bu illər ərzində "Yeni proqramla Azərbaycan dilindən sintaktik təhlil metodikasına verilən başlıca tələblər", "Şagirdlərdə söz birləşmələrinə dair bilik, bacarıq və vərdişlərin formalaşdırılması yolları", R.Hüseynovla birlikdə "İbtidai siniflər üzrə direktor və sinif rəhbəri", "Sintaksisdən başlanğıc kursda sintaktik təhlil" kimi kitab, monoqrafiya və elmi məqalələri nəşr olunmuşdur. Son dövrlərdə əsasən Şərur-Sədərək və Kəngərli rayonları üzrə yer adlarının tədqiqi ilə məşğul olan alimin bu sahə üzrə bir neçə kitabı işıq üzü görmüşdür.

Şərur rayonunun ərazisindəki Arazboyu yaşayış məskənlərinin adlarının mənşəyini araşdırmış və "Şərurun Arazboyu oykonimləri" kitabını nəşr etdirmişdir.

"Şərur düzünün toponimləri" kitabında Şərur düzünə daxil olan yaşayış məskənlərinin adlarının etimologiyası, leksik-semantik xüsusiyyətləri, yaranma yolları araşdırılmışdır.

A.İmanlının "Şərur və İğdır bölgələrinin yer adları" kitabında isə Şərur rayonunun dağlıq, dağətəyi, Kəngərli, Sədərək ərazilərinin, habelə Türkiyə Cümhuriyyətinin İğdır ilçəsinə daxil olan yer adlarının leksik-semantik xüsusiyyətləri, onların yaranma yolları, digər əlamətləri əksini tapmışdır. Onun "Tarixin izləri: yer adları", "Qədim türk yurdunun oykonimləri", "İdrakın bədii dərki", "Şəhidlər yurdunun kənd adları" kimi kitablar oxucular, eləcə də ali təhsil ocaqlarının tələbələri, bu sahədə elmi tədqiqatla məşğul olanlar üçün əhəmiyyətli mənbədir və bu mənbələrdən daimi istifadə olunur. Filologiya elmləri doktoru, professor Akif İmanlı 2021-ci ilin mart ayından Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində baş elmi işçi vəzifəsində çalışır. O, elmi sahədə də əzmlə çalışır. İnstitutun "Poetika.izm", "Filologiya və sənətşünaslıq", "Azərbaycan ədəbiyyatşünaslığı" kimi elmi jurnallarında apardığı tədqiqatların məhsulu olan yazıları dərc olunmuşdur.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat



İnstitutunun Elmi Şurasının 04 oktyabr 2022-ci il tarixli iclasının qərarı ilə (protokol № 6) çapa tövsiyə olunan "Bədii ədəbiyyatda surət-şəxs və məkan adlarının semantikası, üslubi mahiyyəti (Ə.Haqverdiyevin nəsr nümunəsindən)" kitabı nəşr olunmuş, ən yaxşı tədqiqat əsəri kimi qiymətləndirilmişdir.

Ömrünün müdrik çağında da Azərbaycan Yazıçılar Birliyinin üzvü kimi bədii ədəbiyyatda da fəaliyyətini davam etdirir, 2021-ci ildə "Necəsən qərənfil" adlı hekayələr kitabını oxucularına təqdim etmişdir.

Tanınmış dilçi-alim bu gün də dilimizin saflığı üçün var qüvvəsi ilə çalışır. O, Azərbaycan Respublikası Milli Məclisində fəaiyyət göstərən "Toponimika" komissiyasının üzvüdür. Bu sahədə öz fikir və məsləhətlərini bildirir.

Akif İmanlı bütün sahələrdə olduğu kimi, dostluqda da etibarlıdır. Onun haqqında deyilən ürək sözlərindən bir neçəsini oxuculara çatdırmaq istəyirəm:

**İsa HƏBİBBƏYLİ - akademik, AMEA-nın prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru:**

- 60 ilə yaxındır ki, Akif İmanlı ilə dostluq edirəm. Mən professor Akif İmanlını etibarlı dost, əsl pedaqoq, dilçi-alim, Mirzə Cəlil ruhlu yazıçı kimi tanıyıram. O, mənə həmişə əziz və doğmadır. Akif İmanlının əməyi dəfələrlə qiymətləndirilib. Ona Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı təqdim edilib. Ən yaxşı qiymət isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə verilən Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adıdır. Yaxşı işinə, səmərəli fəaliyyətinə görə AMEA-nın Fəxri Fərmanı ilə də təltif olunubdur.

**İsmayıl HACIYEV - akademik, AMEA-nın Naxçıvan bölməsinin sədri:**

- Akif İmanlı ilə uzun illər eyni ali məktəbdə müəllim işlədiyim kimi, eyni binada da qonşu yaşamışıq. Onda olan sadəlik qəlbimdə həmişə qürur hissi doğurubdur. Şəxsi dərdimi-sərimi, arzu və istəklərimi həmişə Akif müəllimlə birgə bölüşmüşəm, elmi mübahisələrimiz də az olmayıbdır.

**Sadıq VƏLİYEV - Naxçıvan Müəllimlər İnstitutunun sabiq rektoru, fizika-riyaziyyat elmləri doktoru:**

- Akif İmanlı prorektor kimi üzərinə düşən hər bir vəzifənin öhdəsindən layiqincə gəlir. Mən inanmıram ki, Akif müəllimdən hansısa tələbə, yaxud müəllim gileyli ola. Həmişə, hər işdə hamıya köməklik etmək istəyir və edir də.

... Professor Akif İmanlı dağ havasıyla pərvazlanıb ömrünün 75-ci anına qovuşur. Onun bu gözəl günü münasibətilə uzaq dağ kəndinin adamlarının da salamlarını çatdırıram. Alim, pedaqoq, ədəbiyyatşünas, dilçi, yazıçı, Əməkdar müəllim, respublikanın qabaqcıl təhsil işçisi, gözəl ata, mehriban baba və mənim ali məktəb müəllimim olan Akif İmanlının ömür yoluna həsr etdiyim şeirlə salamlayıram:

***Xoş xəbər çatıbdır bizim ellərə,***
***Təbiət görünür daha da canlı.***
***Sonalar baş vurur mavi göllərə -***
***Ad günün mübarək, Akif İmanlı!***

***Boyun bir çinarın boyu boydadı,***
***Səsində bulağın zümzüməsi var.***
***Sadəsən, həlimsən, təmiz soyadlı,***
***Qəlbində ən ülvi duyğular yaşar.***

***Əzəldən tutmusan ata yolunu,***
***Müəllim adını ömrün yaşadır.***
***Yüzlərlə tələbən söyləyir bunu -***
***Ən doğma adlarla adın qoşadı.***

***Elə vurulmusan ana dilinə***
***Dözməzsən sözlərə yad söz qarışa.***
***Əbədi bağlısan doğma elinə,***
***Qəlbin dönüklərlə çətin barışa.***

***...Mehriban atasan, sevimli baba,***
***Nəticə görmüsən könlün gümanlı.***
***Böyük bir şadlıqla deyir el-oba -***
***Ad günün mübarək, Akif İmanlı.***

**İbrahim YUSİFOĞLU**
**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,**
**Azərbaycan Respublikasının Qabaqcıl Təhsil işçisi, Prezident Təqaüdçüsü,**
**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı**

**(əvvəli 6-cı səhifədə)**

# DÜNYAŞÖHRƏTLİ VULKANOLOQ ALİM

Professor Ad.Əliyevin "Dünya palçıq vulkanlarının atlası"nın tərtib olunmasında da əməyi böyük olmuşdur. Atlas 2015-ci ildə İtaliyada ayrıca olaraq rus, azərbaycan, ingilis dillərində böyük tirajda nəşr olunub və palçıq vulkanizmi haqqında ən son məlumatları özündə əks etdirir.

Adil müəllim öz elmi fəaliyyətində gənc kadrların, geoloq və geokimyaçı mütəxəssislərin hazırlanmasına da xüsusi fikir verir. Təkcə son 15 ildə onun rəhbərliyi altında 2 elmlər doktoru və 8 elmlər namizədi hazırlanmışdır. Alimin həyatında elmi-təşkilatçılıq və ictimai fəaliyyət də xüsusi yer tutur. 1978-1983-cü illərdə Geologiya İnstitutunun doktorluq müdafiəsi üzrə İxtisaslaşdırılmış Şuranın elmi katibi olmuşdur. O, beynəxalq elmi forumların, konfransların, müşavirələrin, simpoziumların təşkili və keçirilməsində yaxından kömək etmişdir. Məsələn, 1984-cü ildə Moskvada keçirilən Beynəxalq Geologiya Konqresinin 27-ci sessiyasında, 1986-cı ildə Bakıda keçirilən IV ikitərəfli (SSRİ-ADR) geoloji elmlərin tarixi üzrə simpoziumda respublika təşkilat komitəsinin elmi katibi olmuşdur. Uzun illərdir ki, Ad.Əliyev "Geologiya İnstitutunun Əsərlər" jurnalının baş redaktor müavini, AMEA Geologiya İnstitutunun Elmi Şurasının üzvü, "Neft və qaz geologiyası və geokimyası" seksiyasının rəhbəri, "Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı" elmi seminarının sədri olmuşdur. Azərbaycan Jurnalistlər Birliyinin üzvü kimi o, 60 ildən artıqdır ki, geologiya elmini təbliğ edir.

Adil müəllimin elmi fəaliyyətində Beynəlxalq əməkdaşlıq xüsusi yer tutur. O Rusiya, Ukrayna, Fransa alimləri ilə palçıq vulkanları ilə bağlı tədqiqatlar aparmışdır. Ötən əsrin 90-cı illərindən başlayaraq Ad.A.Əliyev AMEA Geologiya və Geofizika İnstitutunun alimləri ilə Böyük Britaniya, Norveç, ABŞ və digər neft şirkətləri ilə, o cümlədən British Petroleum və Statoil (1992-1993), Geochemgroup (1994), AMOCO və Exxon (1998), British Petroleum (2001) kimi dünyanın nəhəng və aparıcı neft şirkətləri ilə birgə tədqiqatlar həyata keçirmişdir.

Prof. Ad.A.Əliyevin uzunmüddətli elmi, elmi-təşkilatı və ictimai fəaliyyəti mükafat və fəxri adlarla qiymətləndirilmişdir. Belə ki, 2005-ci ildə "Azərbaycan Respublikasının əməkdar elm xadimi" fəxri adına və 2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür. 2010-cu ildə Azərbaycan Dövlət Mükafatı Laureatı, 2013-cü ildə Azərbaycan Respublikası "Avropa nəşr mətbuat evi"nin qızıl medalı ilə təltif edilmişdir. 2018-ci ildə AMEA Geologiya və Geofizika İnstitutunun 80 illik yubileyi ilə əlaqədar "Şöhrət" ordeni ilə təltif olunmuşdur. "Vışka" qəzeti ilə yaradıcılıq əməkdaşlığının 50 illiyi ilə əlaqədar olaraq o, 2021 -ci ildə redaksiya heyətinin "Brilyant partnyoru" fəxri statusuna layiq görülmüşdür.

Bu yaxınlarda ?Adil müəllim rəhbərlik etdiyi şöbənin əməkdaşları Orxan Abbasov və Elnur Baloğlanovla birlikdə palçıq vulkanları qazlarının mənşəyinə həsr etdikləri elmi məqalə Amerikanın "Geologiya" jurnalında ?çap olunmuşdur.

ABŞ Geoloqlar Cəmiyyətinin nüfuzlu "Geologiya" jurnalı uzun illərdir ki, "Web of Sciences" bazasında indeksləşən gelogiya istiqamətli jurnallar arasında birinci yerdə qərarlaşır.

Hər bir kamil insanın həyatının məqsədi, qayəsi bütün qabiliyyətini hərtərəfli inkişaf etdirmək, tarixə, cəmiyyətin tərəqqisinə, mədəniyyətinə, həyatının mənasına şəxsi töhfə verməkdir. Ailmin əsas xüsusiyyətləri tədqiqat obyektinə Maraq, Fəallıq, Təşəbbüskarlıq, Xırda hesab olunan şeylərə də diqqət, Səbəb-nəticə əlaqələrini anlamaq, Fədakarlıq, Sual vermək və cavabları düzgün şərh etmək qabiliyyəti, Ünsiyyət qurmaq və Sosial əlaqələri qorumaq bacarığıdır.

Adil Əliyevin gördüyü işləri nəzərdən keçirəndə adam heyrətlənməyə bilmir; 400-ə qədər elmi əsər və 25 kitab yazmaq, uzun illər Azərbaycanda geologiya elminin tarixi ilə məşğul olmaq, keçmiş SSRİ-nin və Azərbaycanın ən sanballı qəzet və jurnallarında 250-dən çox yazı çap etdirmək, radio-televiziya verlişlərində tez-tez təbiət, yeraltı sərvətlər və palçıq vulkanları ilə bağlı verilişlərdə işrirak etmək, Azərbaycanın bir sıra palçıq vulkanlarının Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri kimi qəbul olunmasına nail olmaq, palçıq vulkanları barədə 2 seriyalı filmin çəkilməsinin əsas təşəbbüskarlarından və müəllifi olmaq və s...

Qeyd olunanlardan bəlli olur ki, Ad.Əliyev böyük iş qabiliyyəti, güclü iradəsi, nəhəng yaradıcılıq əzmi olan insandır. O, elmi təfəkkürün gücünə inanan, yalnız xəyalında tutduğu ilə kifayətlənməyən, həm də cəsarətlə irəliyə hərəkət edə bilən prinsipial optimistlərdəndir. Adil Abas Əli oğlu Əliyev hələ gənc yaşlarında həyatını böyük elmlə bağlamış və həmin bağlılıq bu gün də şərəflə davam edir. Düşünürük ki, o böyük alim adını istedadı, zəhmətkeşliyi, dözümlülüyü, əzmkarlığı və prinsipallığı sayəsində qazanmışdır.

Bu gün o, Azərbaycan geologiya elminin gələcək inkişafı naminə daha böyük uğurlara imza atmaq üçün güc, enerji və həvəslə doludur.

Sonda Adil müəllimə məşhur Amerika yazıçısı və filosofu Jözef Merfinin sözləri ilə arzularımızı bildiririk:

"İnsanda səbir, xeyirxahlıq, sevgi, kiməsə yardım etməyə hazır olmaq, sevinc, xoşbəxtlik, müdriklik və anlaşma hissləri heç zaman köhnəlməyən keyfiyyətlərdir. Kim öz həyatı boyu onları daha da təkmilləşdirirsə və nümayiş etdirirsə o, ruhən və cismən gənc olaraq qalacaqdır.

**-Çox yaş həyatın qürub çağı deyil, hikmətin çiçəklənmə dövrüdür.**

**-Öz illərinizə hörmətlə yanaşın. Çünki onlar həyatınızın sonsuz yolunda sizi daha yüksəklərə qalxmağa sövq edir.**

**- Tanrı Sizə həyat verdi. Həyat daim yeniləşəndir; əbədidir, sarsılmazdır və dünyamızın gerçəkliyidir. Siz həmişə və əbədi yaşayırsınız, çünki həyatınız sevdiyiniz Tanrının öhtəsindədir.**

**-Ahıl insanın yaşı ilahi həqiqətləri ən yüksək səviyyədə dərk etməyin dövrü kimi müəyyən edilə bilər. Yaşlılığın sevinci gəncliyin sevincindən çoxdur. Həm də zehni prosesdə mənəvi rəqabət və qələbə ruhu da iştirak edir. Təbiət hər kəsə fiziki inkişafdan daha çox mənəvi inkişafa üstünlük verir. Ruh İlahi gerçəkliklə müzakirəyə girmək azadlığına malikdir.**

**-Sizin yaşınız fikirlərinizdə və düşüncələrinizdə olduğu kimidir. Siz gəncsiniz, güclüsünüz və faydalısınız - təbii ki, əgər sizin düşüncəniz belə qəbul edirsə.**

**-Həmişə irəli, həmişə gələcəyə baxın, çünki Həyat sonsuzdur.**

**-Cəmiyyətin əsiri yox, yaradıcısı olun. Qoy sizin istedadınız və bacarığınız daim parlasın.**

**-Siz cəmiyyətə lazımsınız. Bir çox filosoflar, şairlər, rəssamlar, alimlər və başqa görkəmli insanlar ən yüksək nailiyyətlərini 80 yaşından sonra əldə ediblər.**

**-Yaşlılığın meyvələri sevgi, sevinc, sülh, səbir, həlimlik, yaxşılıq, iman, dözüm və insafdır.**

**-Siz bitib-tükənməyən sonsuz bir həyatın oğlusunuz. Siz əbədiyyət övladısınız. Siz özünüz bu yaranışın möcüzəsisiniz."**

**Ağamahmud Səmədov**
**"Yer və insan" jurnalının redaktoru**

*Eminquey*

# Xoşqədəm xanımın iti itib

**Bir qız Xoşqədəmin verilişində "mikrıfın" demişdi, bir mağaza qızı gətirib ki, sən artıq fenomensən, gəl, bizim mağazadakı paltarları təriflə, axırda da bir dənə "mikrıfın" de, al bu da filan qədər manat hörmətin.**

**Bir başqa qız uşaqlarını sığınacağa verib özü də işləmək eşqinə düşüb. Adamı paylaşmayan tiktok səhifəsi yoxdur. Bu da gedib hansısa restoranda kabab yeyib həmin restoranı reklam edir. O, bu, digərləri - arta-arta gedir.**

**Məşhurluq yeni dövrün epidemiyasına çevrilib. Ona görə ki, kökündə düşüklükdən, cahillikdən başqa bir şey dayanmayan köpük kimi qəfil və puç məşhurluğa tələbat var. Pul qazandırır, yaxşı gün-güzəran bəxş edir. Başına fırfıra kimi fırlanırlar. Adını da çörək qazanmaq qoyurlar.**

**Çörəyin bu qədər hörmətdən düşdüyü zaman olmayıb. Vallah olmayıb. İnsanların dərinliyində yox, dayazlığında boğulmaq dəhşətlidir.**

**Bu arada, Xoşqədəm xanım öz verilişində elan verib ki, itim yoxa çıxıb, görən olsa, xəbər versin. Çox kədərləndim. Ümid edirəm ki, Xoşqədəm xanımın itini tapan adama verilişin komandasınsa yaxşı bir iş verərlər.**

## *"TEATR, ZAMAN VƏ MƏKAN"*




**"Teatr, zaman və məkan" teatrşünas-tənqidçi Anar Ərtoğrul Bürcəliyevin yeni nəşr olunmuş kitabı belə adlanır.**

Monoqrafiya Gəncə Dövlət Dram Teatrının aktyoru, "Qızıl Dərviş" mükafatı laureti, Respublikanın Əməkdar artisti Ramiz Vəliyevin anadan olmasının 65, səhnə fəaliyyətinin 50 illiyi ərəfəsində onun həyat və yaradıcılığına həsr olunmuşdur.

1974-cü ildən Gəncə Dövlət Dram Teatrında yaradıcı aktyor kimi fəaliyyətə başlayan Ramiz Vəliyev 1981-1985-ci illərdə M.A.Əliyev adına İncəsənət Universitetinin Dram və kino aktyoru şöbəsini, Şəfiqə Məmmədovanın tam kursunu fərqlənmə diplomu ilə bitirmişdir.

İstedadlı aktyorun bütün səhnə həyatı C.C. Cabbarlı adına Gəncə Dövlət Dram və Gəncə Dövlət Nizami Poeziya teatrı ilə bağlı olmuşdur.

Bəhram şah"da Bəhram şah, "Şairin məhəbbəti"ndə Məhəmməd, "Gül və Zəhərdə" II loğman, "Qızıl zəncirlər"də Usta, "Məhəbbətin qənimi"ndə Aqil, "Memarın məhəbbəti" - Əcəmi, "Yeddi məhbusun şikayəti" - Çoban, "Dərd yükü" - aparıcı və sair rollar öz ifa səviyyəsi ilə teatr tariximizdə özünəməxsus sanballı yer tutur. Akttyor hazırda Volterin "Sadiq və ya Tale" povestinin motivləri əsasında Fərman Rzayevin səhnələşdirdiyi "Əlmanə" tamaşasında Səddaq obrazı üzərində işləyir.

Kitabda aktyorun çoxillik səhnə fəaliyyəti, canlandırdığı rəngarəng obrazlar maraqlı təhlil olunmaqla yanaşı, həyatı, sənətə baxışı geniş şəkildə işıqlandırılmışdır.

Monoqrafiyada toplanan materiallar teatrşünasların eləcə də sənətşünasların ilkin məlumat və araşdırmaları üçün bir mənbə hesab edilə bilər. Kitab aktyor və rejissorlarımızın sənət yollarının öyrənilməsi baxımından əhəmiyyətlidir.

Respublikanın əməkdar artisti fəxri adına layiq görülmüş Ramiz Vəliyev "Qızıl Dərviş" mükafatı laureatıdır, "Tərəqqi" medalı ilə təltif edilmişdir.

"STAR çap evi"ndə nəşr olunan kitabın elmi redaktoru fəlsəfə doktoru İmran Axundov, redaktorları isə Sailə Məhərrəmqızı və Fuad Cavadzadədir.

Kitabın tərtibatı Zibər İsayevaya və Ariz Babayevə məxsusdur.

**Vaqif Tanrıverdiyev**

## *Səkinə İsmayılova: "Ömrümün 23 ili tədrislə bağlıdır..."*



**Xəbər verdiyimiz kimi Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalayıb.**

"Azərbaycan Respublikası Prezidentinin fəxri tiplomu" ilə təltif olunanlar arasında Xalq artisti Səkinə İsmayılova da var. Muğam ustadı Adalet.az-a açıqlamasında ölkə başçısına minnətdarlıq edib:

"Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində 2000-ci ildə Muğam kafedrası yaran gündən işləməyə başlamışam. Artıq 23 ildir ki, Muğam kafedrasının professoruyam. Bizim orda dünyalarını dəyişən Ağaxan Abdullayev, Tələt Qasımov kimi sənətkarlarımız da olub. İndi də kafedramızda çox möhtəşəm, dəyərli sənətkarlar və eləcə də mən çalışıram.

Əlbəttə ki, Cənab Prezidentə təşəkkür edirəm, bu bizim əməyimizə verilən qiymətdir. Otuz il Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında zəhmətim olub və ondan sonrakı ömrümün 23 ili isə tədrislə bağlıdır. Çox sevinirəm və təşəkkür edirəm ki, Cənab Prezident bu zəhmətimizi dəyərləndirib".

**Vasif Əlihüseyn**

## *Aysun: "Hər kişinin işi deyil..."*

**Aysun İsmayılova canlı efirdə üzr istədi. Adalet.az xəbər verir ki, "Mən anamla rəfiqə kimiyəm. Amma bilirəm ki, hərdən onu incidirəm, hərdən xətrinə dəyirəm. Anama efir vasitəsiylə səslənirəm: Burdn sədən üzr istəyirəm. Anamın adı gələndə kövrəlirəm. Ananın yerini heç kim, heç nə əvəz etmir. Cavanam, mənim də səhvim olur. Nə yaxşı kimi mənim Anam Rəqsanə İsmayılovadır."**

Daha sonra aparının "toyunda atanı görmək istəyirsənmi?" sualına belə cavab verib: "Qız övladı daha çox ataya bağlı olur. Mən o hissi heç yaşamışsm. Hər zaman anam da, atam da elə anam olub. Atamın qayıtmağını heç istəmərəm. Çünki Fazil müəllim mənə bioloji atadan üstün olub.Mən onun haqqını itirə bilmərəm. O, hər zaman anamdan çox narahat olur məndən ötrü. Mən efirə çıxanda zəng edir ki,baxıram. Qızım, narahat olma nəsə olsa, mən burdayam. Bilirəm ki, arxa-dayağım var. Bizi öz övadından heç vaxt seçməyib. Ona görə mən onun atalıq borcunu heç vaxt itirə bilmərəm. Mən atanın nə olduğunu Fazil müəllimdə görmüşəm. Hər kişinin işi deyil ki, başqasının övladına öz soyadını vesin."

**Əntiqə**

# Alkoqolizm asılılığı: bəşər nəslinin ən qəddar və yırtıcı düşməni



*Zakir Bayramlı,*
*Şair-publisist, AYB və AJB-nin Birliklərinin üzvü, təhsil işçisi*

**Alkoqolizm - spirtli içkilərin vaxtaşırı qəbul edilməsi nəticəsində insanda psixi və fiziki asılılığın əmələ gəlməsi ilə bərabər xroniki intoksikasiya yaradan bir xəstəlik hesab olunur. Alkoqolizm özü ilə birlikdə insanlara yaxşı heç nə gətirmir.**

Mütəxəssislər sübuta yetirmişlər ki, spirtli içkilərdən asılılıq və onlara həddindən artıq aludəçilik insanlarda 200-dən çox xəstəliyin yaranmasına səbəb olur.

Bunlara nevroloji və psixi tutulmalar, baş-beynin müxtəlif xəstəlikləri, orqanizmdə xərçəng xəstəliyi riskinin artması, koronar damar xəstəliyi, ürək əzələlərinin disrofik piy degenerasiyası, stenokardiya, miokard infaktı, yaddaş çatıçmazlığı, sinir sisteminin pozulması, qastrit, mədə xorası, qaraciyər serrozu, hepatit ağırlaşmaları, göz ətrafında şişkinlik, mədəaltı vəzinin zədələnməsi, yuxunun pozulması, şəkərli diabet, yerişdə, danışıqda, şəxsi davranış və hərəkətlərdə müxtəlif mənfi dəyişiliklərin baş verməsi və s. aid etmək olar.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) xəstələrə alkoqolizm diaqnozunu qoymaqdan ötrü 6 meyar işləyib hazırlamışdır. Bu meyarın birincisi və ya ən əsası insanın içki qəbuluna nəzarət edə bilməməsidir. İkinci meyar içki istəyidir, yəni insan hər gün, özü də daha yüksək dozada spirtli içki içmək arzusunda olur.

O, Ailədəki, məktəbdəki, işdəki və cəmiyyətdəki qayda-qanunları tezliklə unudur, problemləri isə qulaqardına vurur.

Üçüncü meyar orqanizmin spirtli işkinin qəbuluna müvəqqəti olaraq tab gətirməsi, yəni dözməsidir. İzah olunur ki, ilk vaxtlarda bu hal, yəni orqanizm normadan artıq spirtli içkini qəbul etməyə və həzm etməyə çalışsa da, bir müddətdən sonra onun bu məsələni həll etməyə imkanı tükənir, gücü çatmır. Əsas orqanların iş fəaliyyəti zəifləyir, tədricən isə pozulmağa başlayır.

Dördüncü meyara həkimlər özləri abstinent sindromu adı veriblər. Bu əlamət onunla fərqlənir ki, spirtli içkini qəbul edəndən bir gün sonra insan özünü əzgin, yorulmuş və kefsiz kimi hiss edir. Başı dumanlanır, əlləri əsir. Yenidən ürəyindən spirtli içki qəbul etmək istəyi keçir. Elə bu vaxtlardan da orqanizmdə alkoqol zəhərlənmələri baş qaldırır. Başgicəllənmə və başağrısı ona rahatlıq vermir. Səhhətində çoxlu problemlər yaranmağa başlayır.İçki içəndən bir gün sonra yenə özünü pis hiss edir. Vəziyyətini yaxşılaşdırmaqdan ötrü təzədən alkoqol qəbul etməyə çalışır və təkrar-təkrar yenə də onu qəbul etməyə müvəffəq olur. Bax, hər gün ardıcıl olaraq artan yüksək doza ilə spirtli içki qəbul edən belə insanlar nəticədə alkoqolizm xəstəsinə çevirilirlər.

Beşinci meyarda hər dəfə yüksək dozada spirtli içki qəbul edilməsinə artıq orqanizm daha dözə bilmir, o tədricən zəifləməyə başlayır.

Altıncı, sonuncu meyar spirtli içkinin hər gün qəbulu onun insan həyatında əsas həlledici amilə çevirilməsidir. Qalan bütün məsələlər: ailə, məktəb və ya iş, dostlar, qohumlar, eləcə də mədəni, məişət və sosial məsələlər isə arxa plana keçirilir.

2019-cu ildə dünyada ən çox spirtli içki qəbul edən ölkələrin adları məlum olub. I-III yerləri İtaliya, Avstriya və Fransa , 7-ci yeri isə qonşu Rusiya tutub. Dünyada ən az içki qəbul edən ölkələr arasında Türkiyə və İndoneziya da var.

ÜST -nın dünyanın 30 ölkəsində apardığı araşdırmaya görə törədilən cinayət əməllərinin 85 faizinin, yol-nəqliyyat hadisələrinin 61 faizinin, cinsi təcavüzlərin 80 faizinin, yanğın hadisələrinin 16 faizinin spirtli içki aludəçiləri tərəfindən törədildiyi sübuta yetirilib. ÜST-nın apardığı araşdırmalar və təhlillər nəticəsində məlum olmuşdur ki, alkoqalizmə düçar olmuş insanlar arasında normal səviyyəli insanlara nisbətən ailədə hər şeyin 16 dəfə artıq bərbad edildiyi, 30 dəfə artıq zəhərlənmə hallarının törədildiyi, 58 dəfə artıq özünüintihar hadisəsinin baş verdiyi məlum olmuşdur. Bundan əlavə araşdırılan ölkələrdəki ruhi xəstələrin 40-50 faizini, həbsdə olanların isə 50 faizini ifrat dərəcəli alkoqol meyilli insanlar təşkil edir. Son illərdə qadın alkoqolizmi xeyli dərəcədə yüksəlib. ÜST-nın hesablamalarına və apardığı müqayisələrə əsasən hamilə qadınlar arasında alkoqolizm aludəçilərinin aqibəti daha dəhşətli formada olur. Onların dünyaya gətirdikləri körpələr haqqında hesabat məlumatlarını dinlədikdə insanın ürəyi ağrıyır.

Amerika həkimləri spirtli içkinin təsirinin yaxşı və ya pis nəticəsini təcrübədə yoxlayıb sübut etmək məqsədilə 1909 nəfər xəstə üzərində müşahidə aparmışlar.

Nəticədə məlum olmuşdur ki, spirtli içki hətta az miqdarda içildikdə belə öz mənfi təsirini göstərir.

Həkimlər təcrübə və təhlillər sayəsində içki qəbulu nəticəsində beyində kiçilmə hadisəsinin baş verdiyini təcrübədə sübuta yetirmişlər.

Spirtli içkilərin insana zərəri haqqında dahilər, mütəfəkkirlər, şairlər məşhur təbiblər, pedaqoq- alimlər, psixoloqlar və s. onun artıq ölçüdə qəbulunun insanı mədəniyyətdən vəhşiliyə doğru apardığını söyləmişlər. Bu məqaləmizdə həmin aforizmlərdən və atalar sözlərindən bir neçə nümunə göstərmək yerinə düşər.

Məşhur Azərbaycan şairi Əfzələddin Xaqani spirtli içki haqqında belə bir ifadə işlədib: "İçkinin başlanğıcı günah,ortası sərxoşluq, sonu isə fəlakətdir". Azərbaycan dramaturqu və maarifçisi Mirzə Fətəli Axundov isə sərxoşluğa belə qiymət verib: "Sərxoşluq əxlaqi cəhətdən ən eybəcər əlamətdir". Bir filosofdan soruşurlar ki, içkiyə niyə belə nifrət edirsən?

O, cavabında: "Çünki hətta kralları diz çökdürən igidlər də içkiyə məğlub olublar"-demişdir. Bir məşhur atalar sözü neçə illər keçsə də bu gün də öz dəyərini qoruyub saxlayıb:

"Sərxoş olub kişilikdən dəm vuranın qeyrəti araq şüşəsində olar"və s. Alkoqolizm sərxoş vəziyyətində olan nadan və nəfsinə sahib çıxa bilməyən insanların başına min oyun açır. Onları həm gülməli, həm ağlamalı, həm də gülünc və acınacaqlı vəziyyətə salır.

Bəzilərini də içkinin təsiri altında cinayət törətməyə, oğurluq etməyə, zorakılığa, alçaq və qeyri səmimi hərəkətlər: əxlaqsız, insanlıqdan kənar, qəddarlığı ilə seçilən cinayət hadisələri törətməyə göndərir. Həkimlər həyəcan təbili çalaraq alkoqolizm yolunu yeni tutmuş xəstələrə tezliklə müalicə olunmalarını tövsiyə edirlər. Belə xəstələr düz yoluna qayıdaraq vaxtında müalicə olunmasalar onların neçə-neçə digər xəstəliklərə tutulacağı barədə bədbin proqnozlar verilir.

Alkoqolizm müalicə olunur. Lakin gərək müalicə alan xəstə birinci bu işə tam istək və razılıqla yanaşsın. İkinci spirtli içki qəbulunu tamamilə dayandırsın. Həkimlərin dərmanla müalicəsi, psixoloqların səyləri nəticəsində əvvəlcə xəstədə içkiyə nifrət hissi yaradılır.

Xəstələr spirtli içkilərin insana vurduğu ziyan barədə geniş məlumatlandırılır.

**Sərxoşluq uzun illərdən bəri ən vacib problemə- bəşəriyyətin tam həllini tapa bilmədiyi ictimai və sosial bəlaya çevirilib. Dünyanı silkələyən bu bəla insanların ağlını başdan almaqla onları dibi görünməyən uçurumlu ölüm dərəsinə yuvarlaqlandırır. Dünya birliyi, beynəlxalq nüfuzlu təşkilatlar isə aludəçiliyin ildən-ilə artmasının qarşısını hələ tam ala bilməyib. Məhz ona görə də alkoqolizmə qarşı təkcə həkimlər , müəllimlər, hüquqşünaslar və psixoloqlar deyil, bütün cəmiyyət, bəşəriyyətin tərəqipərvər qüvvələri hamılıqla mübarizə aparmağa borcludurlar.**

# Türkiyənin 5 yeni qeyri-maddi mədəni irs elementi UNESCO-nun siyahılarına daxil edildi

**Türkiyənin beş yeni dəyəri UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.**

Bu barədə 2023-cü il dekabrın 4-dən 9-dək Botsvana Respublikasının Kasane şəhərində keçirilən Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitənin 18-ci sessiyasında qərar elan edilib. Bu yazı ilə ölkənin UNESCO-nun Siyahılarına daxil edilmiş mədəniyyət elementlərinin sayı 30-a yüksəldi. Beləliklə, Türkiyə ən çox mədəni dəyərlərə sahib olan ölkələr siyahısında ikinci yerə yüksəldi.

Komitənin iclası zamanı "Ənənəvi zeytunçuluq" UNESCO-nun "Təcili Qorunmağa Ehtiyacı Olan" Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Bununla yanaşı "Meyin sənətkarlığı və ifaçılıq sənəti", "Sədəf anasının sənətkarlığı", "İftar və onun sosial-mədəni ənənələri", "İşıqlandırma sənəti" UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

### *Əsrlik ənənə: Zeytun yetişdirilməsi*

Dözümlü və təvazökar zeytun ağacı, əsasən onun becərilməsi ətrafında formalaşan mədəniyyəti araşdırdıqda Türkiyənin əhəmiyyətli dəyərlərindən biridir. Türkiyədə ənənəvi zeytun yetişdirilməsi dedikdə "delice" yabanı zeytun ağacının əkilməsi, budaması, zeytunun yığımı, süfrə zeytunlarının konservləşdirilməsi və turşulanması, zeytun yağının hazırlanması kimi emal prossesi haqqında əsrlər boyu ötürülən ənənəvi bilik, üsul və təcrübələr nəzərdə tutulur. O, sosial və mədəni kimliyin uzun illər davam etdirilməsində də mühüm rol oynayır. Buna səbəb onun daşıyıcılarının, xüsusən də kənd yerlərində hələ də ənənəvi üsullarla zeytun və zeytun yağı istehsalını davam etdirmələri və bu ənənənin əsrlər boyu dəyişməməsidir.

### *Musiqi ənənəsinin davamlılığı*

Mey (Balaban) Türkiyədə əsrlər boyu ifa olunan, xalq musiqisində özünəməxsus səsi və mədəni əhəmiyyəti ilə tanınan, tarix boyu mədəni məclislərin, toyların və şənliklərin ayrılmaz hissəsi olan nəfəsli çalğı alətidir. Mey həm də aşıq ənənəsinin ayrılmaz hissəsidir. Üç fərqli ənənəvi ölçüyə malikdir: "ana" (ən böyük), orta (orta) və cura (ən kiçik). Adi ölçülərdən başqa, bu gün müxtəlif mey formalarına müxtəlif melodiyalarda rast gəlmək mümkündür. "Mey/Balaban sənətkarlığı və ifaçılıq sənəti" Türkiyə və Azərbaycan adından UNESCO-nun Bəşəriyyətin



Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

### *Mirvari anasının mürəkkəb sənəti*

Türk dilində "sedef kakma" kimi tanınan bu sənət zərifliyi və mürəkkəb gözəlliyi ilə diqqət çəkən nəfis bir incəsənət növüdür. Bu köhnə texnika, taxta konstruksiyalar üzərində müxtəlif formalarda açılmış yuvalara parlaq, işıltılı mirvarinin zərif şəkildə yerləşdirilməsini ifadə edir. BU ənənəvi sənətkarlıq texnikası daxili memarlıq elementlərində, çubuqlar, güzgülər, çərçivələr, şamdanlar, daraqlar, nərd dəstləri, stol, stul, kreslo və suvenir kimi gündəlik əşyalara tətbiq olunur. Sədəf kakması sənətkarlığı, parıldayan heyrətamiz dizaynlar yaratmaq, türk mədəniyyətində dərin kök salan zəngin bir tarixə malikdir və Anadolu xalqının əsrlər boyu sənətkarlığını və zövqünü əks etdirməyə davam edir. "Sədəf anasının sənətkarlığı" Türkiyə və Azərbaycan adından UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

### *Heyrətamiz zərafət: Zamansız İşıqlandırma Sənəti*

Türkiyə türkcəsində "Tezhip" adlanan illüminasiya da Türkiyədə geniş yayılmış bəzək sənətidir.

Ümumi olaraq "qızılla bəzək" mənasını verən bu sənət əsrlər boyu əlyazmaların, xəttatlıq mətnlərinin və miniatürlərin qızıl zər ilə örtülməsidir. Qızıl boya və ya yarpaq, sənət əsərinin cazibəsini artıraraq işığı tutan və əks etdirən bir parıltı əlavə edir. Elementin ənənəvi və müasir şərhlərini bu gün əlyazmalarda, miniatürlərdə, xəttatlıqda görmək mümkündür. Bu incəsənət növü memarlıq və məişət əşyalarının bəzədilməsi üçün də istifadə olunur. "İşıqlandırma sənəti" Azərbaycan, İran, Tacikistan, Türkiyə və Özbəkistan adından UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Əsrlər boyu nəsildən-nəslə ötürülən sənət növü mədəni kimliyin və təqdim edən dövlətlər daxilində daha geniş icmaların kollektiv yaddaşının tərkib hissəsidir.

### *Sosial-Mədəni Ənənə: İftar*

**Orucun tutulduğu müqəddəs Ramazan ayına xas olan bir çox adət-ənənələr əsrlər boyu nəsildən-nəslə ötürülür. Mübarək Ramazan ayında qurulan iftar süfrələri çox böyük sosial-mədəni əhəmiyyətə malik ənənələrdən biridir. Ailələri, dostları, qonşuları və qohumları birləşdirən iftar süfrəsi sədaqət, minnətdarlıq, səxavət və qonaqpərvərliyi təcəssüm etdirir. "İftar və onun sosial-mədəni ənənələri" Türkiyə, Azərbaycan, Özbəkistan və İran adından UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.**




**Azərbaycan Yazıçılar Birliyinin Qazax filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsalın "Ayrılmaz yollar" adlı yeni kitabı işıq üzü görmüşdür. Kitabda şairin müxtəlif ədəbi nəsillərə aid yazdığı məqalələr, açıq məktublar, xatirələr və bir çox kitablara ön sözləri toplanmışdır. Kitabda haqlarında söhbət açılanların hər biri ayrılmaz Yolun yolçularıdırlar, bir Ocağın övladlarıdırlar, bir qom Bənövşədirlər, bir Şamın işığında yaşayıb, yazıb, yaratmışlar!**

**Kitabın 16.12.2023-cü il tarixdə saat 11.00-da "Atatürk" Mərkəzində təqdimatı keçiriləcəkdir.**

## *Ceyhun Rzayev: "Ona qoşulub mən də ağladım"*




**İctimati TV-nin canlı efirində qonaq olan futbol üzrə qadınlardan ibarət Azərbaycan millisinin kapitanı Sevinc Cəfərzadənin çıxışı maraqla qarşılanıb.**

Adalet.az xəbər verir ki, futbol şərhçisi Ceyhun Rzayev onunla bağlı fikirlərini bölüşüb.

"Futbol üzrə qadınlardan ibarət Azərbaycan millisinin kapitanı Sevinc Cəfərzadə İTV-nin canlı efirində ağladı. Mən də ona qoşulub ağladım. Lənkəranın Veravul kəndində böyüyən bir xanımın uğur hekayəsini dinlədim. Futbol oynadığı üçün bir sıra maneələrlə qarşılaşıb, ailə üzvləri el qınağına tuş gəlib. "6 ildir Rusiyada oynayıram. 6 il əvvəl rusca bir söz də bilmirdim. Artıq ingilis dilini də öyrənirəm", - söylədi Sevinc. Efirdə necə sərbəst danışırdı, özünə əminlik vardı. Futbolun sayəsində Avropanı dolaşıb, dünyagörüşü formalaşıb. Axırda söylədi ki, sosial şəbəkədə bir çox qız mənə yazır ki, biz səni özünüzə nümunə seçmişik".

## *Dünyanın ən bezdirici turistik şəhərləri hansılardır?*



**Dünyanın ən çox ziyarət edilən, turistlərin axın etdiyi, eyni zamanda şikayət hədəfi olan yerlər sırasındadır. Xüsusilə uzun giriş növbələri ilə ziyarətçilərini bezdirən dünyanın ən çox şikayət edilən turistik yerləri belə sıralanıb.**

Eyfel qülləsi, Sagrada Familia, Empire Stereo Building... Məşhur binalar bu dəfə uzun növbələrdən şikayətləri ilə diqqət çəkir.

Turistlərin hədəf aldığı tikililər siyahısında birinci yerdə Eyfel qülləsi, ikinci yerdə London Eye və Kolizey gəlir.

Siyahı hər bir ölkədə "Səyahətçilərin Sevimli" attraksionları üçün 10,74 milyon Tripadvisor rəyinin təhlili və "uzun quyruq" ifadəsini ehtiva edən şərhlərin hesablanması ilə yaradılıb.

Eyfel qülləsi bu barədə şərhlərdə 4799 uzun quyruqlu tənqidlə siyahının lideri olub. Əslində, Tripadvisor-da bir şərh belə yazılmışdı: "Eyfel qülləsi üçün beş ulduz. Böyük izdiham və uzun növbə üçün bir ulduz. Hazır olun." Digəri isə yazıb: "Uzun növbələrdən qaçmaq üçün biletlərinizi əvvəlcədən onlayn bron edin. Biz sürətli giriş təklif edən bələdçili tur seçdik, mən bunu mütləq tövsiyə edərdim".

London Eye ilə bağlı şərhlərdə 4756 növbə şikayəti olub. Romadakı Kolizey ilə bağlı şərhlərdə uzun növbə ilə bağlı 4262 şərh də var.

Siyahının qalan hissəsi aşağıdakı kimidir:

**1. Eyfel qülləsi**
**2. London Eye**
**3-cü Kolizey**
**4 Legoland - Windsor Resort**
**5. Sagrada Familia**
**6. Empire State**
**7. Alton Towers Resort**
**8. Siam Parl**
**9. Disneyland Paris**
**10. Universal Studios (Sinqapur)**
**11. London Qülləsi**
**12. Viktoriya zirvəsi**
**13. Luvr muzeyi**
**14. Burj Xəlifə**
**15. Torp Parkı**
**16. Madam Tüsso (London)**
**17. Chessington World of Adventures Resort**
**18. Van Qoq Muzeyi (Amsterdam)**
**19. Qayanın zirvəsi**
**20. Warner Bros. Studiya Turu (Harri Potter, London)**

## *Aktyordan teatrdan danışdı: "Həll oğurlayıb özünküləşdirdiyin ən yaxşı formadır"*

**"Teatrda əsas şey, hər şey həlldən ibarətdir. Tamaşa nədir? Xırda detallara qədər həll olunmuş bütöv səhnə əsəri. Səhnəbəsəhnə həll olunmalıdır. Geyim həll olunmalıdır. Qrim (personajların xarici görünüşü) həll olunmalıdır! Personajların danışığı həll olunmalıdır. Tamaşaçının zala girişi və zalda əyləşməsi həll olunmalıdır. Tamaşanın bitməsi və tamaşaçının teatrdan çıxışı həll olunmalıdır. Və sair və ilaxır".**



Adalet.az xəbər verir ki, aktyor, rejissor Abdulla Elşadlı bu sözləri sosial şəbəkə hesabında yazıb. "Bunlar isə hamısı tamaşanın ümumi stilistikasına tabe olmalı və vahid bir dünya səbəb-nəticə qanunlarına (hansının ki rejissorlar və rəssamlar uydurur, düşünür və qururlar) tabe olmalıdır. Real həyatdan tamaşada yalnız münasibətlər və faktların insani qiymətləndirilmə qanunları qalmalıdır. Hərdən isə daha dərinə gedib bu qanunları da pozub sırf teatr dili ilə danışanlar da var. Hər ikisi təqdirdə layiqdir. Ustadım Mixail Borisov deyirdi: "Həll oğurlayıb özünküləşdirdiyin ən yaxşı formadır". Amma kimdən? Kimdən? Xeyr, oğurluğu deyəndə ustad "Youtube"dan çırpışdırmağı nəzərdə tutmurdu. O həyatdan oğurlamağı deyirdi. Müşahidələri deyirdi. Həyatdan oğurlayıb bu həyati faktları teatr dilinə tərcümə etməyi deyirdi".

**Emin**


Təsisçi və baş məsləhətçi: **Aqil ABBAS**

Baş redaktor: **İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 159**
Çapa imzalanmışdır: 14.12.2023